**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**FƏLSƏFƏ VƏ İCTİMAİ ELMLƏR KAFEDRASI**

**Fəlsəfə fənni üzrə**

# DƏRS VƏSAİTİ

(***bakalavrlar üçün***)

**Azərbaycan Dillər Universiteti**
**Elmi Şurasının 31.05.2017-ci il tarixli**
**09 saylı protokolu ilə təsdiq edilmişdir.**

**BAKI – 2018**

## ÖN SÖZ

Dərslik tərtib edilərkən ali məktəb tələbələrinin başqa fənlərdən aldığı biliklər, həmçinin onların ümumi inkişaf səviyyələri nəzərə alınmışdır. Hesab edirik ki, gələcəkdə bu fənnin həcmi artırıla bilər, ona görə də dərs vəsaiti hazırlanarkən bu perspektiv hal nəzərə alınmışdır. Fəlsəfənin əsaslarının aparıcı sahə olduğunu nəzərə alaraq bütün kurslar üçün ayrı-ayrılıqda yox, birləşmiş hazırlanması qərarlaşdırılmışdır.

Təqdim edilən dərs vəsaiti insanı cəmiyyət üçün faydalı fəaliyyətə hazırlamaqda əsaslıdır.

# GİRİŞ

Fəlsəfə mükəmməl dünyagörüşü olaraq insan həyatının bütün sahələrinə təsir edir. Fəlsəfə biliyin ən humanist, nəzəri formasıdır. Çünki o, insanla xüsusi dildə danışır, ona kim olduğunu izah edir. Fəlsəfənin əsas vəzifəsi insan mənəviyyatının ali humanist əqidələr sistemini inkişaf etdirməkdir. Müasir dünya fəlsəfənin köməyi ilə antik dövrdən başlayaraq indiki dövrə qədər olan təbiət, insan və cəmiyyət haqqındakı bütün suallara cavab verir. Fəlsəfə fənninin tədrisi müasir gənclərdə mənəvi-əxlaqi prinsiplərinin düzgün qavranılmasına təsir edir. Dahi filosofların əsərlərini oxumaqla fəlsəfi məktəbləri, cərəyanları, nəzəriyyələri qavramaqla gənclər öz gələcək problemlərinin aktual həllində doğru atdıqları addımları müəyyən edir.

Tələbələr fəlsəfə fənninin mənimsənilməsində onların dünyagörüşününün zənginləşməsi, təfəkkürlərinin inkişaf etməsi, fəlsəfi cərəyanların həlli , görkəmli filosoflarının müdrik kəlamları (Sokrat, Aristotel, Kant, Bekon) və s. zəngin düşüncələr yarada bilər.

Fəlsəfə insanların mədəniyyətinin zənginləşməsinə, cəmiyyətdə baş verən sosial-siyasi, mədəni proseslərin düzgün anlaşılmasına köməklik göstərir. Fəlsəfə fənninin tədrisi tələbələrin gələcəkdə düzgün həyat tərzi seçmələrinə, dünyagörüşlərinin düzgün formalaşmasına təkan verir.

**Fəlsəfə anlayışı, Fəlsəfə nədir?**

*FƏLSƏFƏ* - qədim bilik sahələrindən biri, insan biliyinin və mənəvi mədəniyyətinin ən qədim elmlərindən biridir. Onu “elmlər elmi” adlandırırlar. İlk dəfə Şərqdə - Misirdə, Babilistanda, Çində, Hindistanda təşəkkül tapmış, e.ə. VII - VI əsrlərdə Antik Yunanıstanda klassik forma kəsb etmişdir.

**Fəlsəfə** - etimoloji baxımdan yunanca “phileoc” sevirəm, “sophia” - hikmət sözlərinin birləşməsindən əmələ gəlib, mənası “hikməti sevirəm” deməkdir. Şərqdə isə “müdriklik” elmi kimi meydana gəlib.

İlk dəfə “Fəlsəfə” sözünü Pifaqor işlədib və özünü “filosof” adlandırıb. Lakin o belə deyib: “Mən öz yerimi bilirəm. Bilirəm ki hikmət yalnız Tanrı biliyidir və məndə ola bilməz. Mən ancaq hikməti sevirəm”.

Ərəb alimi Əbu Nəsr Əl-Fərabi yazıb: “Bu elm deyirlər qədimdə İraq əhli olan Gildanilərdə mövcud olmuş, sonra Misir əhlinə, ondan yunanlara, daha sonra assurilərə və nəhayət ərəblərə keçmişdir. Həmin elmin bütün məzmununu öz ifadəsini yunan dilində tapmışdır. Parmenidin fikrincə, **hikmətli insan** filosof adlanır. Kant fəlsəfəni insan ruhunun təbii meyli adlanır. Rus alimi **Solovyov** yazırdı ki, fəlsəfənin hədəfi mövcudatın hər hansı tərəfi deyil, bütöv mövcudatdır, öz mənası məzmunu ilə bütün kainatdır”.

İngilis filosofu Rosselə görə, fəlsəfə din ilə elm arasında sahibsiz torpaqdır. Elmlə onu yaxınlaşdıran biliyin həqiqiliyini öyrənmək, din ilə dünyanı izah etmək, insanın şüuruna və davranışına təsir göstərməkdir.

Böyük yunan filosoflarından biri məhkəmədə öz ideyaları barədə demişdir ki, fəlsəfə ilə ona görə məşğul oluram ki, həyatı təhlil etmədən, həyatı anlamadan yaşamağa dəyməz.

Niştse demişdir ki, hündür bir dağda buz içində yaşamaqdır fəlsəfə.

Saflıq qardaşları: cəmiyyəti dağılmadan xilas edə bilər fəlsəfə.

Uğurlu siyasət bəşəri tərəqqiyə xidmət edən, siyasi kurslar həmişə fəlsəfəyə söykənir. Fəlsəfə ideologiya üçün təməl rolunu oynayır.

Fəlsəfə nəyi öyrənir? - Fəlsəfə insan idrakı üçün maraq doğuran istənilən obyektiv və subyektiv gerçəkliyi öyrənir.

**Fəlsəfə** - dünyanın dərk edilməsinin xüsusi forması olub, varlığın ümumi prinsiplərinə dair baxışlar sistemi həm də ən yaxşı nəzəri təfəkkür məktəbidir. **Fəlsəfə-** insanın gerçəkliyə münasibətini ümumiləşmiş şəkildə əks etdirən ideyalar, prinsiplər və qanunauyğunluqlar haqqında təbiətin, cəmiyyətin və təfəkkürün mövcudluğu və ən ümumi inkişaf qanunları haqqında elmdir.

**Fəlsəfə** dünyanın mahiyyətini, həyatın mənasını, görünənlərdə görünməyənləri öyrənir.

Fəlsəfənin mahiyyəti əbədi və mütləq həqiqətə nail olmaq deyil, bu həqiqəti daim axtarmaqdır. Bu cəhətinə görə fəlsəfə daim mövcuddur və özünü dünyagörüşünün forması kimi ifadə edir. O, insanın zəkası üçün böyük mənəvi tələbatdır. Öz məzmunu və forması etibarilə spesifik dünyagörüşü, təbiətə, cəmiyyətə, insana dair ən ümümi baxışlar sistemidir.

Ümumilikdə fəlsəfənin öyrənməyin əhəmiyyəti:

1.Fəlsəfə insanın malik olduğu nəzəri biliklər sisteminin bünövrəsidir.

2.Fəlsəfəni bilən insan elmin digər sahələrində uğurlu olur.

3.Fəlsəfə digər elmlərin inkişafına kömək edir.

4.Fəlsəfə gerçəkliyi mənəvi cəhətdən mənimsəmənin yollarını müəyyənləşdirir

**Fəlsəfə** - bir tərəfdən xüsusi qanunları və kateqoriyaları vasitəsilə gerçəkliyi ən ümumi və dolğun şəkildə əks etdirdiyi üçün spesifik elmdir, digər tərəfdən isə təbiət, cəmiyyət və təfəkkürün ən ümumi qanunlarından bəhs etdiyinə, insanın gerçəkliyə ümumiləşmiş münasibətini əks etdirən ideya və təsəvvürlərinin məcmusu olduğuna görə dünyagörüşüdür.

**Fəlsəfənin predmeti:**

*Ontologiy*a – varlıq haqqında təlim

*Qnesologiya "iqnostis" yunanca bilik,"loqos" təlim deməkdir* -idrak haqqında təlim

*İnsan,təbiət və cəmiyyətdir*.

a) İnsan, subyektdən kənar olan dünya, b) insan, onun dünyaya münasibəti onun dünyagörüşü (humanist, aksioloji yanaşma), c) dünya və insanın obyektivlik və subyektivliyi, onların qarşılıqlı təsirindən bərabər əhəmiyyətə malik olması (rasionallığın xüsusi tipi) kimi aydınlaşır. Hegel fəlsəfəsinin predmetini və məzmunu kimi mütləq ideyanın həqiqiliyi, mütləq ideyanın əbədiliyi formasında ruhlar dünyasında ən ümumiliyi (zəruriliyi) nəzərdə tuturdu.

Feyerbax fəlsəfənin predmetini gerçəkliyin özündə görürdü. Ən mühümü isə insandır. Qədim Hind, Çin filosofları fəlsəfənin predmeti kainatın ümumi təbiəti - insan, təbiət və Allahdır. Qusserlə görə fəlsəfənin predmeti ideyalar, ideallara, əql olmalıdır.

**Fəlsəfənin başlıca mənası -** əsasən dünyagörüşü məsələlərinin qoyuluşunda və onlara dair cavabların axtarışındadır. Fəlsəfənin əsas məsələsi nədir? - Konkret olaraq **"insan".**

Fəlsəfənin predmeti cəmiyyətin mənəvi həyatının bütün sahələrinin, elmin və nəzəri fikrin inkişafı ilə əlaqədar dəyişmişdir.

**Fəlsəfənin obyekti** - varlıqdır, təbiətdir, cəmiyyətdir, insandır, real gerçəklikdir.

Fəlsəfənin predmeti- ən geniş mənada ümumiyyətlə, "dünya-insan" sistemidir. Fəqət hər hansı ümumi yox elə ümumi ki, insanın ona münasibətilə bir başa bağlıdır. İnsanın dünyaya münasibəti fəlsəfənin əbədi predmetidir. Fəlsəfə-rəhbər

prinsipi ağıl olan və məqsədi özünütənqid yolu ilə başa düşmək olan fəaliyyətdir. (Sokrat)

## Fəlsəfənin əsas məsələsi

*Fəlsəfənin əsas məsələsini klassik şəkildə Hegel formulə edib*. Onun fikrincə fəlsəfə şüurla varlıq arasındakı əksliyi həll edir. Feyerbaxa görə isə, fəlsəfənin bütün tarixi mənəvi olanın hissi olana münasibəti məsələsi ətrafında cərəyan edir. Engels isə təfəkkürün varlığa, ruhun təbiətə münasibəti kimi təsvir edir.

Fəlsəfənin əsas məsələsinin strukturunu təşkil edən *"varlıq", "təfəkkür", "ruh" və "təbiət"* anlayışları *"dünya" , "insan" "maddi"*-mənəvi problemlərin həllinə xidmət edir.

Şüurun varlığa,varlığın isə şüura münasibəti məsələsidir. Fəlsəfənin əsas məsələsi materiyanın, yoxsa şüurun birinciliyi məsələsidir. Buda özünü 2 mövqedə göstərir: 1.Materialist mövqe – materialistlərin fikrinə, ilkindir, şüur, ideya, ondan törəmədir. 2. İdealist mövqe – dünyanı şüurdan, ruhdan çıxış edərək izah edirlər

Fəlsəfənin əsas məsələsi 2 tərəfi mövcuddur:

1)Ontoloji tərəf(varlıq tərəfi-materiyanın,yoxsa şüurun birinci olduğu probleminin qoyuluşundan və həddinən ibarətdir.Fəlsəfənin əsas məsələsini ontoloji tərəfdən əsas istiqamətləri:

1)Obyektiv idealizm 2)Subyektiv idealizm 3)Materializm

4)Vulqar materializm 5)Dualizm 6)Deizm

Dualizmin əsasını Dekart qoymuşdur.Əsas xüsusiyyətləri aşağıdakılardır :

2 müstəqil substansiya mövcuddur ~ maddi və mənəvi

Maddi əşyalar - maddi ideyalar – mənəvi substansiyalar

Fəlsəfənin 2 əsas məsələsi: dünyanın dərk olunması ilə bağlıdır. 2 əsas məsələsi var: 1.Qnostisizm – biliyin dərk edilməyini qəbul edir 2.Aqnostisizm –

biliyin dərk olunmasını inkar edir. Sokrat deyirdiki, bütün bilmədiklərimi ayağımın altına yığsam başım səmaya çatar, insan dərk etməyə qadir deyil. Allah varmı? sualına sofistlər belə cavab verirlər. Bu suala cavab verməyə insanın ömrü çatmaz. Ona görədə dərk edəcəyin şeylər haqqında düşün.

Hər şey dünyada bu və digər substansiyanın törəməsidir.Həmçinin insanda 2 substansiya birləşir.Həm mənəvi, həm maddi.Materiya və şüur tam varlığı bir-birinə əks olan və bir-biri ilə əlaqəli olan 2 tərəfidir.Deizm 8 tərəfdarları Allahın, varlığını qəbul edir.Onun dünyanı yaradıb sonrakı inkişafında iştirak etməməsini və insanlarin həyatına hərəkətlərinə təsir etməməsini söyləyirlər. Onlar materiya ruhu bir-birinə qarşı qoymurdular.Çünki materiyanı ruhlandırılmış hesab edirdilər.Fəlsəfənin əsas məslələsinin qnesoloji tərəfi: emprizm,rasionalzm,irasionalzm,qnostizm,aynostsizm. Emprizm tərəfdarları belə hesab edirdilər ki idrakın əsasında yalnız təcrübə və hislər ola bilər. Rasionalizmin banisi Rena Dekartdır. Rasionalizmin əsas ideyası odur ki həqiqi bilik bilavasitə yalnız idrakdan götürülə bilər və hissi təcrübədən asıli deyil. Rasionalizmin tərəfdarları...... Şapen Haure Nitşedir. Onlara görə dünya xaotikdir və daxili məntiqə malik deyil yəni O hec vaxt zəka ilə dərk olunmayacaq. Rnostizm əsas müddəaları..... dünya dərk olunandır idrakın imkanları məhdud deyil. Aqnostisizm banisi Kantdır. Kanta görə dünya dərk olunmayandır. İdrakın imkanları insan dərrakəsinin dərk edən imkanları ilə məhdudlaşır.

**Fəlsəfədə 3 əsas cərəyan var**: *Materializm, idealizm və dualizmdir*.

***Materialistlər-*** mənəvini maddinin məhsulu hesab edir, təbiəti və materiyanı ilkin başlanğıc kimi qəbul edirlər.

*Materializmə görə* - ilk başlanğıcdan maddidir, şüur isə ondan törəmədir.

***İdealistlər*** - ideyanı, şüuru, ruhu, 1-ci maddi olanı ondan törəmə hesab edirlər.

*İdealizmə görə* - dünyanın əsasında maddidən əvvəl gələn, ideal olan durur.*İdealizmdə iki yerə bölünür*. Obyektiv və subyektiv idealizm. Obyektiv idealizmə görə bütün varlığın əsasında, başlanğıcda insanların şüurundan asılı

olmayaraq, obyektiv halda mövcud olan qeyri-maddi, maddi olmayan- nə isə durur yəni Allah, dünya zəkası, ideya ruhu daxildir.

***Dualistlərə görə*** - aləmin əsasında iki başlanğıcı maddi və mənəvi stansiyaları götürürlər. Subyektiv dualizmə görə isə dünyanın əsasında fərdi şüur dayanır. Daha doğrusu dünyaya baxış fərdi şüur prizmasından həyata keçirilir.

**Fəlsəfənin funksiyaları:**

1. *Dünyagörüşü-* insanın aləmə münasibəti, dünyada baş verənləri və hətta özünün öyrənilməsini başa düşməsi onun dünyagörüşündən asılıdır.
2. *Qneseoloji-* hər bir idrakın son məqsədi, həqiqətin təyin edilməsidir.
3. *Metedoloji-* bu və ya digər məqsədə çatmağımın müəyyın üsuludur.
4. *İnteqrativ-* daha çox elmlə bağlıdır. Insan real gerçəkliyin yeni-yeni sahələrini özünün tədqiqat obyektinə çevrir.
5. *Aksioloji-* bu funksiya daha çox fəlsəfənin praktiki tərəfi ilə bağlıdır. Insan həyatının ölümü, ölməzlik haqqında düşünür, yaxşını pisdən, faydalını faydasızdan ayırmağa çağırır. Insanın gerçəklikdən predmet və hadisələri qiymətləndirməsi haqqında təlimdir.
6. *Kulturoloji-* fəlsəfə yarandığı gündən bu funksiyanı yerinə yetirir. Insan bilik dairəsini genişləndirir, idraka marağı həvəsləndirir.
7. *Sosioloji-* cəmiyyət haqqında təlimdir.
8. *Praksiologiya-* insanın əməli fəaliyyəti praktika haqqında təlimdir.
9. *Onfoloji-* varlıq haqqında təlim

**Fəlsəfənin 2 metodu var:** Dialektika, Metafizika.

**Dialektika** - yunanca “dialeqo” mübahisə, müsahibə aparmaq. Dialektika ümümi əlaqə, dəyişkənlik və inkişaf haqqında təlimdir. 2 fikir bir-biri ilıə toqquşmalıdır ki, yeni fikir əmələ gəlsin

Metafizika - yunanca fizikadan sonra gələn deməkdir. Köhnə mənada varlığın, bütün mövcudatın prinsipcə dəyişməz hesab edilərək mahiyyətini dərk etməyə çalışan fəlsəfədir. Yeni mənada dialektikaya zidd gələn təfəkkür metodu kimi başa düşülür. a

Fəlsəfədə qeyri-müstəqil metodlar - **eklektika** (yunanca seçən ayıran) hadisələr haqqında bir - birinə zidd olan fikirləri, nəzəriyyələri mexaniki olaraq birləşdirən təfəkkür üsuludur.

**Sofistika** - (yunanca sophitsa fərdilikdə mübahisə etmək bacarığı) hadisələrin izahında düzgün olmayan müddəalara əsaslanaraq zaman, dəlil və sübutları həqiqət kimi təqdim etmək prinsipindən çıxış edir.

## Fəlsəfənin elmlər sistemində yeri

Fəlsəfə elmlər kompleksində mühim yer tutur. Fəlsəfə və konkret elmlər bir növ üzərində yüksəlmiş sonralar şaxələnmişlər. Ingilis alimi Rassel *"Qərb fəlsəfəsinin tarixi"* adlı əsərində yazır ki, "teologiya ilə elm arasında hır iki tərəfdən həmlələrə məruz qalan sahibsiz 1 torpaq vardır". Bu sahibsiz torpaq mıhz fəlsəfədir. Fəlsəfənin bir elm kimi qərarlaşması Kantın adı ilə bağlıdır. Fəlsəfə bütün elmləri bir-birilə əlaqələndirən vəsilə rolunu oynayır. Elmlər sistemində fəlsəfənin başlıca vəzifəsi bir çox elm sahələrinin nəailiyyətlərini ümumiləşdirərək, təbiəti, cəmiyyəti, insanı öyrənən elmlərin bir növ inteqrasiyası vasitəsi kimi çıxış edir. Onun tədqiq etdiyi problemlər fizikanı, riyaziyyatı, kimyanı, biologiyanı, psixologiyanı, etnoqrafiyanı, sosiologiyanı, tarix, hüquq, ədəbiyyatçünaslıq, iqtisadiyyat və s. elmləri maraqlandırır. Yuxarıda sadaladığımız elmlərin öyrəndiyi proses və hadisələrin tədqiqi mahiyyətcə fəlsəfi problemlərin qoyuluşuna gətirib çıxarır. Fəlsəfə, onun tarixi və etika, estetika kimi sahələri nəinki elmi nəzəri, həm də praktik əhəmiyyətə malikdir. Elm dəyərli nəzəri əsaslara malik olduqda fayda verə bilər. ET-nın inkişafı insanın fiziki qüdrətini artırır, mənəviyyatını cılızlaşdırır. Deməli elmin universal dəyərli mənəvi yönümü olmalıdır. Elmin belə

qiymətli dünyagörüşü əsaslarını müəyyən etmək fəlsəfi xarakter daşıyır. Fəlsəfənin öyrəndiyi ən ümumi qanunauyğunluqlar və anlayışlar dünyanın elmi cəhətdən dərk olunmasının metodoloji əsasını verir. Belə əsas xüsusi elmlərin anlayışları onların tədqiqat obyekti ilə məhdudlaşır. Riyaziyyatda "*differensial", "inteqral",* fizikada "*kütlə","enerji",* biologiyada*"assimilasiya","dissimilasiya"* və s. əsas anlayışları misal göstərmək olar. Lakin onlardan fərqli olaraq *"varlıq", "zidiyyət", "inkar", "məzmun və forma", "mahiyyət", "təzahür", "səbəb", "nəticə"* və s. kimi fəlsəfi anlayışlardan bütün elmlərdə istifadə olunur. Fəlsəfədə öz növbəsində insan həyatının əsas prinsiplərinin izah etmək üçün təkcə elmə deyil dinə, incəsənətə müraciət edir. Fəlsəfənin başqa elmlərlə biliyin digər sahələri ilə qarşılıqlı əlaqəsi onun inkişafının zəruri şərtidir.

## Fəlsəfənin qaynaqları- mifologiya və din

***Mifologiya***- (mifos-yunanca rəvayət, əfsanə, nağıl, dastan, logos-söz anlayış, təlim) ictimai inkişafın ibtidai mərhələsi üçün səciyyəvi olan dünya görüşü, ictimai süurun ilkin formasıdır. Mifologiya miflər haqqında təlimə deyili.

***Mif***- dünyanın yaranması, təbiət hadisələri Allahlar, qəhrəmanlar, qədim xalqların adət-ənənələri, etiqadları haqqında möcüzəli əfsanəyə rəvayət deyilir.

***Mif***- qədim insanların süurunda gerçəkliyin primitiv, fantastik, obrazlı-bədii təcəssümüdür. Insanın təbiətlə, ətraf aləmlə gündəlik təması onun mifik süurunun formalaşması üçün əsas olmuşdur. Mifologiyada təbii hadisələrin insaniləşdirilməsi, kosmosun canlılaşdırılması meylidə bu zəmində yaranmışdır. Mifdə emosiyanınmühüm yer tutması onunla izah olunur ki, burada insanla təbiət, subyektlə obyek arasındakı ünsiyyət realsitcəsinə deyil mistik mənada qavranılır. Arxaik təfəkkür tipi olan mifdə məcazi məna güclü olduğundan o fantasiya, xəyal və möcüzələr aləmi kimi çıxış edir. Mifologiyanın möcüzələrindən ibarət olan məzmununda ibtidai insanların etiqadeları, həyəcanları, qəlb çırpıntıları əks olunur. Qədim yunanlar Allahlar və qəhrəmanlar haqqında əsərləri mifologiya adlandırılar.

Mifologiyanın köməyi ilə insan kosmosu ətraf aləmin predmet və hadisələrini bəşəriləşdirməklə canlılaşdırmaqla onlara alışır, heyrət və həyəcanlarını dəf edir,özünə təskinlik verir, pisi yaxşıdan ayırır. Mifologiyada keçmiş, indi və gələcək uzlaşdırılır. Mifologiya real həyati əsaslara malik dünya duyumudur. Mifologiyada yarandığı dövrün hər nəyi varsa hamısını özündə birləşdirən, bölünməz vahid universal süur forması olub, müxtəlif xalqların poetik zənginliyini və müdrikliyini əks etdirir.

***Din***- dünyagörüşün spesifik forması olub, dünyanın qavranılmasında onun ikiyə bölünməsini irəli sürür. Axirət dünyası və təbii dünyaya bölünən dünya din tərəfindən fövqəltəbii qüvvələrin fəaliyyət məhsulu kimi təqdim olunur. Dində başlıca cəhətlər etiqad və ayinçilikdir.

***Etiqad***- dinin daxili cəhəti.

***Ayinçilik***- onun xarici, praktik, özününümayiş və özünütəbliğ cəhətidir.

Etiqad, əqidə dini şüurun mövcudluq üsulu, insanın daxili vəziyyətini səciyyələndirən xüsusi əhval ruhiyyə həyəcan və s.-dir.

**Dünya dinləri**- islam xristianlıq və buddizm.

Dinin ən mühüm və tarixi missiyası insanlar arasında, ümumbəşəri əxlaqi formalarının formalaşmasında böyük rola malik olmasıdır. Din özünün zəngin ayin və mərasimləri vasitəsilə məhəbbət, xeyirxahlıq, səbir, əzablara sinə gərmək, nəciblik, vicdan, borc, ədalət və s. müsbət keyfiyyətlərin təbliğinə və müdafiəsinə kömək edir.

***Fövqəltəbiilik***- əslində real hadisələrin, gerçək varlıqların inkarı olub, onlara qarşı qoyulur. Məsələn, Allah hər şeyin yaradıcısıdır, əbədidir. Allaha inam dində başlıcadır.

Fəlsəfə ilə dinin yaxınlığı onların hər ikisinin şüuruna və davranışına təsir göstərn oxşar problemlərin həllinə səy göstərirlər.

## Dünyagörüşü onun strukturu və tarixi tipləri

**Dünyagörüşü -** insanın dünyaya münasibətini müəyyənləşdirərək baxışların dəyər, norma və qaydaların məcmusu olub, onun davranışını istiqamətləndiricisi və tənzimləyicisi rolunda çıxış edir.

**Dünyagörüşü** – ictimai və fərdi şüurun mürəkkəb , sintetik və inteqral nə varsa yaratdığı törəməsidir.

**Dünyagörüşü –** mürəkkəb yekcins olmayan çox cəhətli və ziddiyyətli, sosial- mənəvi, emosianl, psixoloji fenomendir.Onun elmi, fəlsəfi, ümumi-bəşəri, milli,sosial sinfi, siyasi, mənəvi, dini, ateist, estetik və digər çalarları vardır.

**Dünyagörüşü –** insanın gərçəkliyə münasibətini əks etdirən və fərdiyyətini tənzim edən ümumiləşniş soial – mənəvi, elmi, siyasi, prinsip, norma və baxışların məcmusudur.

**Dünyagörüşü –** insanı əhatə edən dünya haqda insanın özünə, təbiətə, cəmiyyətə münasibəti, onun özünün dünyada yeri və mövqeyi haqda ümumiləşmiş görüşlər, ideallar, baxış,inam və prinsiplər sistemidir.

Dünyagörüşü dedikdə hər şeydən əvvəl təbiət və insanın qarşılıqlı əlaqəsi nöqteyi nəzərindən dünyanın gerçəkliyin mənəvi mənimsənilməsi başa düşülür.

Onun **obyekti** bütövlükdə dünyadırsa, **predmeti** təbiət aləmi ilə insan aləminin, makrokosmosla mikrokosmosun qarşılıqlı əlaqəsidir. Dünyagörüşdə dərketmə, qiymətləndirmə və fəaliyyət kimi 3 mühüm amilin qarşılıqlı əlaqəsi vardır.

Dünyagörüşdə müxtəlif biliklər, baxışlar, əqidələr, əhval ruhiyyələr, səylər, ümidlər, birləşərək insanların dünya və özlərini anlamağın səviyyəsini təşkil edir. Onun əsas tərkib hissəsi bilikdir.Onun tərkibində ümumi səciyyə daşıyan adi, həyati, məişət, neşə, elmi biliklər mühüm rol oynayır.

Fəlsəfə dünyagörüşünün nəzəri əsasıdır. Dünyagörüşündə intellektual və emosional səviyyələrin nisbəti müxtəlif olur. Dünyagörüşü 3 mərhələyə bölünür.

1. **Dünyaduyumu** – dünyagörüşün əhval – ruhiyyə, hiss və həyacan səviyyəsində emosional psixoloji tərəfidir. Duyğu orqanları vasitəsilə dünyanın dərk olunması.

2. **Dünyaanlamı** – dünyagörüşün idrakı inteleaktual tərəfidir.Dünya duyuçu insanların emosional haləti, nikbin və bədbin hisləri ilə bağlıdır.Bura insanın keçirdiyi həyat tərzi, cinsi mənsubiyyəti, qeyrət, namus, tempramenti və s aiddir. Dünyanı anlama təsəvvür vasitəsilə dərk etmə. Yəni göz önündə olmayan bir şey haqqında təsəvvürlərimizin olması

Dünyagörüşünü 4 mühim tarixi dövrə ayırmaq olar ~ **mifoloji, dini, elmi, fəlsəfi mərhələləri**

**3. Dünyanı qavrama** – *hissi emosianal tərəf güclüdür. Lakin, aləm haqqında obraz yaratmaq səciyyəvidir.*

**Mif** – ümumi ideya ilə ən adi hissi obrazın birbaşa maddi eyniyyətidir.Miflər özləridə bölünür: ***Kosmoqonik,entnoqrafik,antropomorfik, təqvim mifləri.***

Fəlsəfəyə qədərki dünyagörüşü kimidir. Dünyanın (sokral) gizli obrazlarla dərkidir.

Ümumiyyətlə miflər bəşəriyyətin mənəvi mədəniyyətinin ən qədim formasl olub, özündə ilk bilik ünsürlərini, dini etiqadları, siyasi baxışları, incəsənətin müxtəlif növlərini və fəlsəfəni birləşdirir.

Mif ilə din arasında 3 ibtidai din olmuşdur: 1.Anemizm (ruhlara, totemlərə, bitki və heyvanlara inam) 2.Fetisizm (cansız əşyalara inam) 3.Canlı Fetisizm (heyvanlara inam)

Dünyagörüşünün aşağıdakı tarixi tipləri var:

1.Kosmosentrizm – dünyanın yaranmasının təbiətlə, kosmosla əlaqələndirilməsi.

2.Teosentrizm – dini baxışlara üstünlük verir. Allah ilkin və əsas reallıq hesab edilir.

3.Antrosentrizm – kosmosentrizmin və teosentrizmin yaradıcı sitterfidir. Əsas şəxsiyyətin dəyərliliyini və ləyaqətini ifadə edən humanizm ideyalarıdır.

**Dini dünyagörüşü** – dünyanın qavranılmasını 2 yerə bölür: axirət və təbii dünya. O fövqəl təbii qüvvələrin fəaliyyət məhsulu kimi təqdim olunur.Dində başlıca cəhət etiqad və ayinçilikdir.Dinin ən mühim və tarixi miqyası insanlar arasında vəhdətilik, formalaşmasında böyük rol oynamasıdır.Dinlə fəlsəfənin yaxınlığı ondan ibarətdir ki,hər iki insanların şüuruna və davranışına, əxlaqına təsir edən dünyagörüşün ictimai-tarixi formasıdır. Dinləri aşağıdakı formada qruplaşdırmaq olar: 1. ibtidai və müasir dinlər 2. milli (yəhudilik) və dünyəvi (xristian, islam, buddizm) dinlər

**Elmi dünyagörüşü** – təbii- elmi və sosial tarixi biliklərə dünyanın təbii elmi mənzərəsinə əsaslanan gərçəklikdə hadisə və proseslərin inkişaf və deyişməsinin elmi səbələrinə istinad edərək dünya haqda elmi anlayış və qanunauyğunluqların ümumiləşmiş inkişafını yad edən baxış ideaya prinsiplərinin məcmusudur. Dünyanın dərkini sübuta əsaslanmasıdır.

**Fəlsəfi dünyagörüşü** – (Dünyanın rasional şəkildə bilik və zəkaya arxalanaraq izah edir). nəzəridir,dünyaya və orada insanın yerinə dair, insanı gərçəkliyə,təfəkkürün varlığa münasibətinə dair ən ümumi nəzəri baxışlar sitemidir. İnsan fəlsəfə üçün məhək daşıdır.

Dünyagörüşünün strukturunda aşağıdakı baxışlar mövcuddur:

1.İlkin elementar səviyyə - adi şüur səviyyəsində formalaşan baxışlar.

2.Konseptual səviyyə - dünya, məkan, zaman, ictimai inkişaf, insan və onun fəaliyyəti, bəşəriyyətin gələcəyi haqqında konsepsiyalar birləşir.

3..Metodoloji səviyyə - bu səviyyədə formalaşan biliklər insanı və dünyanı dəyər baxımından izah edir.

**Fəlsəfənin mənşəyi və inkişaf mərhələləri.**

Fəlsəfənin inkişafı bir neçə mərhələdən keçmişdir: **1)** Qədim dövr fəlsəfəsi - quldarlıq dövr fəlsəfəsi adlandırılır. e.əIII - I minillikləri əhatə edir və eramızın I-II əsərlərinə qədər davam edir.

**2)** Feodalizmin ilkin inkişaf dövrü II - VIII əsrləri əhatə edir. Həmin dövrdə xristianlıq və İslam dinləri dövlət dinləri səviyyəsinə çevrilmişdilər.

**3)** Orta əsrlərin klassik fəlsəfəsi IX-XIV əsrləri əhatə edir. Bu dövrlər fəlsəfə dini-mistik  və idealist istiqamətlərin güclənməsi ilə səciyyələnir.

**4)** İntibah və yeni dövr fəlsəfəsi XIV-XVII əsrləri əhatə edir. Antik fəlsəfə və elmi fikrin inkişafı ilə səciyyələnir.

**5)** Maarifçilik və inqilabi demokratizm fəlsəfi fikrin, klassik alman fəlsəfəsinin, marksist - leninçi fəlsəfi konsepsiyasının əmələ gəlməsi və inkişaf mərhələsi XVIII - XIX əsrləri əhatə edir.

**6)** XX əsr fəlsəfi fikrin inkişafı mərhələsi. Fəlsəfənin daha çox intellektləşməsi ilə səciyyələnir.

**Qədim Hind, Çin fəlsəfəsi**

Qədim Hindistanda və Çində ilkin fəlsəfi təsəvvürlər e.ə. IV-III əsrlərdə formalaşmışdır. Qədim Hind fəlsəfəsi 3 dövrə bölünür:

I. Veda dövrü (e.ə. XV-VI əsrlər)

"Veda" sözü sanskritdən tərcümədə "bilik" deməkdir. Bu dövr ibtidai icma quruluşunun dağılması və quldarlıq quruluşunun meydana gəlməsi ilə səciyyələnir.

Vedaların tərkib hissələri: 1) "Müqəddəs yazılar" dini himnlər (samxitlər) 2) Brahmanlar (kahinlərlə) yazılmış və onlarla dini ayinlərin göndərilməsində işlənən mərasimlərin təsviri 3) meşə zahidlərin kitabı (aranyaklar) 4) Vedalara aid fəlsəfi şərhlər (upanişadlar)

Bizim zamanımıza qədər gəlib çatan Vedalar: Riqveda, Samaveda, Yacurveda, Atxarvaveda

II. Epik dövr (e.ə. Iminilliyin II yarısı)

Onun ən şöhrətli mənbəsi sayılan 2 poema- “Mahabbarata” və “Ramayana”dır.

a) “Mahabbarata”-nın başlıca məzmununu xalq inamları və köçəri xalqlar arasında mifologiyası ilə Vedaların ehkamçı brəhməninin sintezi təşkil edir
b) “Ramayana” poeması köhnə allahlar ilə yeni allahlar arasındakı münasibətlərdən, politeist pərəstişlərdən bəhs edir.
c) Manu qanunları- burada qədim hind cəmiyyətinin müxtəlif təbəqələrinin hüquq və vəzifələrini əks etdirən normalar əsas yer tutur.

III. Hind fəlsəfəsinin klassik dövrü e.ə. I minilliyin sonlarından feodalizmə qədər gəlib çıxır.

Qədim Hindistanda fəlsəfə qəbilə etiqadlarını və adətlərini qoruyan brəhmənizmə qarşı mübarizə gedişində yaranmışdır. E.ə. VI-V əsrlərdə brəhmənizmi tənqid edən bir sıra cərəyanlar yaranmışdır. Bunlar ortadoksal və qeyri-ortadoksal cərəyanlar idi.

Ortadoksal məktəblərə darşan, vedamka, yoga, nyaya, vayşeşika və mimansa, qeyri-ortadoksala çarvaklar və ya lokayata, caynizm və buddizim aiddir.

Çarvaklar fəlsəfəsi (4 ünsür deməkdir) və ya lokayata (loka dünya deməkdir) qədim Hindistanda ən nüfuzlu materialist təlimlər olmuşdur.

*Hind fəlsəfəsinin antologiyasının xüsusiyyətləri*

Hind fəlsəfəsinin antologiyası (varlıq və qeyri-varlıq haqqında nəzəriyyə) Ritanın qanunlarına- kosmik təkamülün, dövriyyəçiliyi, nizamı və qarşılıqlı əlaqələrinə əsaslanır. Varlıq və qeyri-varlıq müvafiq olaraq, Brahma kosmosun nəfəs verməsi və alması ilə assosasiya olunur. Öz növbəsində Brahma kosmos (yaradan Allah) 100 kosmik il yaşayır, sonra ölür və həmin anda absolyut qeyri-varlıq yer alır və yenə də 100 il ərzində yeni Brahmanın dünyaya gəlməsinə qədər mövcud olur. Deməli, hər 100 il ərzində sonsuz tarix bir-birini əvəzləyən kosmos və absolyut qeyri-varlığın həyatının növbələşməsidir. Brahma kosmosun hər bir yeni dünyaya gəlməsində həyat yenə də daha kamil formada mövcud olur.

Dünya daim qarşılıqlı əlaqədədir. Hər bir hadisə kosmosun həyatına təsir edir. Təkamülün, inkişafın məqsədi maddi formaların daim əvəzlənməsi ilə daha kamil ruha nail olmaqdır.

Hind fəlsəfəsinin qnesologiyasının əsas xüsusiyyəti əşyaların və hadisələrin xarici (görünən) cəhətlərini yox, onların dünya ilə təmasından şüurunda yaranan proseslərin öyrənilməsidir. bununla əlaqədar, hind fəlsəfəsi şüurun 3 növünü göstərir: maddi şüur (nuruşa), saf şüur (maya), yuxu şüuru (veraj)

Hind fəlsəfəsində ruhu təşkil edən 2 başlanğıc vardır:

Atman- insan canında Allah, Brahmanın hissəciyi. Atman ilkin, dəyişilməz və əbədidir.

Manas- həyat çərçivəsində yaranan insan qəlbi. Manas insanların əməllərindən, şəxsi təcrübəsindən asılı olaraq, daim təkamül edir, ali dərəcələrə nail olur və ya pislənir.

Buddizm- e.ə. V əsrdə Hindistanda yayılmış dini-fəlsəfi nəzəriyyədir. Mənası nurlanan, maariflənən deməkdir. Banisi Hindistan şahzadələrindən olan Sirdatha Qaumatadır. Bu təlimin səciyyəvi cəhəti onun etik, praktik istiqamətindədir. Burada şəxsiyyətin varlığı əsas yer tutur. Buddizmin əsasında 4 həqiqət durur:

1) İnsan doğulandan ölənə qədər əzab çəkir.
2) Bu əzabın səbəbi vardır. Həmin səbəb yaşamaq ehtirasıdır. Məhz o sevincdən, əzabdan keçərək, ölüb yenidən yaranmağa doğru aparır.
3) Əzabdan azad olmaq onun səbəbləri, yəni bu ehtirası aradan qaldırmaq mümkündür.
4) əzabından xilas olmağın yolu hissi ləzzət almaq ilə tərki-dünyalıq, özünə əzab vermə arasında yerləşir.

## Azərbaycan fəlsəfəsi

Azərbaycan fəlsəfi fikri bütövlükdə dünya, Allahla insanın təması, insanın əxlaqi məzmunu, substansional təbiətli tarixi proses, prizmasından ətraf mühitin dərk edilməsinin üsul və metodları haqqında dini, elmi, maarifcil baxışların mükəmməl sistemidir.

Azərbaycan fəlsəfi fikrinin əsas mərhələləri:

Qədim dövr və orta əsrlər Azərbaycan maarifçiliyi.

Qədim Azərbaycan fəlsəfəsinin əsasını dini mifoloji cərəyanlar təşkil edir.

1. Avesta- fəlsəfi fikrin qədim mənbəyi.
2. Zəvvanilik- III-IV əsrlər
3. Maniçilik- banisi Mani
4. Məzdəkilik- banisi Məzdək

Avesta qədim Azərbaycan fəlsəfi fikrinin əsasını təşkil edən Zərdüştlük dininin kitabıdır. Dualist din olan zərdüştlük b.e.ə. VII-VI əsrləri əhatə edir. Zərdüştlüyün əsas ideyası dünya qaydalarının, xeyir və şər, işıq və zülmət, həyat və ölüm arasında gedən mübarizədən asılı olması fikridir. Avesta (qanun) 3 kitabdan ibarətdir: Vendidad, Yasna, Vispered. 2 kitabda toplanmış dini mərasimləri əks etdirən mətnlər əsas yer tutur (Yaştlar). Yasnanın irili-xırdalı, müxtəlif vaxtlarda yazılmış 21 himndən ibarətdir. Yasnanın əsas məzmunu zərdüştün lirikası, qatlar təşkil edir. Vispered Yasnanın ayrı-ayrı hissələrinə əlavədir. Xeyir fikir, xeyir söz, xeyir əməl Avestada irəli sürülən əsas əxlaqi şüurlardır. Bu 3 tələb Zərdüşt dininin əsasıdır. Burada Hörmüz yeganə yaradıcı hesab edilir. Ahura qədim Assuriya

allahlarından biridir. Zərdüşt buraya “məzda” sözünü əlavə edib (bilən böyük yaradıcı deməkdir). Avestada Hörmüzün 20 adı göstərilir: qüdrətli, həqiqət, yaxşı, xoş olan, ağıl, təlim, alim, müqəddəs, ən güclü, kinsiz, qalib, hər şeyi hesablayan, görən, sağaldan, şəfaverən, yaradan. Zərdüşt təbliğ edir ki, şər əbədi deyil. Şər qüvvə isə burada Əhriman adlanır. Əhriman burada qaranlıq, insanlar arasında nifaq salan, insanlara aclıq, ehtiyac, kasıblıq gətirən, insanları gözəgətirən divlər vasitəsilə insanların həyatını çətinləşdirir.

**Zərvanilik- III və IV əsrlər.**

Ölkədə yayılmış qədim fəlsəfi mifaloji təlimlərdən biri zərvanilik idi.Bu təlimin əsas prinsipləri haqqında Avesta,qədim pəhləvi mətnləri,Quran,Orta əsr Şərq yazılı abidələri və çoxsaylı tətqiqatlar məlumat verir.Zərvanilikdə zaman və məkan varlığın yaradıcısı,bütün mövcud .şeylər sonsuz zamanın-Zarvana akaranın təzahürləri,mövcudatın fenomenləri od və suyun müxtəlif formlarda birləşməsi kimi təqdim olunur.Bu təlimə görə keyfiyyət iki dərəcəlidir:birinci keyfiyyəti təmsil edən işıq ruhu,əzəli və əbədi Hörmüz maddi varlıqları və həyatı yaradır.İkinci keyfiyyəti təmsil edən zülmət ruhu Əhrimən isə hər şeyi ölümə məhkum etdiyindən,əzəli olmadığı kimi,daimi də deyil.Orta əsr Şərq yazılı mənbələrində,zərdüştilik təlimində zərvanilik görüşləri tənqid olunur.Bununla belə bu təlim dünya fəlsəfəsinin sonrakı inkişafına,o cümlədən zərdüştiliyə də böyük təsir göstərmişdir.

Əsas müddəaları:

1)Dünyanın əsası sonsuz olan zaman və məkandır.

2)Təbii qanunauyğunluğun qəbul edilməsi

3)Minerallar, cisimlər və canlı orqanizmlər dünyasının ilkin mənbədən təbii yaranması.

Azərbaycan fəlsəfi fikrində digər mühüm cərəyan zərdüştilik idi.Zərdüştiliyin görkəmli abidəsi “Avesta”da dövrün sosial mədəni,xüsusilə fəlsəfi fikri haqqında ensiklopedik məlumat toplanmışdır.Orta əsr mənbələri,eləcə də bir çox sonrakı tətqiqatlar Zərdüştin tarixi Azərbaycan ərazisində yaşaması,”Avesta” nın bizə çatan mətninin əslinin isə Atropatena və Raqadan olan maqlar tərəfindən yazıya alınması barədə məlumat verir.Erkən zərdüştilik öz əksini qatalarda tapıb.Zərdüşt mövcudatın ilk səbəbini Ahuna Mazdada görürdü.Qatalarda kainatın tərkibi-yer, göy, okean, işıq, dağ və dənizlərin zaman daxilində yaranmasına,cənnət,həqiqət,xeyir,sülh və s.məsələlərə toxunulur.”Avesta”ya görə Ahura Mazda öz nurundan göy cisimlərini,ruhundan isə altı ölməz xeyir ilahəsini yaradır ki,bunlar Ahura Mazdanın ayrılmaz keyfiyyətlərini təşkil edir.Bu yaradılışın birinci dövrü idi.İkinci dövrdə isə Ahura Mazda maddi aləmi yaradır.Maddi aləm yarandıqdan sonra bura şər ruhu daxil olur və şər ilə xeyir arasında mübarizə başlayır.Bəşəriyyətin vəzifəsi Ahura Mazda və xeyir ruhları ilə birgə xeyiri şərdən ayırıb şər ruhuna qalib gəlməkdir.Bu qələbə insanların xoşbəxt

yaşayacağı üçüncü dövr olacaqdır.”Avesta”da şər ruhuna qarşı həqiqət,ədalət və işıq rəmzi olan Arta qoyulur.Ruhların mübarizəsində Kainatda konkret nəfslərin daşıyıcıları(insan,heyvan,bitki,mineral və s.)fəal iştirak edir.Kainatın daxilindəki bütün şeylər canlıdır.Nəfs həm konkretə,həm də mücərrədə xasdır.İnsanın nəfsi- onun inamı,dünyagörüşü,mənəvi prinsipləri ilə bərabər onun davranış tərzidir.Bunlar bütövlükdə insanın mahiyyətini təmsil edir və o,öz azad iradəsinə uyğun Xeyir və Şər yolunu seçir.Qatalarda mühüm yeri müharibəyə və hər növ zülmə qarşı etiraz,kəndlilərin və kasıbların mənafeyinin müdafiəsi,təbiətin mühafizəsi məsələləri tutur,bu işdə insanın rolu vurğulanır.

Zərvanilik və zərdüştiliyin Azərbaycan fəlsəfəsinin gələcək inkişafına xeyli təsir göstərmişdir.Yeni eranın ilk əsrlərində digər fəlsəfi cərəyanlara da rast gəlinir.Qədim dövrün sonu və erkən orta əsrlərdə manilik və məzdəkilik fəlsəfi görüşləri xüsusi yer tutur.Azərbaycanda manilik b.e 3-cü əsrinin sonunda yayılmışdır.Özünü Zərdüşt,Budda və İsanın davamçısı adlandıran,təlimini İran,Orta Asiya,Qərbi Çin və Hindistanın ənənlərinə uyğunlaşdıraraq yayan Mani Zərdüşt kahinləri tərəfindən edam edilmişdir.Manilik zərdüştilikdən ardıcıl dualizmi ilə fərqlənirdi.Maniliyə görə.xeyir və şər gər ikisi ilkindir.Maniyə görə əsas məqsəd nuru zülmətdən azad etməkdir.Zərdüştdən fərqli olaraq Maniyə görə insan bu yolda dünyəvi nemətlərdən imtina etməlidir.

Əvvəlki fəlsəfi ənələri davam etdirən digər cərəyanlardan biri də Məzdəkin yaratdığı məzdəkilik təlimidir.Bu təlimə görə cəmiyyətdə bütün şər işlər mülkiyyət bərabərsizliyi üzündən baş verir.Buna görə də mövcud əmlakdan cəmiyət üzvləri bərabər istifadə etməlidir.Məzdəkilikdə Manilik kimi dünyanın iki qüvvə tərəfindən idarə olunması,xeyirin ağılla bağlı olmasından bəhs edir.Başqa sözlə hər iki cərəyanda rasional amil əsas yer tuturdu.Məzdəkiliyə görə insan ağlı idrak qüvvəsidir.Qədim dövr və Erkən Orta əsrlərdə yanğın,müharibə,siyasi və dini münaqişələr nəticəsində yazılı abidələrin məhvi bəhs olunan dövrlərə aid fəlsəfi fikrin təsvir və tətqiqinə imkan vermir.

Maniçilik- nur və zülmətin mübarizəsini önə çıxarmışdır. Nur ruhu, zülmət isə bədəni (materiyanı) təmsil edir. Maniyə görə, Allah dünyada şəri yaratmamışdır. Deməli, dünyanı da o yaratmamışdır. Çünki dünya şərdir. Materiya Allahdan asılı olmayaraq mövcuddur. İnsan isə materiya ilə nurun qarışığıdır. Manilər heyvan ətini yeməyi qadağan, mutililik təbliğ edir və asayişi qorumağı üstün tuturdular. Uyğur türkləri maniliyi qəbul etmişlər.

Məzdəkizm- əsas müddəaları:

1)İşıq və zülmətin mübarizəsi, işıqlı və xeyirxah mübarizəsi

2)Mənbə, iradə və zəkaya malikdir

3)Zülmət kordur

4)Zülmətin qalibiyyəti müvəqqəti və təsadüfidir.

## Azərbaycan orta əsrlər fəlsəfəsi

Azərbaycan orta əsrlər fəlsəfəsi Bəhmənyarın, Sührəvərdinin, Nəcməddin Naxçivaninin, Siracəddin Ürməvinin fəlsəfi fikirləri ilə zəngindir. Bəhmənyarın fəlsəfi fikirləri onun idrak, ziynətləndirmə, sevinc və səadət haqqında traktat və s əsərlərində özünü biruzə verir. Onun antoloji fikirləri: metofizikanın predmenti daim mövcuddur, bütün cisimlər daim mövcuddur, mövcudluq səbəbsizdir. Mövcudluq ilkin başlanğıcdır, özü özlüyündə mövcud olan Allahdır. Allah hər şeyin səbəbidir. Hər şeyin ilkin səbəbə münasibəti varlıq formasındadır. Zəruri mövcudluq sırf xeyirdir, hər şeydən yüksək səviyyədədir. Eyniyyət zəruri mövcudluq çərçivəsində sevib-sevilməkdir. Zəruri mövcudluq dərk olunan realdır. Hər şeyin reallığı yanlız bir reallığa- zəruri mövcudluğa münasibətdə realdır.

Azərbaycan fəlsəfəsi-tarixən Azərbaycanda və ölkə xaricində yaşayan müxtəlif dil,din və mədəniyyətlərin daşıyıcıları olan azərbaycanlılıarın fəlsəfi irsinin təşəkkül və təkamülünü əhatə edir.Azərbaycanda fəlsəfi fikrin inkişafı dördüncü minilliyə qədəm qoymuşdur.Ölkənin fəlsəfi mədəniyyətinin inkişafında onun coğrafi mövqeyi,təbii zənginliyitarixən yüksək şəhər mədəniyyəti mühüm rol oynamışdır.Azərbaycanda fəlsəfi fikrin inkişafını öyrənmək üçün keçmişin mühüm yazılı abidələri-Avesta,pəhləvi mətnləri,qədim yunan filosofları və tarixçilərinin əsərləri,orta əsr yazılı abidələri,ölkə ərazisindəki arxeoloji qazıntıların materialları,dil və şifahi ədəbiyyat tarixinin tətqiqi və s.araşdırmalar geniş imkan yaradır.Fəlsəfi dünyagörüşünün təşəkkülü insanın təbiətə münasibətində fetiş,totem,ruh,ilahilər və s.bu kimi təzahür formaları ilə bağlı olmuşdur.Bu təsəvvür və təlimlər,müxtəlif kultlarda və insanın mühitdən özünümüdafiəsinə yönəlmiş magiyada da öz əksini tapmışdır.Azərbaycanda fəlsəfi fikrin inkişaf mərhələləri bunlardır:

1.Qədim dövr və orta əsrlər:

a)Azərbaycan fəlsəfəsində dini mifoloji cərəyan;

b)Azərbaycan şərq prepatetizmi;

c)Azərbaycan intibahı.

2.13-18-ci əsrlərdə Azərbaycanda fəlsəfi fikir:sufilik,hürufilik,humanizm.

3.Azərbaycan maarifçiliyi:rasionalizm.

4.20-ci əsr Azərbaycan fəlsəfəsi.

Azərbaycan fəlsəfi fikrinin inkişafında 7-10-cu əsrlər özünəməxsus mərhələ olmuşdur.Bu dövrdə artıq fəlsəfi fikrin təməl cərəyanları formalaşmış,ölkədə fəlsəfənin sonrakı inkişafı xristian və İslam mədəniyyətləri məcrasında davam etmişdir.Eramızın 1-ci əsrindən Şimali Azərbaycanda mövcud olan xristianlığın artıq 4-cü əsrdə dövlət dini elan edilməsi ilə Azərbaycanın

mənəvi həyatı və fəlsəfəsi yunan-Roma mədəni-mənəvi arealı və bilavasitə Qüdslə bağlıdır.Alban fəlsəfəsi haqqında müəyyən məlumatı Musa Kalankatuklunun “Albanların tarixi”əsəri verir.7-10-cu əsrlərdə İslam dininin gəlməsi və möhkəmlənməsi Azərbaycan fəlsəfi fikrinin İslam ilə əlaqəli inkişafına şərait yaradırdı.Zaman keçdikcə,ölkəyə Quranın zahiri batini şərhinə əsaslanan cərəyanlar daxil olurvə burada Azərbaycan mütəfəkkirlərinin simasında öz yerli təmsilçilərini tapır.Müxtəlif cərəyanların nümayəndələri nəzəri-fəlsəfi mövqelərini Quran ayələri ilə əsaslandırmağa cəhd göstərirlər.7-8-ci əsrlərdə ilahiyyat fəlsəfəsi inkişaf etməyə başlayır.İslam fəlsəfəsi şərhi ilahiyyatçıların birbaşa vəzifəsinə çevrilir.8-10-cu əsrlərdə İslam bölgəsində,o cümlədən Azərbaycanda fəlsəfi dünyagörüşündə panteizm,sosial baxışlarda demokratizm,etik görüşlərdə humanizm,ismailiik və sufilik cərəyanları ilk inkişaf dövrlərinə keçdilər.

Sufiliyin fəlsəfi dünyagörüşünün əsasında eşq,İsmaililiyin əsasında isə real və irreal idrakın vəhdəti dururdu.Orta əsr mənbələrində ismaililiyin İslamı inkar edərək zərdüştüliyin bərpasına cədindən bəhs olunur.11-12-ci əsrlərdə Azərbaycanda ismailiik,sufilik vəbatinilik cərəyanlarının yaranması sürətlənir.Bu cərəyanların fəlsəfi ideyaları ölkədə həm mənəvi mədəniyyətin,həm də sosial həyatın müxtəlif sahələrinə fəal təsir göstərmişdir.

**Panteizm-** Allahın və dünyanın eyniyyəti. Dünya Allahdır, hər şey Allahdır. Allah hər yerdədir vəziyyət mövcuddur. Varlıq Allahın vahidliyinin sübutudur. Mütləq bütövlük Allahdır, Allahın yaratdığı hissədir. Həqiqət Allahdır. Allahın dərk edilməsi insanın özünü dərkidir. Özünün dərki isə əxlaqi, özünü təkmilləşdirmə yolu ilə həyata keçir. Bilik 2 hissədən ibarətdir: 1)Rasional bilik, hissi rasional idrak. 2)Mistik bilik - inam.

14-cü əsrdə Azərbaycanda və İslam Şərqində hürufilik fəlsəfəsinin banisi Fəzlullah Nəimi olmuşdur.Sufi və ismaili fəlsəfəsindən bəhrələnən hürufilik fəlsəfəsi mistik pərdə altında məhəbbətlə əqli birləşdirərək varlığın dərkini təbliğ edən ideya cərəyan idi.Bu təlim ərəb və fars əlifbası hərflərini və bu hərflərin sayını ilahiləşdirir.Hürufilər hər cür zülmə,o cümlədən Teymurilər zülmünə qarşı çıxaraq üsyanlar yolu ilə mübarizə edirdi.Bu əqidəyə görə Nəimi Əmir Teymurun oğlu Miranşah tərəfindən edam edilmişdir.Lakin hərəkat davam edir,onun fəlsəfi təlimi Orta və Yaxın Şərq ölkələrində və hürufiliyin vətəni Azərbaycanda geniş yayılırdı.Şair mütəfəkkir İmadəddin Nəsimi hürufilik fəlsəfəsinin təbliğatçısı olmuşdur.Şairin Azərbaycan,ərəb,fars dilli divanları Şərq aləminə yayılaraq sufi və hürufi fəlsəfəni poeziya dili ilə geniş təbliğ edirdi.

17-18-ci əsrlər bütövlükdə Azərbaycan fəlsəfi fikrinin inkişafının son yüzillikləri idi.19-cu əsrdə Azərbaycanda maarifçilik hərəkatı və onun ideologiyası,fəlsəfi görüşləri formalaşırdı.19-cu əsr maarifçilik fəlsəfəsinin ilk təmsilçisi Abbasqulu ağa Bakıxanov olmuşdur.Bu dövr ictimai-fəlsəfi fikir tarixi Axundzadənin əsərlərində əksini tapmışdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra maksizim fəlsəfəsi yaranmağa başladı.Bu fəlsəfəyə müxalif mütəfəkkirlərin bir qismi siyasi represiya

qurbanı olur,digər hissəsi isə mühacirət edərək xaricdə siyasətlə bərabər fəlsəfə sahəsində də öz fəaliyyətlərini davam etdirirdilər.Azərbaycanın qeyri-marksist fəlsəfəsi mühacirətdə inkişaf etdirilir və yayılırdı.Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra ölkədə marksist-leninizmə müxalif olan ideoloji cərəyanların fəaliyyəti dayandırıldı.

Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikrinin öyrənilməsi və dünya fəlsəfi fikri ilə müqayisəli təhlili göstərir ki,son illərdə ölkəmizdə fəlsəfə sahəsində xeyli uğurlu nəticələr əldə edilmişdir.

***Qnesoloji baxışları*** - Allah, zəka, bilik, iradə və qüvvətdir.

Formal məntiq məsələlərinin işlənməsi- məntiq təfəkkürü səhvlərdən qoruyur. Həqiqətin əsası düzgün düşünməkdir. Anlayışların cəmi qeyri-maddi substansiya ruhdur. Maddi cisimlər hissi idrak vasitəsilə öyrənilir.

**Əbülhəsən Bəhmənyar** fəlsəfənin ən mühüm nəzəri məsələlərinin tədqiqatçısı hesab olunur. O, "Metafizikanın mövzusu", "Gözəllik və səadət", "Musiqi kitabı" adlı traktatların müəllifidir. Onun əsas məqsədi var qüvvəsini əsirgəmədən aristotelçi fəlsəfənin inkişafını təmin etmək olmuşdur.

Peripatetizmin tərəfdarı olan Bəhmənyara görə hər şeyin əsasını ən ümumiyyətlə mənada götürülən varlıq təşkil edir. Varlıq isə vacib ə mümkün varlığa ayrılır. Onun fikrincə vacib varlıq mütləqdir, səbəbsizdir, əbədidir, zəruridir. Mümkün varlıq isə qeyri-mövcuddur və ya mövcudluğu ancaq fərz edilir. O, səbəb deyil nəticədir. Bütün mövcud şeylər mümkün varlıq a anlayışına aiddir. Məsələn, göy cisimləri, planetlər, od, su, hava, torpaq və onların birləşmələri, bitkilər, heyvanlar, insanlar və s. də mümkün varlıqdır. Vacib və mümkün varlıq arasındakı qarışıqlıq münasibət ilk səbəb və nəticənin nisbəti kimi nəzərdən keçirilir. Vacib varlığa ilk səbəb və müəyyən edici kimi baxılır, lakin hər iki varlıq zamanca vəhdətdə götürülür. Bəhmənyar ilk səbəbi zamanca çox əvvəllərə aid etmir və onu mənəvi, ideal başlanğıc kimi götürür.

Filosofa görə varlığın mövcudluğunun əsas şərti hərəkət, məkan və zaman vəhdətidir, onların bir-birindən ayrılmazlığıdır. Bəhmənyar idrakı - hissi və məntiqi idraka bölür. Bəhmənyar əqli nəticələrini ilk səbəb bəzi nəticə münasibətlərinin məntiqin mühakimələr yolu ilə sübut olunması zəruriliyini qeyd etmişdir. Filosofun fikrincə idrakın 2 mənbəyi vardır: hissi təcrübə və əqli təfəkkür və onlar vəhdətdədirlər. O, məntiqi idrakın 3 əsas mərhələdən keçdiyini göstərib:

1)insanda anadangəlmə potensial zəka, əql

2)həmin potensial imkandan "ilkin idrak" şəklində fəal əqli fəaliyyətə keçməsi

3)xilas təfəkkür, əqli nəticələr. Onun fikrincə insanın qəlbi, ruhu qeyri-maddidir, bədən və ətraf aləmi dərk etməyə və idarə etməyə qadirdir.

**Siracəddin Ürməvinin** əsas fikirləri- hərəkət, zaman və məkan kateqoriyalarının təhlili, idrak və məntiq məsələləri, mühakimə və nəticə haqqında təlim

***Sührəvərdi*** - orta əsrlərdə Azərbaycanda və yaxın Şərqdə işraqilik təliminin banisidir. Fəlsəfi əsərləri- "İşrak fəlsəfəsi", "İşıqnamə", "İşıq heykəlləri".

Onun təliminə görə, bütün mövcud adlar işıq və onun kölgəsindən ibarətdir. Onun da zirvəsində işıqlar işığı Nur-əl-ənvər durur. Ondan işıqlar və kölgələr yaranır. Onun fikrincə insanın ruhu da mücərrəd işıqdan törəyən işıqdır. Bütün fəaliyyəti mücərrəd işıq sayəsində baş verir.

**Azərbaycan maarifçilik fəlsəfəsinin səciyyəvi xüsusiyyətləri.**

Azərbaycan maarifçilik fəlsəfəsi XIX-XX əsrləri əhatə edir. Bu dövr kapitalist münasibətlərin formalaşmağa başladığı dövrdür. Maarifçi filosoflar feodal mütləqiyyətinə dini fanatizmə qarşı çıxan XVIII əsr Fransız maarifçilərinin ideyalarından bəhrələnmişdilər. Maarifçilik fəlsəfəsinin əsas xüsusiyyəti zəkanın, biliyin yenidən qurulması və təkmilləşməsi yolu ilə cəmiyyətin sosial-siyasi yerləşməsinə nail olmaq idi. Azərbaycan maarifçiliyi öz inkişafına görə 2 mərhələyə bölünür: 1)XIX əsr. Bu mərhələdə feodal təhkimçilik üsul idarəsinin maariflənmə yolu ilə izah edilməsi, insanilədirilməsi, dini fanatizmin, mövhumatın, cəhalətin tənqid edilməsi və aradan qaldırılması. Bu dövrdə A. A. Bakıxanov, M. F. Axundov, R. B. Zakir, H. B. Zərdabi və s. filosoflar fəaliyyət göstərirdilər. 2)XIX əsrin sonu XX əsrin əvvəllərini əhatə edir. Bu dövr maarifçiləri C. Məmmədquluzadə, M. Ə. Sabir, Ü. Hacıbəyli, N. Nərimanov inqilabi-demokratik yolla öz fikirlərini, ideyalarını həyata keçirirdilər. 3)Bu mərhələyə əsasən realist inqilabi demokratizm ideyaları xas idi. Onlar öz ideyalarını həyata keçirmək üçün inqilabi yolu daha üstün tuturdular. 4)Bu mərhələdə maarifçilik elmi realist ideyalara dövrün təbii, elmi yeniliklərinə daha çox önəm verirdilər. Bu dövr maarifçiləri: Nərimanov, Ö. Faiq, F. Köçərli, M. Hadi. Bəzi hallarda dini mövqelərdən çıxış etsələr də əslində yeni üsullu məktəblərin açılmasın Darvinin təkamülü, Eynşteyinin nisbilik nəzəriyyəsindən, laminating maddi cəhətdən malik olmasını, təbi - tibbi biliklərin yayılmasını geniş təbliğ edirdilər. Həmin dövrdə "Əkinçi" qəzeti, "Füyuzat" və "Şəlalə" məcmuələri dərc olunurdu. 5)XX əsrin əvvəlindən başlayaraq Azərbaycan fəlsəfi fikri üçün yüksəliş dövrü idi. Bu dövrdə əsas ideya ölkənin müstəqilliyi, suverenliyi, demokratik inkişafı, türkçülük, islamçılıq və müasir mənəviyyat prinsipləri ilə vəhdətdə həyata keçirmək idi. Həmin dövrdə Azərbaycan demokratik cümhuriyyətinin bu ideyaların həyata keçirilməsində böyük rolu olmuşdur.

**Antik fəlsəfə.Qədim Yunan fəlsəfəsi**

Antik dövr fəlsəfəsi e.ə Vll-Vl əsrlərdə meydana gəlmişdir,eramızın V-Vl əsrlərinə qədər davam etmişdir.Bu dövr fəlsəfəsində gələcək dünyagörüşünün bütün tipləri

rüşeym halında mövcud olmuşdur.Antik dövrdə həm idealist,həm də materialist təlimlər və fəlsəfi cərəyanlar fəaliyyət göstərmişdir.Bu dövrün fəlsəfəçiləri obyektiv idealizm,sadəlövh materializm və kortəbii dialektika mövqelərindən çıxış etmişlər.Antik dövrün fəlsəfəsi,xüsusilə idealist təlimləri əsatirlər,din və insanların animistik təsəvvürləri ilə bağlı olmuşdut.Antik fəlsəfənin 4 əsas mərhələsi vardır.

1.Sokrata qədərki mərhələ: Bu mərhələ Yunan fəlsəfəsinin formalaşdığı (e.əVll-Vl əsrlər) onun inkşafında kəskin dönüş əmələ gələnə qədərki (e.əVl-V əsrlər)dövrü əhatə edir. Bu dövrdə Milet məktəbi, Heraklit, Eney məktəbi, Pifaqor, Empodokl və Yunan atomistləri fəaliyyət göstərmişlər.

2.Klassik mərhələ e.ə V əsrin yarısından başlayaraq e.ə lV əsrə qədər davam etmişdir.Nümayəndələri: Sokrat, Platon, Aristotel.

3.Ellinizm mərhələsi Makedoniyalı İsgəndərin dövründə Asiya və Qara dəniz sahilindəki mədəniyyət şərti olaraq Ellinizm mədəniyyəti adlanır.Vl əsrin sonu ll əsrə qədər davam edib.

4.Roma mərhələsi e.ə l əsrdən başlayaraq V-Vll əsrlərə davam etmişdir.

## Sokrata qədərki dövr

Sokrata qədərki fəlsəfə **Milet** məktəbi ilə başlanır.Milet məktəbi ilk dəfə olaraq Yunanıstanda Vll-Vl əsrlərdə materialist təlim yaranmışdır. Bu məktəbin nümayəndələri Fales, Anaksimandr və Anaksimen olmuşdur. Qarşılarına aşağıdakı suallara cavab vermək məqsədlərini qoymuşlar. 1)Mövcudatın ilkin əsası nədir? 2)Gerçəkliyin predmetləri, cisimləri, hadisələri necə meydana gəlmişlər? 3)Onlar öz dövrlərini başa vurduqdan sonra necə olur və nəyə çevrilirlər.

Milet məktəbi mütəfəkkirləri üçün səciyyəvi cəhətlər aşağıdakilardır.1)İlk başlanğıcın axtarışı.2)İlk başlanğıc monistik xarakterdir.3)O ilkin və maddidir.4) O canlıdır.

Milet məktəbi nümayəndələri aləmin mahiyyətini dərk etməyə,onun meydana gəlməsi və inkşafının səbəblərini aşkara çıxartmağa çalışırdılar. Onların təlimlərinin dəyərli olması fəlsəfə ilə təbiətşunaslığın bilavasitə bağlılığında idi.Onlar dünyanın özü özü ilə izah etməyə çalışırdılar.Həmin dövrdə təbiət elmləri, fizika, astronomiya, riyaziyyat, biologiya və s elmlər yaranırdı.

Milet məktəbinin əsasini **Fales** qoyub. Onun fikrincə bütün mövcudat sudan yaranır. O hər şeyin əsasını suda görürdü, çünki üzvi-q/üzvi aləmi sudan kənarda təsəvvür etmək mümkün deyil. Fales deyirdi ki, günəş, ay, ulduzlar suyun buxarlanlanmasından qidalanırlar. Heyvanların başlanğıcı epermadır, toxumdur. O da ki, mayedir. Hər şey suyun qatılaşmasından və parçalanmasından əmələ gəlir.

2-ci nümayəndə **Anaksimandır** sadəlövh materializmə meyl etmiş,ilkin başlanğıcın və dünyanın əsasını qeyri müəyyən apeyron adlandırılan substansiyada görürdü.Apeyron kiçicik atom hissəcikləridir.Anaksimandır təbiətşunaslıq elmləri ilə məşğul olurdu ki,onun əsərlərində heliosentrik baxışlara rast gəlinir.Onun

fikrincə yer,daimi,əbədi fırlanan hərəkətinə malikdir.İstinin,soyuğun mənbəyini bu hərəkətdə axtarmaq lazimdir.

3-cü nümayəndə **Anaksimen** havanı hər şeyin başlanğıcı hesab etmişdir. Hər şey havadan yaranır havaya çevrilir. Milet məktəbi hərəkəti qəbul edir ki, dünyanın maddiliyi qəbul edir, gərçəkliyin hadisələrinə dialektikcəsinə yanaşırdılar.

**Efesli Heraklit** -dünyanın maddiliyini ideyasını təbiətin hərəkəti və dəyişməsi ilə zənginləşdirdi.O Təbiət haqqında əsərində ildırımın,şimşəyin, çaxmağının səbəblərini izah edir,dünyanın meydana gəlməsi və onun dialektik inkşafı haqqında mühüm fikirlər irəli sürüb.Onun fikrincə bütün mövcüdarın əbədi,maddi əsası atəşdir.Atəş daim hərəkətdədir.Ölür və yenidən atəşə çevrilir.

Heraklit loqos (söz,fikir,əql,qanun) haqqında təlim yaratmışdır O deyirdi ki,Loqos əbədidir, ümumidir, zəruridir, əksliklərin mübarizəsidir. Bütün mövcudatın, hərəkətin və inkşafın mənbəyidir.

Heraklit deyirdi ki, təbiət əbədi dəyişmə prosesindədir. Hər şey axır,hər şey dəyişir.Kainatda heç bir şey hərəkətsiz deyil.Onun fikrincə eyni bir çaya ikinci dəfə girmək olmaz.O,təbiətdəki inkşafı,dəyişməni hadisələrin öz əksiliyinə keçməsi kimi başa düşürdü.Əksliklərdən hər biri başqa bir əsksliyi nəzərdə tutur.Onlar bir -birindən təcrid oluna bilmızlər.Məs hissə olmadan bütöv,ağ olmadan qara,düz-əyrisiz və s..

Heraklit dialektik fikrini bele izah edirdi. Dəniz suyu həm çox təmizdir,həm də çox çirklidir.Balıqlar üçün təmiz,insanlar üçün çirklidir.Onun fikrincə dünya dərkolunandır,bu da hiss üzvlərimiz və təfəkkür vasitəsilə mümkündür.Heraklit deyirdi ki,idrak hissi qavrayışdan başlanır və idraķda təfəkkürə yüksək qiymət verirdi.Loqos insanın təfəkkür fəaliyyəti ilə yhəyata keçir.Təfəkkür böyük ləyaqətdir və müdriklik məhz ondan ibarətdir ki,həqiqəti söyləyəsən və təbiətə qulaq asaraq,onunla düzgün rəftar edəsən. İdrakda əsas məqsəd loqosu dərk etməkdir. Loqos obyektiv xarakter daşıyır.

**Eley məktəbi** – VI-V əsrlərdə fəaliyyət göstərmişdir.

**Nümayəndələri** : Ksenofon Kolofanlı, Zenon Eleyli, Parmenid, Epikür

***Ksenofon Kolofanlı*** - e.ə.565-470 illərdə yaşamışdır.Ən məşur əsərləri *`Eleyə çıxış` və `Kolofonun əsasları`* olmuşdur.Onun əsərləri dünyanın meydana gəlməsi və inkişafı haqqındadır.O,dünyanın Allah tərəfindən idarə olunduğunu söyləyir.Lakin Allah görür,eşidir,hər şeyi başa düşür,amma heç nəyin yerini dəyişmir,hərəkət etmir,fikirləri ilə dünyanı lərzəyə gətirir.O,Allah dedikdə səmanı nəzərdə tutur və deyirdi ki, “Allahın mahiyyəti şarabənzərdir.” Dünyanın

madiliyini qəbul edir,lakin dəyişməz olduğunu söyləyirdi.Onun fikrincə hər şey torpaqdan yaranır və son nəticədə də torpağa çevriləcək.İnsan torpaqdan və sudan yaranıb.

**Parmenid** – e.ə. 540-470 illərdə yaşamışdır.O, öz fikirlərini *"Təbiət"* adlı əsərində şərh edib.Onun fəlsəfi təliminin əsasında *~varlıq problemi~* durur.Varlıq olmayan şey mövcud deyildir.Varlıq təkcədir və dünyada onda başqası yoxdur.Varlıq Varlıq bir qüvvə tərəfindən yaradılmayıb.O dəyişməzdir,sükunətdədir.Varlıq məkanı tamamilə doldurduğu üçün hərəkət mümkün deyil.*`Var olan o şeydir ki,o olmaya bilməz,yəni bu varlıqdır`.*

Parmenidin fikrincə hissi idrak vaistəilə predmetlər,şeylər haqqında fikir,rəy,mübahisə yaranır,lakin varlığın əsl mahiyyətini dərk edə bilmirlər.Cism və hadisələrin mahiyyətini rasional idrak vaistəsilə öyrənirlər.Parmenid bu iki idrak pilləsini bir-birindən ayırırdı ki,bu da yanlış fikir idi.

**Zenon Eleyli** – e.ə.490-430 illərdə yaşamışdır.Varlığı vəhdəti,bütövlüyü və dəyişməzliyi fikrini dəstəkləyirdi.Onun fikrincə varlıq maddi xarakterə malikdir.Təbiətdə hər şey istidən,soyuqdan,qurudan,rütubətdən və onların qarşılıqlı əlaqəsindən yaranır.Zenon söyəyirdi ki,insanlar torpaqdan yaranmışlar,ruhları isə 4 ünsürün- istinin,soyuğun,qururun və rütubətin mahiyyətlərinin qarışığından yaranıb.Hər şeyin başlanğıcında olan varlıq təkdir,hərəkətsizdir.Onun fikrincə hərəkətdə olan predmet nə olduğu,nə də ki olmadığı yerdə hərəkətdə deyil.

Varlıq hiss üzvləri vaistəsilə deyil,insan əqli ilə dərk olunur.O rasional idrakı həqiqi sayırdı.Hərəkəti və çoxluğu qəbul etmək ziddiyyətlərə gətirib çıxrırdı.Onları *`aporiyalar`* adlandırırlar.

1-ci aporiya - *dizotomiya* (yarıya bölünmə) adlanır.Yəni ki,hərəkətdə olan predmet sona çatmaq üçün yolun yarısını keçməlidir.Sonra yarısının yarısını və bu sonsuz şəkildə təkrar olunur. Zenonun fikri səhv idi. Belə ki, o hərəkətin fasiləliyini mütləqləşdirir, fasiləsizliyi qəbul etmirdi. Hərəkət isə fasiləliklə, fasiləsizliyin vəhdətindən ibarətdit.

2-ci aporiya - *"Axilles və tısbağa"*.Çox tez-tez hərəkət edən Axill ,ən yavaş hərəkət edən tısbağaya çata bilməz.Çünki o, Axilldən qabaq yola çıxıb.Axilles ona çatana qədər, o yolun daha bir hissəsini gedəcək.Əslində isə əksinə.Zenonun səhvi onda idi ki,o məkan zamanı fasiləsizliyini nəzərə almayıb.

**Pifaqor** – e.ə. 570-ci ildə Sidonda anadan olub.İlk dəfə *`Fəlsəfə`* sözünü işlədib.Özünü *`filosof`* adlandırıb.Onun fikrincə filosof şan-şöhrət arxasınca qaçmayan,dünyanı dərk etməyi özünə şərəfli peşə bilən,dərin düşüncəli insandır.

İdialist filosofdur.Onun idielizmi siyasi,etik və dini baxışlarında ifadə olunur.Onun *`Təbiət haqqında`* əsəri vardır.Pifaqorçular riyaziyyat və həndəsə ilə məşğul olmuşlar və ədədlər haqqında təlimi yaratmışlar.Pifaqorçuların fikrincə bütün mövcudatın mahiyyətini mücərrəd təfəkkürün məhsulu olan ədədlərdə axtarmaq lazımdır.Onlar ədədləri şeylərdən ayırır,fövqəltəbii,mistik mahiyyətə çevirir və ilahiləşdirirdilər.İlk dəfə Pifaqor kainatı *`Kosmos`* adlandırıb.Kainat kürə şəklindədir on sferadan ibarətdit.

Pifaqor deyirdi ki,hər bir sfera rəqəmlə müəyyən edildiyindən özünəməxsus səsi var.Ona görə də kosmos harmonik bir dünya xoru təşkil edib.

Göy cismlərinin kombinasiyasında da onlar bu harmoniya üzrə hərəkət edirlər və sferalar musiqi adlanır.Bu harmoniya-musiqi ruhu sağaldır. Harmoniya təkcə fikizi səviyyədə deyil,kosmik və əxlaqı nizam arasındada var. Əgər yerdə insanların əxlaqi deqradasiyaya uğrayarsa bu kosmik nakatlizimlərlə nəticələnə bilər.

O ruhun ölməzliyini qəbil edirdi və onun bədəndən-bədənə keçməsinə inanırdı.Dünyada baş verən hər şey müəyyən fasilələrlə yenidən təkrar olunur,yeni bir şey əmələ gəlmir,bütün canlı varlıqları öz aralarında bir cinsli hesab etmək olar.

Pifaqor ədədlərdə məşğuliyyəti daha çox qiymətləndirir və bu elmi tacirlərin işinə xidmətdən qurtararaq və bütün şeyləri ədədlərə bənzədərək irəli çəkmişdir.O başlanğıcda Monadam və qeyri müəyyən Diadam qəbul edir.

O irasional kəmiyyətlər nəzəriyyəsini və kosmik fiqurlar konstruksiyasını kəşf etmişdir.Onun fikrincə riyazi fiqurlar adlanan 5 cismani fiqur vardır.

Nubdan - Yer, Pramiddən - Od, Oktaedriddən - Hava, İnsonaedirdən - Su, Doaekaedrdən - Kainatın mühiti, yəni efir əmələ gəlib. Pifaqor 4 supstansiyadan imtina etmir, lakin ədədin bütün şey və hadisələrin ilk elementi olduğunu söyləyir. Əks ədədlər cütlüyündən hissi qavranılan cismlər əmələ gəlir ki, onlarında 4 əsası var ~ hava, su, od, torpaq və bu 4 ünsürün çevrilməsi nəticəsində insan və digər canlılar yaranır. O, Allahı rəqəmlər rəqəmi adlandırır. Allah qanun kimi təzahür edir.

## Qədim yunan atomistləri

**-- Levkipp, Demokrit, Epikür.**

**Levkipp -** (e.ə. 500-400) "Ən böyük diakosmos" və "Əql haqqında" əsərində gerçəkliyin əsasında atomlar və boşluğun olduğunu göstərir. Atomlar boşluqda hərəkət edən varlıqdır. O, boşluğu varlıq saymır, lakin qeyd edirdi ki, heç də varlıqdan kiçik bir şey deyil. "Vahid mövcud olan atomlar boşluqdur" - deyir

Levkipp. O, atomları öz böyüklüyü, forması, düzülüşü və vəziyyəti ilə xarakterizə edirdi. Onun fikrincə hadisələr səbəbiyyət əlaqələri ilə bağlıdırlar. Atomlar şeylərin səbəbidir, onların birləşməsi və ayrılması nəticəsində yaranırlar və məhv olurlar. Levkipp deyirdi ki, heç bir şey səbəbsiz yaranmır, hər şey bir əsas üzərində zərurətdən yaranır. Levkipp boşluğun mövcudluğunu qəbul edirdi, atomlar bu boşluqda hərəkətdədir.

**Demokrit** - (e.ə. 460-370) materialist filosof idi. O, materiyanın birinciliyini, şüurun ikinciliyini, dünyanın dərk olunanlığını qəbul edirdi. Demokrit həqiqi mövcud dünyanı əbədi, sonsuz, tükənməz, obyektiv reallıq adlandırırdı və bu reallığın atomlardan və boşluqlardan ibarət olduğunu göstərirdi. Demokrit atomların quruluşunun nəzəriyyəsini yaratmaq istəyirdi. O deyirdi ki, materiya boşluqda əbədi hərəkətdə olan atomlardır. Demokrit göstərirdi ki, atomlar bölünməzdir, dəyişən deyildir və keyfiyyətcə yekcinsdir; onlar yalnız kəmiyyət etibarilə bir-birindən fərqlənirlər. O, kəmiyyət dedikdə atomların formasını, böyüklüyünü, düzülüşünü və s. nəzərdə tutur. Atomların sayını sonsuz hesab edirdi. Demokrit yazırdı: "Öz-özlüyündə atomlar dəyişməzdir, onlar necə varsa elə qalırlar, heç bir dəyişikliyə uğramırlar. Heç bir atom nə qızmır, nə də soyumur, nə qurumur, nə də nənlənmir, nə ağarmır, nə də qaralmır. Atomlar yeni mahiyyət əldə etmir, ona görə ki dəyişmirlər". Onun fikrincə, dünya sonsuzdur, onun hadisələri, predmetləri, şeyləri meydana gəlir və məhv olur, heç kim tərəfindən yaradılmayıb, başqa dünyalarda mövcuddurlar və onlar bir-birilərindən ölçüsünə görə fərqlənirlər.

O, hərəkəti inkişafın əsas mənbəyi sayırdı. Atomlar hərəkət edir və məkan daxilində yerdəyişməsindən başqa bir şey deyildir. O, atomları varlıq, boşluğu isə qeyri - varlıq sayırdı. Demokrit təsadüflərin bir obyektiv hadisə kimi mövcudluğunu inkar edirdi.

Demokrit materialist idrak nəzəriyyəsinin əsasını qoydu. İlk dəfə o, biliklərin mənbəyini hissi idrakda görür, biliyin başlanğıcını duyğularla bağlayırdı. O deyirdi ki, idrakın 2 forması var: əsl idrak və tutqun idrak. Tutqun idraka aiddir: görmə, eşitmə iybilmə, toxunmaqla hissetmə. Onun təlimində hissi, məntiqi və rasional idrak qeyd olunur. Hissi və tutqun idrak aşağı pillədirlər, hissi idrak əsl bilik verə bilməz, onun vasitəsilə yalnız atomların birləşməsi nəticəsində meydana gələn şeyləri qavramaq olar.

Demokritin varlıq haqında təlimi maraqlıdır. O atomları varlıq adlandırır. Demokrit ruhu maddi adlandırır və deyirdi ki, ruhu yumru, daha tez-tez hərəkət edən atomlardan yaranıb. Ölüm bədənin və ruhun atomlarının hərəkətinin nəticəsidir.

Demokrit üçün əxlaqın ən yüksək ölçü vahidi Vətən, xalq qarşısında borclu qalmaqdır. Demokrit deyirdi: “Azadlıq köləlikdən uca olduğu kimi, demokratik cəmiyyətdə kasıblıq da hökmdar yanında dövlətli olmaqdan şərəflidir”.

***Epikür*** – e.ə. 342-271 illərdə yaşamışdır.Somos adasında anadan olmuşdur.`Fikirlərə qarşı qısa etirazlar`,`Təbiət haqqında`,`Son məqsəd haqqında` əsərlərinin müəllifidir.

Epikürün etikası atomist naturfəlsəfəyə və materialist sensualizmə əsaslanıb,ancaq ayrı-ayrı atomların varlığı real sayılmışdır.Hiss etdiklərimiz həqiqidir,onlar bizi aldatmır.Onun fəlsəfəsi öz qaynağını Demokritin atomistika təlimindən götürmüşdür.Demokrit Afinada “Epikür bağı” adlı fəlsəfi məktəb yaratmışdır. Epikür atomların fərqlərini təkcə Demokrit kimi böyüklüyünə, formalarına görə deyil, habelə ağırlıqlarına görədə qeyd edirdi. Ağırlığıyla əlaqədar olaraq atomlar şaquli xətt üzrə hərəkət etməklə bərabər düzxətli hərəkətdən kənara meyl göstərib əyri xətlə də hərəkətdədir. Onun fikrincə məkan, zaman və hərəkət obyektiv, əbədi və sonsuzdur. Bütün boşluqlarda atomlar mövcuddur. Epikürə görə Allahlar mövcud və əbədi olub, dünyanın işinə qarışmırlar.

Epikürə görə atomlar boşluqda 3 cür hərəkət edir.

*1)Düz xətt üzrə düşmə hərəkəti*

*2)Düz xətdən kənara meyl edilməsindən törəyən hərəkət*

*3)Atomların toqquşmasından əmələ gələn hərəkət*

Onun fikrincə dünya dərkediləndir. Duyğular, hislər və anlayışlar, ümumi təsəvvürlər idrakın meyarıdır. Duyğular biliyin mənbəyi, idrakın başlanğıcıdır. Epikürə görə bədən ölürsə,ruhda ölür. Çünki o da atomlardan ibarətdir. Filosofun fikrincə məkan, zaman və hərəkət obyektiv, əbədi və sonsuzdur. Alimə görə allahlar mövcud və əbədidirlər, lakin insanların işlərinə qarışmırlar.

## Sofizm

“Sofist”, ”Sofizm” qədim yunanlarda müdrik sözünü ifadə edirdi. Yüksək intellektual adamları belə adlandırırdılar. Qədim yunanlar Herodotu, Falesi, Pifaqoru sofist adlandırırdılar. Sofistlər dərs deməyə görə pul tələb edən ilk yunan müdrikləridirlər. Sonralar b.e.ə. V əsrin 2-ci yarısında xüsusi peşə sahiblərini sofistlər adlandırmağa başladılar, yəni əmək haqqına görə pul alan müəllimlər. İlk özünü könülü olaraq Piotoqor sofist adlandırmışdır. Ondan sonra Corgiy, Piodik, Cippiy və başqaları. Onlar bütün Yunanıstanı gəzərək pulla müdriklik dərsi

verirdilər. İlk sofistlər həm də çox xeyirxah müəllimlər idilər, belə ki onlar ictimai və dövlət işlərini aparmaq bacarığını da ifadə edirdilər. Sofistlər elmin müxtəlif sahələri-natiqlik, siyasət, gəmi istehsalı üzrə kadrlar hazılayırdılar. Ritorika-gözəl danışmaq ustalığı bütün sənətlərin şahı hesab edilirdi. Sofistlər mübahisə vaxtı rəqibə qalib gəlmək sənətini öyrədirdilər və bununla onlar söz haqqında elm yaratdılar. Onların fikrincə dünya dərkedilməzdir,xeyir və şərin obyektiv meyarı yoxdur, kimə nə əlverişlidirsə elə o da yaxşıdır. Georgi(e.ə.483-373) reativizm mövqeyindən çıxış etmişdir. Reliativizm insan idrakının nisbiliyini, şərtiliyini, subyektliyini təsdiq edən fəlsəfi konsepsiyadır. Onun bu konsepsiyası sneptizmlə tamamlanır. Georgi "Mövcud olmayan haqqında" və ya "Təbiət haqqında" əsərində 3 tezis irəli sürüb:

1)Heç bir şey mövcud deyil

2)Nəsə bir şey mövcuddursa onu dərk etmək olmaz

3)Əgər o şeyi dərk etmək mümkün olsa belə,onu başqasına çardırmaq və ya izah etmək mümkün deyil

Senst Emprik Georginin fikrini belə izah edirdi "Birinci tezisə görə əgər nəsə bir şey mövcuddursa,o ya varlıq,ya da qeyri varlıqdır,və yaxud hər ikisidir.Lakin bu nə birinci,nə ikinci,nə də üçüncüdür.Demək heç bir şey mövcud deyil həm də qeyri varlıq mövcud deyil.Varlıq və qeyri-varlıq bir-birilə əkslik təşkil edirlər.Əgər qeyri-varlığa varlıq xasdırsa,deməli, varlığa da qeyri-varlıq xasdır.Deməli hər iki halda varlığın mövcudluğunu inkar etmək olmaz.Burdan belə nəticəyə gəlirik ki,varlıq mövcuddur.Protoqor(e.ə.481-411) insan probleminin qnoseologiyasını dərindən tədqiq edib.Filosof hissi qavrayışa mühüm yer verərək qavranılan şeylər və qavrayan hiss üzvlərinin fasiləsiz olaraq dəyişdiyini deyir.Hər şey ona görə başqaları ilə əlaqədə əmələ gəlir.Faydalı olan şey həqiqətdir.İnsan hər şeyin ölçüsüdür.Filosofa görə materiya axıcıdır.O, daim axır,ona görə də hər gedənin yerinə nə isə daima gəlir və anlayışlar yenidən yaranır və dəyişir."Allah haqqında" traktatında yazırdı ki,"Allahlar haqqında heç bir şey deyə bilmərəm.Onların mövcud olub-olmamaları haqqında qəti fikir söyləyə bilmərəm".Protoqor Allahsızlıqda günahlandırılmış və Afinanı tərk etmişdir.

Sofistlərin "cavan" nəslinin nümayəndəsi Elkidam,Likafron,Polemonun adını çəkmək olar.Bu filosofların əksəriyyəti materialist xarakter daşımışlar

## Klassik dövr

**Sokrat -** Klassik dövrün ən müdrik filosoflarından olan Sokrat özünü "müdrik" yox "müdrikliyi sevən" filosof adlandırmışdır. Sokrat fəlsəfəsinin əsasında insan

problemi, onun icmaya, Allaha, qanuna münasibəti dururdu. O, insan, onun təhsili və tərbiyəsi məsələsini fəlsəfəyə gətirən filosofdur. Sokrat deyirdi ki, insanın özünü dərk etməsi Fəlsəfənin əsas məşğul olduğu sahədir. Öz-özünü dərk etmə, insanın öz daxili dünyasını dərk etməsidir. İnsana anlamalıdır ki, dərk olunmuş həyat, mənəvi sağlamlıq ən qiymətli nemətdir. Sokrat insana aid olan problemləri təbiətdə deyil, insanın özündə axtarırdı, onun vicdanının, "daxili səsinin" əhəmiyyətindən danışırdı. Əsl həqiqətə nail olmaq imanın zəmanət vericisi "daymanion" (yunanca - ilahi qüvvə, Allah) olmalıdır. "Daymanion" Allahın insana bəxş etdiyi vicdanın səsi, sağlam düşüncədir. Etik xüsusiyyət daşıyan dünyagörüşündə Sokrat insanda 4 keyfiyyəti göstərirdi: **müdriklik, cəsurluq, xeyirxahlıq və ədalətlilik.** Sokrat xeyirxahlıqla biliyi eyniləşdirirdi, çünki xeyirxahlıq çox yüksək əxlaqi keyfiyyətdir. Xeyirxah insan səbrli, qeyrətli, ədalətli olmalıdır.

İlk dəfə induktiv metodu fəlsəfəyə Sokrat gətirib. İnduktiv metodu elmə gətirən Sokrat ayrı-ayrı hadisələrdən ümümi nəticə çıxararaq deduktov üsulla əvvəllər qəbul edilməyən ayrıca mühakiməni əsaslandırmağa çalışırdı. İnduksiya və deduksiya məntiqi asılılıq münasibətlərinə əsaslanır. Sokrat öz metodunu maevtika- mamalıq sənəti adlandırıb, belə izah edirdi: mama doğan qadına yalnız uşağın dünyaya gəlməsinə kömək etdiyi kimi filosof şagirdlərinə heç bir bilikdən məlumat vermirdi. İnsanların başı da "hamilə" kimidir, daim orada yeni fikirlər yaranır.

Onun fikrincə, dünyanın quruluşu dərkedilməzdir, biz yalnız özümüzü dərk edə bilərik. İdrakın predmetinin belə başa düşülməsini izah edərək deyirdi: "Öz-özünü dərk et". Biliyin ən yüksək vəzifəsi nəzəri deyil,praktiki vəzifədir ki, bu fa yaşamaq sənətindən, məharətindən asılıdır. Sokrata görə bilik fikirdir, ümumi haqqında anlayışdır. Anlayışlar isə təriflərin vasitəsilə aşkara çıxır, induksiyanın vasitəsilə ümumiləşdirilir. O, etik anlayışların müəyyənləşdirilməsinin nümunələrini vermişdir: Anlayışın müəyyənləşməsindən əvvəl söhbət, müsahibə baş verir. Söhbətin gedişində həmsöhbət ardıcıl sualların vasitəsilə ziddiyyətlilikfə təqsirləndirilir. Ziddiyyət yalançı, xəyali biliyi kənarlaşdırır və ağıl əsl həqiqət axtarışına yönəlir. Sokratın etinası rasionalist etinadır: pis davranışlar biliksizlikdən törəyir.

**Platon** - obyektiv idealizm mövqeyində olmuşdur. Onun əsərlərində əsasən dialektik fikirlərə çox rast gəlinir. Onun "Sokratın apologiyası", "Qanunlar" və dialoq şəklində 34 əsəri vardır: Pir, Teetet, Fedon, Parmenid, Platon, Menon, Zaxet və s.

Platon öz fəlsəfəsini 3 yerə - dialektika, fizika və etikaya bölmüşdür. Dialektika - varlıq, fizika - təbiət, etika - mənəviyyat haqqında təlim sayılır. Lakin yunanlarda fizika həm də insanın təbiəti haqqında, psixologiya haqqında olan bilikləri də əhatə edirdi.

Platon əsərlərində "dialektika" sözünü 2 mənada işlədirdi. Birincisi təlimin hissələrindən biri kimi, ikincisi anlayışların təhlilinin üsulu kimi.

Platonun "dialektika" sı həm də ideyalar nəzəriyyəsi adlanır. Ona görə hər bir anlayışa varlıq uyğun gəlir. Platona görə bizi əhatə edən və hiss üzvlərimiz vasitəsilə dərk etdiyimiz maddi aləm ancaq "kölgədir", o ideyalar aləmindən yaranmışdır. İdeya 1 ci, maddi aləm 2 ci dir. Maddi aləmin bütün predmetləri, təzahürləri keçicidir, meydana gəlir məhv olur və dəyişir. Ona görə onlar varlıq ola bilməzlər. İdeya dəyişməzdir, hərəkətsizdir, əbədidir. Platon bu ideyaları gerçək hesab edir və onları həqiqi idrakın vahid predmeti səviyyəsinə qaldırır. O belə hesab edir ki, dünyada mövcud olan stollar və başqa əşyalar kimi, ideyalar aləmində stol və başqa əşyaların ideyası mövcuddur. Platonun fikrincə, çarpayı ideyası olmadan çarpayı mövcud deyil, çünki hər şey ilkin təbii Allah tərəfindən yaradılmış çarpayının görüntüsüdür, sonra dülgərin çarpayısı onun təqlididir, rəssamın çəkdiyi isə təqlidin təqlididir.

387-ci ildə Platon "Akademiya" yaratdı. Platona görə "bilik" hissi obrazlarının ümumiləşməsidir. Platon Fəlsəfənin əsasında qnesologiya - idrak nəzəriyyəsi durur. Gözəllik yoxdursa, gözəl şeylər də yoxdur; insan ideyası yoxdursa, konkret adamlar (Platon, Aristotel) da yoxdur.

Onun etika təlimi xeyir anlayışı kimi qavranılır. Platon etikası fərdi deyil, sosialdır və üzvi şəkildə dövlətin siyasi nəzəriyyəsi ilə əlaqədardır.

**Metafizika -** ideyalar ruhlar haqqında təlimdir. Həqiqi biliyə ruh haqqında təlim aiddir. Ruh bədənsiz mahiyyətdir, bölünməzdir, görünməzdir, hissedilməzdir, ölməzdir. Əvvəlcə ruh özünün hərəkətsiz ulduzunda yerləşir, sonra isə yerə enir və təcəssüm edir. Birinci təcəssüm bədəndir, sonrakı taleyi onun həmin bədəndəki hərəkətindən asılıdır. Özünün həqiqi vətənini və vəzifəsini başa düşən ruhlar bədən öldükdən sonra yenidən öz ulduzlarına qayıdır və yenidən təcəssüm növbəsini gözlüyürlər. Əgər ruh bədənin tələbatı ilə yaşayırdısa heyvanların bədənində məs. sərxoşlar - donuzda, şair - quşlarda, təsərrüfatçılar - arılarda, qarışqalarda, tiranlar - yırtıcılarda təzahür edirlər. Günahlar yuyulunca ruhlar cəzalanır. Platon **metapsixoza** - ruhun bədəndən bədənə keçməsinə inanırdı.

Platon və onun sələfləri belə hesab edirdilər ki, varlığın əsası maddi olmayan, cansız ideyadan əmələ gəlib. O, varlığın ancaq idrak, zəka ilə dərk olunmasını

qəbul edir. Platon bədənsiz, maddəsiz ideyanı “mahiyyət, mövcud olan” adlandırırdı, onu varlıq mənasında işlədirdi, “əbədi”, “vahid olan” hesab edirdi.

**Materiya** anlayışını ilk dəfə Platon işlədərək onu özünün dəyişməz vahidi hesab edirdi. “İdeyanı” varla qarşı qoymuşdur. O, materiya dedikdə “başqa”, başlanğıcı dəyişkən, axıcı və daimi olmayan, “hissi aləmi” nəzərdə tutmuşdur. Platon materiya ilə “mövcud olmayanı”, yoxluğu da eyniləşdirirdi, bəzən isə onu yalnız məkan mənasında izah edirdi.

Platonun fəlsəfi fikirlərində insan, cəmiyyət, dövlət haqqında müddəalar mühüm yer tutur.

Onun dialektikası predmetləri, şeyləri 2-yə bölmək və anlayışları bir-birinə qarşı qoymaq metoduna əsaslanırdı. Yəni ki, bir fəlsəfi problemi həll edərkən bir-birinə zidd olan fikirləri qarşı - qarşıya qoymaq lazımdır. Məsələn, hərəkət var və hərəkət yoxdur.

Platon “ideal dövlət” idarə formasını 2 qrupa bölürdü. 1. Münasib dövlət forması- aristokratik respublika; 2. Repressiv- tənəzzülə uğrayan dövlət formasl - hərbi qüvvəyə əsaslanan bir neçə şəxsin hakimiyyətidir, yəni demokratiya. Dövlət idarəçiliyində ədalət prinsipinə əsaslanırdı və deyirdi ki, dövləti müdriklər - filosoflar idarə etməlidirlər.

Platon hissi idraki rasional idrakdan ayırır. Hissinin əzəli, rasionalın isə 2-ci olduğunu söyləyir. Hissinin predmeti qeyri - varlıq olan maddi aləmdir. Ruh haqqında məlumatı isə rasional idrak vasitəsilə əldə etmək olar.

Platonun fəlsəfi fikrinə görə, kosmos yalnız birdir, əbədi deyil, sonludur, şarabənzər formadadır. Göy cisimlərini varlıqlar, allahlar adlandırırdı. Platon yazırdı ki, kosmos ruhu və əqli olan canlı varlıqdır, o Allah tərəfindən yaradılmışdır.

Platona görə insanlar öz ehtiyaclarını ödəmək üçün dövlət yaradıblar.

**Aristotel** - qədim Yunan filosofudur. O, Makedoniyanın Stagr şəhərində həkim ailəsində anadan olub. 17 yaşında Platonun Akademiyasına daxil olub, e.ə. 343 - cü ildə isə Makedoniya çarı 2-ci Flippin dəvəti ilə Makedoniyaya köçmüş, İsgəndərin tərbiyəsi ilə məşğul olmuş, İsgəndərin qəsbkarlıq siyasətini tənqid etmiş, Afinaya qayıtmışdır. O, e.ə. 337-ci ildə “Ziney” adlı məktəbi yaratmışdır. Aristotel fəlsəfə tarixində ilk dəfə olaraq biliklərin təsnifatını verməyə cəhd vermiçdur. O fəlsəfəni varlığın daha konkret xassələri haqqında olan elmlərdən - riyaziyyatdan və fizikadan ayırmış, onları 2-ci fəlsəfə adlandırmışdır. Fəlsəfəyə dair çoxlu əsərləri vardır: “Fizika”, “Səma haqqında”, “Meydana gəlmə və məhv

olma" haqqında, "Siyasət", "Ritorika", "Etina", "Poetika", "Orqanom", "Kateqoriyalar" və s.

Aristotelin varlıq haqqında təlimi 1-ci fəlsəfə - **metafizika** adlanır. Ona görə **1-ci fəlsəfə** ən ümumi səbəblər və yaxud başlanğıclar haqqında təlimdir. **2-ci fəlsəfə** isə varlığın ayrı-ayrı tərəflərini öyrənir və bu yalnız məntiqin sayəsində mümkündür. Məntiqi "üzvi elm" adlandırıb, çünki o varlığın öyrənilməsi alətidir. Aristotelə görə, məntiq idrak üçün metodoloji əhəmiyyət malikdir. O ümumini xüsusidən, həqiqəti yalandan ayırır. Ümuminin çıxarılması və bununla da xüsusi amilləri izah etmək metodun **induksiya** adlandırmışdır. Ümumi nəticələrdən xüsusinin alınmasını isə **deduksiya** hesab edib.

Aristotel hər cür varlığın əsasını "1-ci materiya" da görürdü, lakin həmin materiyanı varlıqla eyniləşdirmirdi. Onun fikrincə, materiyanın ən sadə müəyyənliyi 4 elementdən ibarətdir: **atəş, hava, su, torpaq.** Bu 4 ünsür hiss ilə qavranıla bilməyən "1-ci materiya" ilə, hiss üzləri ilə qavranılan və real surətdə mövcud olan aləm arasında müəyyən keçid pilləsidir. Aristotel yazırdı ki, hiss ilə qavranılan şeylərdə bir - birinə zidd olan 2 mahiyyəti fərqləndirmək lazımdır. Bunlar da isti, soyuq, yaş, qurudan ibarətdir. Həmin mahiyyətlərin 4 əsas birləşməsi 4 elementin meydana gəlməsini təmin edir:

1)Atəş istinin və qurunun

2)Hava istinin və rütubətin

3)Su soyuğun və rütubətin

4)Torpaq isə soyuğun və qurunun

birləşməsindən əmələ gəlir.

Bu 4 element real şəkildə mövcud olan, hiss ilə qavranılan şeylərin əsasını təşkil edir.

Aristotelin fikrincə, 1-ci materiyadan fərqli olaraq, hissi ilə qavranılan varlıq dərk ediləndir.

**Kateqoriyalar -** gerçəklikdəki obyektiv, universal, ümumi, determinlik, struktur, sistemlilik və s. əlaqə münasibətiləri ifadə edir.

**Fəlsəfi mənada kateqoriyalar** - real gerçəklikdə (təbiətdə, cəmiyyətdə və təfəkkürdə) mövcud olan obyektin qanunauyğun və mahiyyətli əlaqə və münasibətləri əks etdirən ən ümumi və fundamental anlayışlardır.

Aristotel 10 kateqoriyanın olduğunu söyləmişdir: mahiyyət, kəmiyyət, keyfiyyət, münasibət, yer (məkan), zaman, vəziyyət, hal, hərəkət, iztirab. Aristotel kateqoriyalar arasındakı dərin daxili əlaqələri, onların bir- birinə keçməsini, mütəhərrikliyini də axıradək ardıcıl izah etmişdi.

**Aristotel şin varlıq haqqında təliminin** əsasında substansiya və yaxud "mahiyyət" anlayışı durur. Substansiya deyəndə o, tamamilə bənzərsiz, beş bir başqasında olmayan, yalnız özü-özündə olan varlığı nəzərdə tutur. Bu da təkcə varlıq - substansiyadır. Təkcə varlıq idrak üçün "forma" və "materiya"nın birləşməsidir. Varlıq planında "forma" predmetin mahiyyətidir, idrak planında isə "forma" predmet haqqında anlayışdır. İdrakın işi yalnız predmetin mühüm müəyyənliklərini daşıyan anlayışla olmalıdır. Aristotel göstərir ki, biliyin həqiqi olması üçün bilik yalnız predmet haqqında anlayışdan ibarət olmalıdır. Biliyin predmeti əbədi olan "forma" haqqında bilikdir, çünki bu "forma" nə yaranmır, nə də məhv olmur.

Aristotelə görə materiya mahiyyətə yaxındır və bəlli bir münasibətdə mahiyyətdir. Mahiyyət substratdır ki, burada qarşıda duran məqsəd həyata keçirilir; forma - materiyanın imkanından gerçəkliyə keçməsidir; hərəkətin səbəbi, yəni imkandan gerçəkliyə keçidi təmin edən hansısa qüvvənin fəaliyyəti, nəhayət fəaliyyətin məqsədi.

**İnsan ruhu haqqında təlimi** - Aristotelin fikrincə, ruh canlı aləmin hamsına - bitkilərə də, heyvanlara da, insanlara da məxsusdur. Ruh canlı aləmin səbəbi və başlanğıcıdır. Ruh canlı cisimlərin məqsədi və mahiyyətidir. Aristotel ruhun 3 əsas səviyyəsindən danışır: 1. Veqetativ ruh (bitkilərin); 2. Hissi ruh (heyvanların); 3. Ağlabatan (yalnız insanlara məxsusdur, çünki fikir söyləmək, dərk edə bilmək xüsusiyyəti vardır, bədəndən ayrıdır, əbədidir.

**İdrak nəzəriyyəsi** - Aristotel maddi dünyanı 1-ci sayırdı. O, hissi idrakı, idrakın əsas və birinci səviyyəsi olduğunu sübut etməyə çalışırdı. Aristotelin fikrincə insan hissi idrak vasitəsilə konkret varlığı - 1-ci mahiyyəti, təkcə, fərdi şeyləri dərk edir. İdrakın inkişaf pillələrini belə təhlil edirdi: duyğu, təsəvvür, təcrübə. Aristotel deyirdi ki, incəsənət və elm - inkişafın ən yüksək zirvəsidir. O, hissi idrakla məntiqi idrak arasında ziddiyyət və vəhdəti çox yaxşı görürdü. Filosof göstərirdi ki, ümuminj yalnız müşahidə vasitəsilə yaxud xatırlama yolu ilə dərk etmək olmaz. Təfəkkürü praktiki fəaliyyətlə tutuşdurmaq, müqayisə etmək lazımdır. Aristotel hissi idrakı həqiqi idrak sayırdı. Elmi idrakın vəzifəsi hissi qavranılan predmetlər müəyyən anlayışlarda birləşən vaxt səhvlərin aradan qaldırılmasıdır. O deyirdi ki, mülahizə duyğuya əsaslanır, təsadüfi faktların məcmusudur, ona görə də mülahizə təkcə və təsadüfi hadisələrə aid ola bilər.

**İdrakın vəzifəsi** - zərurini və ümumini dərk etməkdən ibarətdir.

**Məntiq haqqında təlimi** - Aristotel məntiqi idrakın silahı, elmi idrakın əsası adlandırır. O, məntiqin nəzəri əsaslarını formal məntiqin "ziddiyət qanununu" və "üçüncünün istisna qanununu" işləyib hazırladı. 1. "Ziddiyyət qanunu" - ola bilməz ki, dəyişməz bir şəraitdə həm ayrı-ayrı mülahizələr, həm də onların inkarı eyni zamanda həqiqət olsun. 2. "Üçüncünün istisna qanunu" na görə konkret şəraitdə bir-birinə əks 2 mühakimədən yalnız biri düz ola bilər. Deduktiv məntiqin inkişafı antik elmi - fəlsəfi fikrin əsasən mücərrəd xarakterdə olmasını, eksperimental təbiətşunaslığın demək olar ki, tamamilə olmasını əks etdirdi. Bu məntiqin mərkəzindədir sillogizmlərdən (əqli nəticələrdən) istifadə edən sübut haqqında təlim durur.

**Kosmoloji baxışları** - O deyirdi kiz kosmos da dünyanın mərkəzi olan Yer kimi şarabənzərdir. Əslində kosmos ümumi mərkəzi olan göy şarından ibarətdir. Yerə daha yaxın Aydır, ondan sonra gələnlər isə Günəş və başqa planetlərdir. Yerdən ən çox uzaq olan ulduzlardır. Onun fikrincə Aydan Yerə qədər olan məkanda nə varsa hamsı materiya ilə doldurulmuşdur. Bunlar da 4 elementdən ibarətdir: od, su, hava, torpaq. Aydan Günəşə, planet və ulduzlara, kosmosa qədər olan məkanda nə varsa materiyadan başqa həm də 5-ci elementlə - **efirlə** doldurulmuşdur. Göy cisimləri dəyişməzdir, lakin daimi dairəvi hərəkətdədir. Yer də dəyişir, amma hərəkət etmir. Aristotelin 1-ci təkan ideyası sonralar göy cisimlərinin hərəkəti haqqında teoloji konsepsiyaların yaranmasına səbəb oldu. Aristotelin fikrincə bizim dünya yeganədir və həm də məkanca sonludur, zira yalnız onun sonluğu ilahi ilk təkanda təcəssümünü tapan dünyəvi məqsədin vahidliyinə zəmin verir.

**Cəmiyyət haqqında təlimi** - Aristotel "Siyasət" əsərində şərh etmişdir. O insanı ictimai varlıq hesab edirdi. Filosof, dövləti icma birliyinin inkişafı kimi başa düşür, icmanı isə inkişaf etmiş ailə adlandırırdı. O, quldarlıq dövrünü müdafiə edirdi və cəmiyyətin təşkilinin təbii vəziyyəti hesab edərək deyirdi ki, birinin tabe olması, p birinin isə hökmranlığı əvvəlcədən müəyyənləşdirilib. Ona görə də biri anadangəlmə qul, digəri quldardır. O, çox varlı olmağın, kasıb olmağın əleyhinə idi və orta yaşam tərzini bəyənirdi. Dövlətin meydana gəlməsini insanların bir-birilə ünsiyyətində görürdü.

Yaxşı dövlət forması olaraq monarxiyanı, aristokratiyanı, politiyanı bəyənir, pis dövlət forması kimi oliqarxiya, istibdadı və demokratiyanı qeyd edirdi. Onun fikrincə, etika məsələləri insanların ictimai vəziyyətləri ilə sıx əlaqədə baxılmalıdır. Beləcə ki, səxavət yalnız insana aid bir xüsusiyyətdir. Qullar heç vaxt səxavətli ola bilməzlər.

**Səbəbiyyət haqqında təlim** - O, 4 əsas səbəbi bir-birindən fərqləndirirdi:

1)maddi səbəb - materiyanın özüdür.

2)formal səbəb - fəal prinsipi kimi forma ilə birləşir, materiyadan həqiqi reallıq, mahiyyət yaradır.

3)fəal səbəb - hərəkətin mənbəyi və imkanın gerçəkliyə çevrilməsi ilə birləşir.

4)son və ya məqsədli səbəb - hərəkətin məqsədini və mənasını izah edir.

Maddi səbəbi potensial səbəb kimi çıxış edir. Aristotelin ontoloji baxışlarında idealizmin və metafizikanın müəyyən elementləri vardır. Bu özünü onun məkan və zaman, son səbəb və məqsədəuyğun anlayışlarında aydın göstərir.

**Hərəkət təlimi -** Aristotel təbiətdə və cəmiyyətdə hərəkəti qəbul edib, hərəkətin müxtəlif növlərinin (meydana gəlmə, məhv olunma, inkişaf, azalma, keyfiyyətcə dəyişmə və fəzada dəyişmə) mövcud olmasını göstərirdi. Ziddiyyətlərin qarşılıqlı əlaqəsini, keyfiyyətli dəyişikliklərin kəmiyyətlərdən asılılığını görür, mümkünlüyün həqiqətə çevrilməsini tədqiq edirdi. Hərəkətin mənbəyi "1-ci mühərriki" Allahdır və Aristotelə görə O, maddədən kənarda qalır və özü hərəkətsiz qalaraq bütün dünyanı faydalı hərəkətə gətirir. Allah bütün əşyaların inkişafının sonuncu səbəbi, ən yüksək məqsədidir.

Aristotel hərəkətin 4 növünü göstərir:

1)böyümə nə kiçilmə

2)keyfiyyət dəyişkənliyi və yaxud keyfiyyətcə çevrilmə

3)yaranma və məhv olma

4)məkanca yer dəyişmə hərəkəti və bunu filosof əsas hərəkət kimi götürüb 3 növ hərəkətin mənbəyi hesab edir. Allah bütün formaların formasıdır.

## Ellinizm

Ellin fəlsəfəsinin əsas cərəyanları - **skeptisizm, stoisizm, epikürçülük.**

**Skeptisizm -** IV əsrin axırında Yunanıstanda yaranıb. Skeptisizm - (şübhəlik və ya şübhəçilik adlanır) hər cür məlumata şübhə ilə yanaşan, hər hansı bir fikrin nədən yarandığını, sübutunu tələb edən, həmçinin bir ağlın bu suala cavab verə bilməyəcəyini, hər hansı mütləqə çatmayacağını iddia edən fəlsəfi cərəyandır. Bu cərəyanın yaradıcısı **Tales** olmuşdur. Talesə görə açıqlamaların çoxluğu və çeşidliyi şübhə doğurur. Skeptisizmin nümayəndəsi Rene Dekartın şübhəçiliyinə

üsullu şübhə adı verilir. Onun skeptisizmi qəti məmulatı tapılana qədər bütün məlumatları nəzərdən keçirmə mənasındadır. Dekarta görə qəti məmulat mövcuddur, şübhəçiliyi isə bi üsul mahiyyətindədir. O, bütün mahiyyətləri qəbul edir, lakin onları şübhə altına alır. Skeptisizmin nümayəndəsi Sekst Allahın adını şübhə altına alır.

**Stoisizm** - Ellinizm dövrünün əsas fəlsəfi cərəyanlarından biridir. Cərəyanın əsasını ellin mədəniyyəti zəminində kosmonolit və fərdiyyətçilik ideyalarının yayılması və riyaziyyatı biliklərin əsasında texnikanın inkişafı durur. E.ə IV əsrin sonunda eramızın II əsrinədək bir dövrü əhatə edir. Bu təlim özündə materializm, idealizm, ateizm və teizm ünsürlərini birləşdirir.

Stoisizmin təməli Qədim Romada və Yunanıstanda qoyulmuşdur. Əsas yaradıcısı Zenon hesab edilir. Stoiklərin fikrincə, insanlar təbiətin tələblərin uyğun yaşamalıdırlar. Onlar o dövrün fəlsəfəsinin 3 tərkib hissəsini - məntiqi, fizikanı, etikanı birləşdirmək istəyirdilər. Stoiklər üçün fəlsəfə insan orqanizminə bənzəyir və məntiqi onun çəkisi, etikanı damar, fizikanı isə onun ruhu adlandırırdılar. Antologiyada 2 əsas başlanğıcı göstərirdilər: maddi və mənəvi və onların birləşmələrindən ayrı-ayrı cisimlərin, şeylərin yarandığını iddia edirdilər. İdrak nəzəriyyəsində sensualist mövqedə idilər. Stoiklərin fəlsəfəsi panteist xarakter daşıyırdı.

Stoiklər 4 kateqoriyanı qəbul etmişlər:

1)Substrat (mövcud olan, varlıq)

2)Keyfiyyət

3)Vəziyyət, hal

4)Nisbi vəziyyət.

Stoisizm şərti olaraq 3 əsas hissəyə bölünür:

I mərhələ - qədim (e.ə. IV əsrin sonundan b.e. ya qədər)

II mərhələ - orta stoisizm (e.ə. II-I əsrlər)

III mərhələ - yeni stoisizm (eramızın I-III əsrləri)

Bu cərəyanın əsasını Kitonlu Zenon qoymuşdur. O, e.ə. 308-ci ildə Afinada öz məktəbinin əsasını qoymuşdur. Onun fəlsəfəsi Heraklitin fizikasına əsaslanır və materialist təlimdir. Zenon alovu hər şeyin əsası hesab edir, zaman keçəcək hər şey alova çevriləcək. Alov ilahi qüvvədir, ilahi loqosla eynidir. Zenonun fikrincə

dünyada zərurət, yəni tale qismət hökmranlıq edir. Onun fikrincə əxlaqın ilkin amili kimi insan marağını araşdırır, çünki maraq həm dərrakəli, həm də dərrakəsiz varlıqda olur. Onun məqsəd haqqında anlayışı da maraqlıdır. Belə ki, onun fikrincə ağlabatan maraqların məqsədi xeyirxah əməllərdir. Xeyirxahlıq qəlbin hakim hissəsinin sabit, öz-özü ilə eyniyyət təşkil edən hissəsidir. Qəlbin hakim hissəsi isə düşünən idrakdır. Zenon xeyirxahlığın 4 əsas tipini göstərir: zəkaya uyğunluq, cəsarətlilik, təmkinlilik və ədalətlilik. 1-ci daha üstündür.

Stoisizmin digər nümayəndəsi **Lutsi Anney Senena -** e.ə. I əsrin sonunda Cənubi İspaniyanın Kordova şəhərində anadan olmuşdur. Senena fəlsəfi, hüquqi və təbiət elmlərini hərtərəfli öyrənmişdir. “Fəlsəfə haqqında”, “Xoşbəxtlik həyat haqqında” və s. əsərlərin müəllifidir. Onun fəlsəfəsinin predmeti təbiət, əxlaq və əql olmuşdur. Senenanın fəlsəfəsinin əsasında materiya və idrakın forması haqqında təlim durur. Materiya əql vasitəsilə dərk olunur. Senena hər şeyi cismani sayır, həm tanrıları, həm də canlıları. Onun fikrincə, xoşbəxt yaşamaq elə təbiətə uyğunlaşmaq deməkdir. Təbiət od, su, hava və torpaqdan ibarətdir və onlar qarışılıqlı şəkildə bir birinə çevrilir. O ruhu odla havanın birləşməsi kimi götürürdü. Senena panteist filosof idi. Onun fikrincə, Allahsız təbiət və təbiətsiz də Allah ola bilməz. Allah hər şeyə ciddi nəzarət edir və əql üzərində də hökmrandır. Senena fəlsəfəsində etik problemlər mühüm yer tutur. O, təbiətlə razılaşmaq, taleyin hökmünə tabe olmağı məsləhət görürdü. Deməli tale fəal, insan passivdir. Ən yaxşısı Allahın məsləhətlərinə qulaq asmaq və onlara əməl etməkdir.

**Epiktet** - azad edilmiş qul olub, ömrünü fəlsəfəyə həsr etmişdir. O, xoşbəxtliyi təbiətə itaət etməkdə görürdü. İnsan kainatın bir parçasıdır, ona görə də taleyi ilə razılaşmalıdır. İnsanı xoşbəxt edən şeylər özləri deyil, onlar haqqında təsəvvürlərdir. O, fəlsəfəni 3 hissəyə bölürdü və etikanı daha üstün sayırdı. Epiktet insanın əsl mahiyyətini onun əqlində görmüşdür. Allahı aləmin inkişafının mənbəyi, həlledici qüvvəsi hesab etmişdir. İnsanın praktik yaşamağının dəyərləndirilməsini əsas tutmuşdur. Azadlıq insanın mənəvi kamilliyi ilə əldə edilir.

**Mark Avreli** - idealist filosofdur. O, öz fikirlərini “Öz-özünə qarşı” əsərində göstərib. Filosof qeyd edirdi ki, ən yaxşı şey ədalət, həqiqət, tədbirlik, mərdlikdir. Avreliyə görə, Allah bütün mövcudatın ilk əsasıdır. İnsanlar səbrli, əxlaqlı, ədalətli olmalıdırlar. Avrelinin fikrincə, insan öləndən sonra onun ağlı ümumi ilahi ağlın içində həll olur. O, insanı həm qısaömürlü, yalnız hazırki məqamla yaşayan varlıq, həm də üzünömürlü və sabit məqsədlər güdən varlıq hesab edirdi. O, deyirdi ki, insan dövlətin mənafeyinə qulluq etməlidir.

Qədim yunan sitoizmini sona çatdıran Xrisipp olmuşdur. “Xrisipp olmasaydı, stoya da olmazdı” deyənlər də var idi. O, öz fikirlərini “Məntiqi müddəalar”, “Mürəkkəb mühakimələr haqqında” və s. əsrlərində ifadə edib.

## Orta əsrlər fəlsəfəsi

Orta əsrlər fəlsəfəsi 1-4-cü əsrlərdən başlayaraq 15-ci əsrin sonu 16-cı əsrin əvvəllərinə qədər olan dövrü əhatə edir və feodalizm dövründə yaranıb.Bu dövrün fəlsəfi və ictimai-siyasi fikrinin qabaqcıl nümayəndələri Şərq fəlsəfəsinin,Platonun,Aristotelin,Heraklitin,Evnilidin,Ptolomeyin və başqalarının ideya irsinə əsaslanırdılar.Orta əsrlər fəlsəfəsi antik fəlsəfənin son dövrlərində formalaşan dini yönümlü,ya da dini məzmunlu fəlsəfə olduğunu görərik.Həmin dövrdə fəlsəfə xristianlıq dini zəminində inkişaf edirdi.

Orta əsrlərin əsas fəlsəfi təlimi Sxolastika adlanırdı.Sxolastik fəlsəfənin nümayəndələri dini dünyagörüşünün nəzəri əsaslarını yaradır.Bu dövrdə materialist fəlsəfə qanundan kənar hesab edilirdi.Bu dövrdə fəlsəfə ilahiyyatın xidmətçisinə çevrilmişdir.

Orta əsrlərdə yeni pifaqorçuların,yeni platonçuların meydana gəlməsi ilə “xristianlığın banisi” İskəndəriyyəli Filonun dini-mistik fəlsəfəsi yarandı.Onun fəlsəfəsi xristian təliminin əsasını təşkil edir.

Bu dövrdə yaranan realizm platonizmə yaxın idi,çünki həmin baxışa görə ümumi anlayışla 3 halda öz mövcudluğunu göstərir:

1)Maddi cismə qədər(ilahi zəkada mövcud olma)

2)Maddi cismin özündə(onun mahiyyəti və forması kimi mövcud olma)

3)Maddi cisimdən sonra(abstraksiya nəticəsində mövcud olma)

Orta əsrlər fəlsəfəsinin aşağıdakı səciyyəvi xüsusiyyətləri vardır:

1)Fəlsəfə etiqadın bilik üzərində üstünlüyü qanunu üzrə inkişaf edirdi

2)İdrakın əsas forması vəhylər hesab olunurdu

3)Mononofeizm prinsipləri fəlsəfənin əsasını təşkil edir

Orta əsrlər fəlsəfəsində teoloji dünya anlamında 2 vacib prinsip mövcud olmuşdur:

1)Kreationizm(yaranma)ontologiyanın əsas prinsipi

2)Vəhylər qnoseologiyanın əsas prinsipi

Hər iki prinsip bir-biri ilə sıx əlaqədə olub vahid şəxsi Allahın varlığını irəli sürürdülər.

Bu dövrdə müxtəlif istiqamətlər fəaliyyət göstərirdilər:

1)Patristika

2)Sxolastika

3)Anologetika

4)Ehkamçılıq

**Patristika**

Patristika-(latınca "pater" ata deməkdir) II-VIII əsrlərdə xristian mütəfəkkirlərinin teoloji,fəlsəfi və siyasi-ictimai təlimlərinin cəmini ifadə edən termindir.

Patristika bir neçə dövrə bölünür:

1)Apologetlərin fəaliyyəti dövrü (II-III əsrlər)

Apologetlər xristianlığın təməl prinsiplərini bütpərəstlərin,yəhudilərin tənqidlərindən müdafiə edən bir cərəyandır.

Apologetika-dini təlimin əqlə əsaslanan dəlillərlə müdafiə edilməsidir və 2 hissəyə bölünür:

1)Yunan dilində yazan Şərq apologetləri

2) Latın dilində yazan Qərb apologetləri

2)Rəsmi xristian təliminin sistemləşdirilməsi dövrü(IV-V əsrlər) Bu dövrdə pərakəndə şəkildə olan fəlsəfi fikirlərin yerinə vahid dini konsepsiya meydana gəlmişdir.Ən məşhur nümayəndəsi Kappodokiyalı atalardır.

3)Xristian ehkamlarının möhkəmlənməsi və sabitləşməsi dövrü(VI əsr)

Patristika dövrü VII əsrdə Yonannes Damaskenosun fəaliyyətindən sonra başa çatıb.Patristika fəlsəfəsi teosentrik olub hər bir mövcud olan şeyi təyin edən Tanrıdır fikrini təbliğ edib.

Patristika dövrünün ən məşhur filosofu Avreli Avqustindir.O,özünün məhşur "Tövbə","Allah şəhəri haqqında" əsərlərində dünya zamanda deyil, zamanla birlikdə yaradılması fikrini təbliğ edir.Deməli, fəal yaradıcı başlanğıc

təbiətdən,kosmosdan alınaraq verildi.Orta əsrlərdə kosmos yunan fəlsəfəsində tutduğu mövqeyini itirdi.Onun fəlsəfi təlimində dünya haqqında təlim 2-ci realliq haqqında təlimi kimi verilmişdir.

Avqustinin təlimində monoizm əsas mövqeyə malikdir,yəni mütləq başlanğıc-Allahdır,qalanları isə 2-dir.Allah həqiqi varlıqdır,əbədidir,dəyişməzdir,heç nədən asılı deyildir,hər şeyin mənbəyidir.Filosof Allahı 1-ci hesab etdiyi üçün ruhun bədən üzərində,iradə və hisslərin əql üzərində üstünlüyünü sübut etmək istəyirdi.O,deyirdi ki,təbii substansiyadır,cismani varlıq deyil,maddi deyil,bioloji funksiyalarla əlaqəsi yoxdur.Ruh,təfəkkür,iradə,hafizə funksuyasına malikdir.Ruh Allaha yaxındır və ölməzdir və Allahı dərk edir.İnsan ruha qayğı göstərməli,ona itaət etməlidir.Onun mahiyyəti azad iradədən ibarətdir.Avqustinin təlimində tale,qismət məsələləri mühüm yer tutur.İnsan azaddır,lakin nə iş görürsə Allah onun vəsiləsilə edir.Allah qərarları ilə bəzi insanları xilas edir,bəzilərini isə cəhənnəm əzabında cəzalandırır.

Avqustinin təlimində ziddiyyətlər vardır belə ki, o həm həqiqətə ayrı-ayrı fərdlərin nail olmasını,digər tərəfdən isə həqiqətin kilsənin imtiyazında olmasını söyləyir.Avqustin bir tərəfdən həqiqətin obyektiv xarakterə malik olmasından,digər tətəfdən isə həqiqətin Allahın töhfəsinin olduğunu söyləyir.Avqustinin fikrincə insan bədəni şər qüvvələrdən kənardır, digər tərəfdən isə insan bədənindəki mənbəy onun istəyindədir.O,insan psixologiyasına böyük diqqət yetirib onun gizli olduğunu təsdiqləyir.

## Sxolastika

Sxolastika-(yunan dilində scholasticos mənası məktəb deməkdir)VIII əsrdə meydana gəlmiş,XIV-XV əsrlərə qədər davam etmişdir.Sxolastika fəlsəfəsinin nümayəndələri xristian təlimlərini əsaslandırmaq və sistemləşdirmək istəyirdilər.Buna görə də onlar Platonun,xüsusilə Aristotelin ideyalarından istifadə edir,onları öz məqsədlərinə uyğunlaşdırırdılar.Orta əsrlərdə fəlsəfə kilsədən asılı idi.Bu dövrdə əsas 3 məqsəd qarşıda dururdu:

*1)Əql,fəlsəfə vasitəsilə etiqad həqiqətinə nüfuz etmək və onun məğzini insanın ağlasığan ruhuna yaxınlaşdırmaq*

*2)Fəlsəfi metodlar vasitəsilə dinə və ilahiyyat həqiqətlərinə sistematik forma vermək*

*3)Fəlsəfi dəlillərdən istifadə yolu ilə müqəddəs həqiqətləri tənqidlərdən xilas etmək*

*Sxolastika 3 dövrə bölünür:*

*1)Erkən sxolastika (8-12-ci əsrlər) Nümayəndələri: Pyer Abelyar, Kenterbeli Anselm, İohan Rosselinin.*

*2)Sxolastikanın tərəqqi dövrü (13-cü əsri əhatə edir) Nümayəndələri: Anvinali, Foman, Albert fon Bodenşted*

*Bu dövrün filosofları Aristotelin fəlsəfəsindən istifadə zamanı xristian ilahiyyatına ziyan vurmamağı fikirləşirdilər.Bu fikirlərinə görə 2 cəhbəyə bölünürdülər:1)Mühafizəkarlar-Avqustinin əsas müddəalarına əsaslanırdılar və Aristotelin fəlsəfi fikirlərindən də istifadə edirdilər.2)Mütərəqqilər-əsas olaraq aristotelin fəlsəfəsini götürürdülər,ancaq Avqustinin fikirlərini saxlamaqla*

*3)Son dövr sxolastikası(14-15 əsrlər)Bu dövrdə sxolastika fəlsəfədə ciddi dəyişikliklərə başladı ki,bu da Duns Skotun adı ilə bağlı idi.Bu dəyişikliklər həm təbiət,həm humanitar sahələri əhatə edirdi,elmi tədqiqatlara maraq artırdı.Avropada Krakovda,Veneda və s. şəhərlər,universitetlər yarandı.Sxolastikafəlsəfədə ciddi mübahisələri,tənqidi meyilləri artırdı.*

Sxolastikanın görkəmli nümayəndələrindən biri Anvinalı Fomadır.Onun çox məşhur əsərləri “Analitik”, ”Göy və yer”, ”Ruh haqqında”, ”Politika”, ”Fizika”, ”Metofizika” və s. Fomanın fikrincə elmin vəzifəsi dünyanın qanunauyğunluqlarını izah etməkdir.Filosof obyektiv düzgün biliyə nail olmanın mümkünlüyünü qəbul edir,insan zəkasının fəaliyyətini gerçək sayanları tənqid edirdi və deyirdi ki, idrak nə qədər həqiqi və obyektiv olsa da o, hər şeyi əhatə edə bilməz, çünki xristian dininin elə sirrləri var ki, onlar fəlsəfi zəkadan və idrakdan kənardır.Bununla da o,sübut etməyə çalışırdı ki,elm və etiqad arasında ziddiyyət yoxdur.Fomaya görə həqiqət yalnız 1 ola bilər,onun da mənşəyi Allahdrır.O,təbiəti ən geniş pillə hesab edir, çünki bu pillənin üzərində insanlar,bitkilər və heyvanlar aləmi yüksəlir.Bunların hamısının əsasında ən yüksək dərəcədə tamamlanmış eyibsiz Allah durur.Filosofun fikrincə Allahın mövcudluğunun səbəbi onun mahiyyətindədir.Hər şey Allah tərəfindən yaradılıb.Foma materiyanı formadan ayırır.Onun fəlsəfəsində formalar forması Allahdır.O,cismani varlıq deyil,onun varlığını əql,zəka vasitəsilə sübut etmək mümkünür və bunun 5 sübutu var:

1)Hərəkətdə olan cisim hər hansı başqa bir qüvvənin təsiri ilə hərəkətə gəlir,yəni Allah vasitəsilə

2)Hər şey səbəbi Allahdır

3)Hər şey zərurətdən yaranır.Onların yaranması üçün birinci zərurət Allahdır

4)Gerçəklikdə müxtəlif keyfiyyət dərəcələri mövcuddur-Allah

5)Teoloji sübut-bunun əsasında bütün təbiətə təzahür edən xeyirlilik durur,həmin xeyir qüvvə Allahdır

Foma sosial bərabərliyin əleyhinə idi.O,sosial fərqləri əbədi hesab edirdi.Monarxiyanın növlərini ən yüksək idarəçilik forması hesab edirdi.

Foma ruhları 3 qrupa bölür:

1)Veqeqativ ruh-bitkilərə məxsusdur

2)Sensitiv ruh-heyvanlara məxsusdur,hissi qavrayışlarda,azad,sərbəst hərəkətlərdə özünü göstərir

3)İnsan ruhu-hər iki ruh insana məxsusdur.Bunlara intellektual qabiliyyət,əql,zəka da əlavə olunur

Fomanın etik baxışlarına müdriklik, cəsarətlilik, mülayimlik mötədillik, ədalətlilik,

inam, etiqad, ümid, sevgi kimi keyfiyyətlər aiddir.

## Apologetika

Apologetika-yunanca"apologetika" sözündəndir.Mənası müdafiə etmək deməkdir.Bu istiqamətin nümayəndələri etiqadın bilik üzərində üstünlüyünü sübuta çalışırdılar.Onlar xristianlığın müdafiəçiləridirlər və bu dini bütpərəstlikdən,imperiya hakimiyyətindən inamın qanun və postulatlarını tənqid edənlərdən qoruyurdular.Ən məşhur nümayəndəsi Yustin "Apologiya" əsərində xristianlığın bütpərəstlik fəlsəfəsi üzərində üstünlüyünü sübut etməyə çalışırdı.O, deyirdi ki. Xristian fəlsəfəsi bütpərəstlikdən fərqli olaraq həyat həqiqən haqqında bilikləri çox sadə,hamının başa düşdüyü dildə çatdırır.Xristian müdrikliyi ilahi mənşəlidir,qədimdir,çünki əhdi-ətiq kitabları yunan fəlsəfəsindən daha əvvəl yaranıb.

İkinci məşhur filosof Tatiandır.O,Yustinin fikirlərini davam etdirərək sübut etməyə çalişirdı ki , bütpərəstlik fəlsəfəsində müdriklik pərakəndədir,ziddiyyətlidir,çünki onlar Tanrını tanımırlar.Apologetiklərin aforizmi olan "Məqsəd vasitəni doğruldur" prinsipi fəlsəfi əsaslandırmada asanlıqla bərqərar oldu.Bu cür vasitələr isə şəxsiyyətə müraciət alleqoriya yozum və açıq qınamaq vasitəsilə əsaslandırmaqdan ibarətdir

Orta əsrlər fəlsəfəsində **nominalizmin** qurucularından hesab olunan Uiliam Okkamın əsərləri məntiqə və müxtəlif kitabların şərhinə həsr olunub.O Aristotelin "Fizika" əsərini şərh edərkən ilahiyyat məsələlərinə xüsusi diqqət yetirirdi.Okkamın fikirləri klassik sxolastikaya,ehkamçılığa,rasionalizmə,realizmə

qarşı idi.Həmin dövrlərdə nominalizm(latınca “nomen” ad deməkdir) və realizm arasında mübarizə həm fəlsəfi həm siyasi xarakter daşıyırdı.Nominalistlərin fikrincə real və obyektiv mövcud olan ayrı-ayrı şeylər,predmetlər,hadisələrdir.Ümumi anlayışlar isə insan təfəkkürünün gerçəkliyindən təcrid olunmuş fəaliyyətdir.Əgər gerçəkliyin predmetləri,təzahürləri olmasaydı ümumi anlayışlar da yaranmazdı.Okkam məntiqi işarələr haqqında elm adlandırırdı.O, ümumi anlayışları təkcə şeylərin surəti sayırdı.Okkam belə hesab edirdi ki ilahiyyat problemlərini və bütün dini kəlamlarını zəka vasitəsilə izah etmək mümkün deyildir.Filosof belə hesab edirdi ki xristianlar özlərini 3 simada:Allahda,Allah-oğul,Allah-müqəddəs ruh simasında göstərən tək Allaha etiqad etməlidirlər.3 uqnum haqqında xrisrian təlimi zəkadan xaricdir,zəkaya aiddir.Onun nominalizmi ilahiyyat və fəlsəfəni etiqad və elmi bir-birindən ayırırdı.Filosof etiqadı müdafiə edirdi.

**Realizmin nümayəndələri** Ansem Kenterberiyski,Foma Anvinskidir.Onlar sübut etməyə çalışırdılar ki,real və obyektiv surətdə mövcud olan ümumi anlayışlardır.Onlar əbədidir.Təbiətə nisbətən birincidir.İnsandan asılı olmayaraq mövcuddur.Realistlərin fikrincə təbiətin bütün təzahürləri yalnız və yalnız ümumi anlayışların təzahür formalarıdır.

## İntibah dövrü fəlsəfəsi

İntibah dövr fəlsəfəsi kapitalist istehsal münasibətlərinin meydana gəlməsi ilə əlaqədardır. Bu dövr fəlsəfəsi feodal ideologiyasına, kilsəyə qarşı mübarizə aparırdılar. İntibah dövr fəlsəfəsinin əsr başlıca xüsusiyyəti humanizim ideyalarını təbliği idi. Həmin dövrlərdə təbiətşünaslıq əsl elmə çevrildi; astronomiya, mexanika, riyaziyyat, təbiətşünaslıq elmləri inkişaf edirdi. İntibah dövründə eksperimental təbiətşünaslığın inkişafı xüsusi əhəmiyyət kəsb edirdi. İntibah dövr fəlsəfəsi ilk öncə İtaliyada sonralar isə Qərbi Avropanın başqa ölkələrində inkişaf etdi. İntibah dövr fəlsəfəsinin əsas cəhətlərindən biri də Antik dövr fəlsəfəsinin dirçəlişi idi. Bu dövrdə fəlsəfə artıq teosentrik baxışdan, antroposentrik dünyagörüşünə keçdi. Bu isə insan haqqında təlimin əsas olduğuna dəlalət edirdi. İnsanın yüksək zəkasının qüdrətinə, əqlin gücünə inam artdı. İntibah dövr fəlsəfəsi insanı tərəqqi etməyə qadir olan, azad və hərtərəfli inkişaf etmiş bir varlıq kimi anlayırdı. İtaliyada humanizm Dante Aligerinin, Françesko Petrarkanın və s. alimlərin adı ilə bağlıdır. İtaliya intibahının predmeti təbiət fəlsəfəsi, çıxış nöqtəsi isə peazonizmdir. Alpyam Avropa dövlətlərinin intibahında isə məntiq, dövlət və hüquq fəlsəfəsi başlıca rol oynayır.

XVI əsrin ortalarında İtaliyada Platonçu humanizm məktəbi süquta uğradı və təbiət fəlsəfəsi ilə yanaşı təbiətşünaslıqda öz inkişafına başladı. Bu dövr alimləri

yeni ixtiralar edir. Eksperimental tədqiqat metodunun ön plana çəkirdilər. Həmin dövr fəlsəfəsinin Leonardo da Vinçinin, Nikolay Koperkinin, İoham Keplerin, Qalileo Qalileyin kəşfləri dünya elminə, mədəniyyətinə, fəlsəfi fikir tarixinə böyük töhvələr vermişlər.

**Leonardo da Vinçi** intibah dövrünün ən dahi rəssamı, riyaziyyatçısı və mexaniki idi. Onun fikrincə fəlsəfənin əsas vəzifəsi gerçəkliyin elmi surətdə dərkidir. Filosofun fikrincə, dünya obyektivdir və maddidir. O, materialist fikirlərinə əsasən təbiətin bütün hadisələri obyektiv qanunlarına tabedir. Filosof həqiqətin ikisini rədd edərək deyirdi ki, həqiqət birdir və elmə əsaslanır. Onun fikrincə, elmlə praktika vəhdətdədirlər. Onun mürəkkəb ixtiraları indiyə qədər aktualdır: vertolyot, tank, konservə edilmiş günəş enerjisi, kalkulyator, iki korpuslu gəmi və s.

Deyilənə görə, onun anası Cənubi Qafqaz dağları və Xəzər dənizi arasında yerləşən Azərbaycandır. Onun adı Katerina olub. Konstantinopola satılan qullara verilən adlar. Alim feodalizmin nöqsanlarını tənqid edirdi. Gerçəkliyin elmi surətdə dərkini fəlsəfənin əsas məsələsi hesab edirdi. Dünyanın obyektivliyi və maddiliyini təsdiq edirdi. Onun fikrincə, təbiətin bütün hadisələri obyektiv qanunlara tabedir və söyləyir ki, "Zərurət- təbiətin müəllimi və yüyənidir, həm də əbədi qanunudur".

Leonardo da Vinçi emprizim ilə rasionalizmi birləşdirirdi və deyirdi ki, "Qidalanan hər hansı canlı fasiləsiz ölür və fasiləsiz yenidən yaranır".

**Kuzanski** - Katolik kilsəsində yüksək dini rütbə tutan alman kordinalı Kuzanski İtaliya naturafəlsəfəsinin nümayəndəsidir. Kuzanskinin fəlsəfəsi və kosmoloji baxışları dini çərçivədən kənara çıxmırıdı. Belə ki, o, dini təsisafların tələblərinə həmişə sadiq idi. Alim aləm və insan haqqında baxışlarını gələcəyə yönəltmişdi. "Qavqaqcadan lazım olan şərtlər haqda" əsəri məntiqi fəlsəfi məzmunda "Gizli Allah haqqında" traktatı ilə ilahiyyata həsr olunmuşdur. Alimin fikrincə, gerçəkliyin mərkəzində Allah dururdu, buna baxmayaraq onun təlimi fərqli idi. Çünki onun təlimi insan haqqında xristoloji mahiyyətə malik idi. Bu da, o deməkdir ki, ilahi və insani prinsiplər bir-birilə mütləq qovuşur. Ona görə də, insan özü də "Allahdır". İnsan ilahi prinsipinin məhdudlaşdırılmasıdır. O, bu düşüncələri ilə mahiyyət və təzahürün dərk olunmasının dialektikası haqqında ideyaları da inkişaf etdirirdi.

İntibah dövrünü görkəmli nümayəndələrindən biri də **Nikolay Kopernikdir.** O, heliosentrik sistemi kəşf edib, və "Səma dairələrinin dövranı haqqında" adlı əsərində bu sistemin əsas müddəalarını göstərmişdir. Təbiətşünaslıq elminin dini

dünyagörüşdən uzaq olması Kopernikin adi ilə bağlıdır. O, ilk dəfə Yerin də bir planet olması haqqında fikir söyləyib. Cordano Bruno ilk dəfə olaraq Yerin, Günəş ətrafında fırlanması və kürə şəklində olmasını, səma cisimlərininin dövranı fikirini söyləyib.

İntibah dövrünün məşhur filosoflarından biri də **Cordano Brunodur.** Onun fikrrincə, kainatda məskunlaşmış aləmlər çoxdur. Cordano Bruno dini ehkamları qəbul etmirdi. Çünki, o, kainatın maddi vəhdəti, kainatın sonsuzluğu, panteizm və əksliklərin üst-üstə düşməsi fikrini dəstəkləyirdi. Filosofu inkvizisiya təqib edir, dinsizlikdə günahlandıraraq ölüm cəzasına məhkum edir. Əsərləri "Sonsuzluq kainat və dünyalar haqqında" əsərində göstərir ki, kainat vahiddir, maddidir, sonsuz və əbədidir, fəal yaradıcı prinsipə malikdir. O, formasız mövcud ola bilməz. Çünki forma materiyanın daxili tərəfidir. O, kənardan gətirilə bilməz. Filosof gerçəkliyi qəbul edir, əqlin, idrakın məqsədi hadisələrin dərinliyinə nüfuz etməkdən, təbiətin qanunauyğunluqlarının dərk etməkdən ibarətdir. Onun fikrincə, idrak qavrayışından başlanır, sonra təsəvvür, dərrakə və əql-zəka yaranır, hissi idrak öz-özlüyündə kifayət deyildir, idrak sonsuz prosesdir. Ona görə ki, predmetlər özləri də sonsuzdurlar. Həqiqəti dinlə deyil, fəlsəfi vasitələrlə dərk etmək mümkündür. İdrakın əsas şərtlərindən biri də "şübhə" prinsipidir.

İtalyan fiziki və astronomu, dünya şöhrətli alimlərdən biri də **Qalileo Qalileydir.** O, İtaliyada doğulmuşdur. Qalileo Qaliley təbiətin texniki-riyazi yolla tədqiq olunması metodunun əsasını qoymuşdur. O, kəşf etdiyi teleskopla müəyyən etmişdir ki, Ayın və Günəşin səthi hamar deyildir. O, Yupiterin tək böyük planetin dörd peykini müəyyən etmişdir. "Ulduz Xəbərləri" əsərində sübut etmişdir ki, Kopernikin aləminə heliosetrik mövqelərdən yanaşması düzgündür. Qalileo Qaliley aləmi mexaniki anlayışının mühüm cəhətlərini müəyyən etmiş, ilahi sxolastik dünyagörüşünə qarşı öz etirazını bildirmişdir. Onun fikrincə, dünya sonsuzdur və əbədidir. Dünyanın nə əvvəli var, nə axırı. Alim sübut edirdi ki, gerçəkliyin əsasında mühitlə dəyişməz atomlardan ibarət olan materiya durur. Materiya imkan deyil, real varlığın özüdür. O, dünyanın dərk olunmağını, induksiya ilə deduksiyanın, hissi ilə rasionalın dialektikasını qəbul etmişdi. Lakin onun fəlsəfi görüşlərində də bir sıra məhdud cəhətlər vardır. O, materiyanın dad, rəng, iy kimi keyfiyyətlərinin obyektiv xaraktere malik olduqlarını qəbul etmir, onları subyektiv keyfiyyətlər sayırdı.

Alim mexaniki materializmin nümayəndələri kimi hərəkətin daxili mənbəyini anlaya bilmir, onu birinci təkanverici qüvvədən kənarda təsəvvür etmirdi. Onun fikrincə, gerçəkliyin mərkəzində Allah dururdu. Buna baxmayaraq, onun təlimi fərqli idi. Çünki onun təlimi insan haqqında xristoloji mahiyyətə malik

idi. Bu da o deməkdir ki, ilahi və insani prinsiplər bir-birilə mütləq qovuşur. Ona görə də insan özü də “Allahdır”. İnsan ilahi prinsipinin məhdudlaşdırılmasıdır. O, bu düşüncələri ilə mahiyyət və təzahürün dərk olunmasının dialektikası haqqında ideyaları da inkişaf etdirdi. Onun fəlsəfəsində idrakın predmeti panteistik Allahdır (panteizm- “pan”- bütün, “theos”- Allah sözündəndir. Allahı təbiətlə eyniləşdirən fəlsəfi dünyagörüşdür). Allah təbiətin hissilə qavranılan aləm ilə qırılmaz vəhdətdə mövcuddur. Onun fikrincə, Allahın dərk edilməsi etiqadın, inamın deyil, əqlin, zəkanın işidir. C.Bruno, Y.Byene, Kuzanskinin dialektik təfəkkürünə dair irsdən istifadə etmişlər.

## Yeni dövr fəlsəfəsi

16-cı əsrin sonu 17-ci əsrin başlanğıcından 20-ci əsrə qədər olan dövrü əhatə edir.Yeni Dövr fəlsəfəsinin meydana gəlməsi Avropa ölkələrində iqtisadi və siyasi proseslərin inkişafı ilə əlaqədardır.

Yeni Dövr fəlsəfəsinin inkişafı həmçinin kapitalist istehsal münasibətlərinin təşəkkül tapması,təbiət elmlərinin,həmçinin mexanikanın inkişafı ilə əlaqədardır.Yeni Dövr fəlsəfəsi materializmə daha çox meyillidir.Onun səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

1.Bu dövr fəlsəfəsi təbiət və cəmiyyət hadisələrinə mexaniki, fiziki və metofiziki materialzim mövqeyindən yanaşır.

2.Mexanikanın qanunlarının ən ümumi, universal qanunlar hesab edir.

3.Yeni Dövr fəlsəfəsi elmi əsaslara əsaslanır.

Bu dövr fəlsəfəsi bioloji,sosioloji hadisələri,üzvi və qeyri-üzvi prosesləri mexanikanın qanunları ilə izah etməyə çalışır.

Yeni Dövr fəlsəfəsi metofiziki materializm adlanır,çünki o,gerçəkliyin predmet və hadisələrini bir-birindən təcrid olunmuş şəkildə öyrənir,təbiəti ayrı-ayrı hissələrə bölür,lakin onu bütöv bir şəkildə araşdıra bilmir.

Metofiziki materialistlər materiyanın hərəkətini cismin məkan daxilində yerdəyişməsi kimi başa düşürdülər. Ona görədə onları seyirçi materialistlər adlandırırdılar.Onlar öz vəzifələrini dünyanın dəyişməsini izah etməklə başa

düşür,dünyanın dəyişdirilməsi vəzifəsini qarşıya qoymurdular. Lakin onlar insanın onu əhatə edən gerçəkliyə təsirini nəzərə almırdılar. Yeni Dövr materialist filosofları təbiət hadisələrinin izahında materialist, ictimai həyat hadisələrinin izahında isə idealist mövqedən çıxış edirdilər.Onlar təbiət elmlərinin nailiyyətlərinə və təbiətin eksperimental surətdə öyrənilməsinin tərəfdarı idilər.Bu filosoflar dünyanın maddiliyi və onun dərk olunması haqqında rasional və səmərəli idealar irəli sürürdülər.

Ən məşhur Yeni Dövr materializminin və təcrübi elmin banisi **Frensis Bekondur.** O,öz fəlsəfi fikirlərini "Yeni arqonon", "Yeni Atlantida" əsərlərindən inkişaf etdirir.Bekon Yeni Dövr təcrübi elminin və materialist fəlsəfənin əsasını qoymuşdur.O,idrakın elmi metodunun işlənib hazırlanmasına çalışmış,induktiv metodun banisi hesab olunur.Bekon elmi idrak üçün vahid induktiv metodu əsas hesab edirdi. Həmin metod müşahidə, təhlil, müqayisə və eksperimentdən ibarət idi. İnduktiv metod faktların öyrənilməsi yolu ilə ümumi müddəalar çıxarmağa doğru getməlidir.Bekon materiyanı bütün mövcudatın daimi əsası və ilkin səbəbi hesab edirdi. Bütün şeylərdə atomistik sturuktur axtarırdı.Bekona görə materiya daxili fəallıqla doludur.Bekon materiya haqqında yazırdı:-" Materiyanın bütün cəmiyyəti və onun məcmusu sabit qalır, nə artır, nə azalır". Bekonun İnduktiv metodu təbiətin eksperimental yol ilə öyrənilməsinə gəlmişdir. O,deduksiyanın rolunu 0-a endirmişdir. Bekona görə idrakın əsas məqsədi insanların praktiki fəaliyyətinə kömək etməkdən ibarətdir. Həqiqi biliyi əldə etmək imkanını varlığın varlığın dəqiq inikası ilə əlaqələndirirdi. Çünki,emprizm nəzəriyyəsinin tərəfdarı idi. Onun fikrincə ağıl və nəzəri təfəkkürlə təbiət qanunlarının şeylər və təsəvvürlərin daxili səbəbiyyət əlaqələrini açmaq mümkündür. O ilk dəfə olaraq idrakda hissi və rasional momentlərin vəhdətinin zəruriliyini qarşıya qoymuşdur. Bekon ikili həqiqət tərəfdarı idi,onu fəlsəfəsinə əsasən elmin vəzifəsi təbiət hərəkətlərini,dinin vəzifəsi isə ruhu, o biri dünyanı öyrənməkdən ibarətdir. Bekonun əsərlərində dini fikirlərə də rast gəlmək olur. Məsələn, o deyirdi ki,hər şey Allah tərəfindən baş verir.Dinin həqiqətləri Allahın iradəsini,elmin isə Allahın qüdrət və əzəmətini ifadə edə bilər. Bekonun fikrincə fəlsəfənin predmeti – Təbiət,Allah və insandır.İnsanın həqiqi biliyə çatmasına kabuslar- "idollar" mane olur:

Nəsil kabusları-İnsan (nəsil) mədəniyyəti ilə idrakın dəyişməsi.

Mağara kabusları-İdrak prosesində konkret insanın şəxsiyyətinin təsiri.

Bayar kabusları- Nitqin yanlış,qeyri-dəqiq istifadəsi.

Teatr kabusları- Köhnə fəlsəfənin yeni fikirlərin oyanmasının tətbiqinə yol verməməsi ,belə halda da idrak düz istiqamətə yönəlmir.

**Rene Dekart** - Fransız filosofu və yazıçısı. Rasionalizmin banisidir. Əsərləri: "Metafizik düşüncələr", "Metod haqqında mühakimələr", "Fəlsəfənin əsası".

Dualist filosofdur. Onun fikrincə dünya 2 substansiyadan ibarətdir.Onun biri ruhi,digəri isə substansiyadır. Ruhi substansiyanın əlaməti onun ayrılmaz tərkib hisssəsi olan təfəkkürdür.Maddi substansiyanın əlaməti isə uzununa, eninə və dərinliyinə tutmasıdır. Dekardın fikrincə  insan maddi və ruhi substansiyaların birləşməsindən ibarətdir. Bu substansiyaların əsa əlamətləri təfəkkür və məsafəlilikdir. Qalanları isə ondan törəmədir.Duyğu arzunun ,təxəyyül təfəkkürün törəmələri,fiqur,vəziyyət və forma isə məsafənin törəmələridir.Dekardın fəlsəfəsi iki hissədən ibarətdir:

1.Materialst fizika yəni, təbiət haqqında təlim.

2.İdealist metafizika.

Materialst fizikada Dekart materiya və hərəkət problemlərini araşdırır.Lakin onun fizikasının materializmi qeyri-ardıcıl idi. Həcmi olan və məkanın müəyyən hissəsini tutan hər şeyi Dekart materiya hesab edirdi.Dekart bir mexanist kimi materiyanın keyfiyyətcə  müxtəlifliyini qəbul etmir,kəmiyyətinə diqqət edirdi.Məsələn,rəng kimi obyektiv keyfiyyətləri maddi cisimlərin özlərini keyfiyyət hesab etmirdi. Filosof keyfiyyəti ağrıya bənzədirdi.Dekart yalnız mexaniki hərəkəti qəbul edir və hərəkətin səbəbinin Allah olduğunu sübut etməyə çalışırdı. O,idrakda rasional əsasın mahiyyətini xüsusi qeyd edirdi. Dekartın fikrincə insan yalnız zəkanın köməyi ilə dəqiq və zəruri fikir əldə edə bilər. İnsan zəkası varlığı dərk etmək iqtidarındadır. Yəniki fəlsəfə elm dünyanın real quruluşunu,təbiətin qanunauyğunluğunu kəşf edə bilər.

Rene Dekart dünyanın anlaşılmasını dualistcəsinə həll edirdi. O, sərbəst 2 başlanğıcın:qeyri-maddi (düşünən)substansıyanın və maddi (yer tutan)substansiyanın mövcud olduğunu söyləyirdi. Onun fikrincə hər 2-si paralel mövcuddurlar.Bu məsələləridə metofizika və fizika araşdırır. Metofizika mənəvi substansiyanı və onunla bağlı olan idrak problemlərini və varlığı öyrənir. Fizika isə təbiətin fəlsəfəsini.Dekartın anadangəlmə ideyasının əsasında biliyə idrak və deduksiya vasitəsilə nail olunması fikri durur.Lakin heç bir sübuta ehtiyacı olmayan xüsusi bilik növü mövcudddur.Bu həqiqətlər əzəldən aşkar və doğrudurlar. Bu həqiqətlər (aksiomalar) "fitri ideyalardır",həmişə Allah zəkasında və insan zəkasında mövcuddurlar.Nəsildən-nəsilə keçirlər.Anadangəlmə anlayışlar bunlardır:Allah mövcuddur,Rəqəm mövcuddur,iradə,ruh,sturuktur və s. mövcuddur.

**XVII əsr İngilis fəlsəfəsi.**

Tomas Hobs İngilis fəlsəfəsində materialist fəlsəfənin davamçısıdır. O,nominalizmin klassik nümayəndəsi hesab edilirdi. Onun fikrincə yalnız ayrı-ayrı təkcə şeylər real mövcuddur. O,düşünüb ki,dünya cisimlərin məcmusudur və dünyada qeyri-cismani heç nə yoxdur.Materiya əbədidir,onun təşkil olunduğu ayrı-ayrı cisimlər müvəqqətidir. Meydana gəlir və yox olur.Mexaniki materialistlər kimi Hops materiyaya sırf kəmiyyət xarakteristikası yəni,maddi cisimlər rəng,səs,iy,dad və s. Keyfiyyətlərdən məhrumdur. Çünki onlar subyektiv keyfiyyətlərdir. Hops hərəkəti materiyanın daimi xassəsi hesab edir.Lakin onun mütəlifliyini görə bilmir,hərəkətin yalnız mexaniki formasını edirdi.Hops dünyanın dərk edildiyini inkar etmirdi. O insan biliklərinin mənbəyini obyektiv gerçəklikdə axtarır və söyləyirdi ki, idrak duyğulardan ibarətdir. Lakin Hops duyğularını obyektiv aləmin subyektiv surəti olduğunu görə bilmirdi. Hops idrak prosesində ağlın rolunu şişirdir,duyğuların rolunu kiçildirdi.

**Emprizm və Rasionalizm**

**Emprizm** tərəfdarları idrak əsasında təcrübə olduğunu hesab edən fəlsəfi cərəyandır.Zəkada elə bir şey mövcud deyilki ondan əvvəl təcrübədə (hisslərdə)olmasın. "Bilik qüvvədir".

XVII əsrdə İngiltrədə, sonralar ABŞ-da geniş vüsət alıb. Banisi Frensis Bekondur. Davamçıları isə Tomas Nobles, Con Konk, Con Dyun.

**Rasionalizm**-( lat. Ratio- zəka,ağıl) həm varlığın,həm də idrakın əsasının zəkada olduğunu söyləyən fəlsəfi cərəyandır. Rasionalizm cərəyanının ontoloji cəhətdən əsas xüsusiyyətləri:

1.Varlığın əsasında zəkalı başlanğıcdır.Yəni varlıq zəkalıdır. Rasionalizm idealizmə yaxındır. Çünki ,Platonun təmiz ideyalar təliminə uyğundur.

2.Rasionalizm idealizmə bərabər deyil.Çünki, onun mənası materiya münasibətində ideyaların 2-liliyində deyil.Varlığın ağıllılığındadır.

3.İlahi və başqa ağıllılığa varlığın daxili məntiqinə inam. Materialistlər:(Demokrit,Epikür).

Qnesioloji xüsusiyyət: İdrakın əsası zəkadır.İdrakın əsasında vəhy deyil,bilik və təcrübə durur.

Etik Rasionalizm cərəyanının mahiyyəti isə ondan ibarətdir ki, etikanın ,davranışın əsasında zəka durur.

## Fransız marifçiliyi

Maarifçilik fəlsəfi-siyasi cərəyan olaraq özündə mütərəqqi düşünən siyasətçiləri,filosofları,hüquqşünasları,sənət xadimlərini,təbiətşünasları birləşdirmişdir.Maarifçilik fəlsəfəsinin nümayəndələri Allah,ətraf aləm və insan haqqında formalaşmış təsəvvürlərə yenilik gətirirdi.Maarifçi mütəffəkirlər Fransada 1789-1794-cü illər inqilabını ideoloji cəhətdən hazırlamışdılar.Maarifçiliyin əsas səciyyəvi cəhətini aşağıdakılar təşkil edir:maarifçilər fəlsəfədə deizm tərəfdarı idilər.Deizm Allahın dünyanın yaranmasında ilk səbəb olduğunu qəbul edir,lakin onun bundan sonra ətraf aləmə,insana,tarixin gedişinə və s.qarışmadığını da israr edir;Allah ilə təbiətin eyniləşdirilməsini rədd edirlər.Maarifçiliyin bu istiqamətinin nümayəndələri Volter,Monteskye,Russo olmuşdur.

Maarifçiliyin digər bir qanadını ateist-materialist istiqamət təşkil etmişdir.Bu istiqmətin tərəfdarları Allahın varlığını bütün formalarda inkar edir,təbiətin və insanın mənşəyini təbii-elmi mövqedən izah edirdilər.İdrak nəzəriyyəsində isə üstünlüyü empirizmə verirdilər.Bu fəlsəfi istiqamətin görkəmli nümayəndələri Melye,Lametri,Didro,Helvetsi,Holbax olmuşdur.Bu böyük maarifçilərin hər birinin ümumbəşər mədəniyyətində,fəlsəfəsində dəyərli yerləri vardır.

Fransız maarifçilərinin ən məşhur nümayəndələrindən biri **Volterdir**.Onun yaradıcılığının əsasını maarifçilik ideyasını yaymaq dinə(xurafata) qarşı mübarizə təşkil edir.Onun fikirlərində ziddiyyətlər vardır. Belə ki, bir tərəfdən Nyutonun mexanikasını qəbul edir, digər tərəfdən isə birinci təkanverici qüvvə kimi Allahın mövcudluğunu qəbul edir. Onun fikrincə təbiət əbədi qanunlarla hərəkətə gəlir.Allah təbiətdən ayrılmazdır. Allah xüsusi substansiya deyildir,təbiətin özünə xas olan hərəkət prinsipidir.O Allahla təbiəti eyniləşdirirdi.O insanı ictimai varlıq hesab edirdi.O empirizmi idrakın vahid metodu hesab edirdi və deyirdi ki,yalnız onun vasitəsilə həqiqətə nail olmaq mümkündür.Voltərə görə insan təbiəti təcrübənin köməyi ilə dərk edə bilər.Dekartın anadangəlmə ideyalarına qarşı Lokkun "insan ruhu yayılmamış vərəqdir" tezisini qoymuşdur.O sensualizmi qəbul etmirdi,fəlsəfi əsərlərində insanların bərabərliyi məsələsini irəli sürürdü.Onun dialektik fikirləri:təbiətdə hər şey hərəkətdədir,hər şey təsir edir və əks təsir göstərir.Azadlıqvə zərurət bir-birinə zidd deyil,əksinə ümumi zərurət insan azadlığının müqəddəm şərtidir.Volter hesab edirdi ki,insan istədiyini əldə etdiyi zaman azad ola bilər.

Volterin sitatları:
1.Bir çoxu səhv düşünür,bəziləri heç düşünmür,qalanları düşünənləri pisləyir.
2.Birinci ittiham atılır,ikinci toxunur,üçüncü yaralayır və dördüncü öldürür.
3.Qızlar hiss etməyi,oğlanlar düşünməyi öyrənməkdən daha öncə öyrənirlər.
4.Kasıblıq yox,nifrətdir dözülməz olan.Mən heç nəsiz yaşaya bilərəm,amma bunu kiminsə bilməsini istəmirəm.
5.Yalnız zəiflər cinayət edir –güclü və xoşbəxt insanın cinayət etməyə ehtiyacı yoxdur.
6.Allah olmasaydı onu uydurmaq lazım gələrdi.Volterin əsərləri:"Koramalı məhv edin","Metofizika haqqında traktat","Nyuton fəlsəfəsinin əsasları"

**Jan Jak Russo** –XVIII əsr Fransız maarifçilərindən biridir.Russo mədəniyyət,fəlsəfi ictimai –siyasi fikir tarixinə böyük filosof,sosioloq kimi daxil olmuşdur.Əsərləri:"İnsanlar arasında qeyri-bərabərliyin mənşəyi və əsasları haqqında mülahizə","İctimai müqavilə"," Elm və ya tərbiyə haqqında" Russo dateizm mövqeyindədir və ateizmin düşməni idi.Allahın mövcudluğunu ,onun maddi aləmə təsirini ,həmçinin ruhun ölməzliyini qəbul edirdi.Onun fikirincə təbiət hadisələrinin başlanğıcı ruh və materiyadır ,birinci fəal,ikinci isə qeyri-fəaldır.O idealist filosofdur.Russonun idrak nəzəriyyəsində sensualist meyllər güclü idi.O sübut edirdi ki,təbiət hər şeydən əvvəl hiss üzvlərinin köməyi ilə dərk olunur,biliklərin mənbəyi duyğulardır.Russo azad tərbiyə tərafdarı idi.O uşağın təbiətə müvafiq təbii tərbiyəsini irəli sürmüşdür.Russo deyirdi ki,uşaqlar tərbiyəni 3 mənbədən:təbiət,əşya və insanlardan alır.Təbiət insanın qabiliyyətlərini,hiss

orqanlarını inkişaf etdirmək deməkdir.Əşya və hadisələrlə tərbiyə uşaq şəxsiyyətinə,onu əhatə edən mühitə təsir edir.Russoya görə alınan bilik və vərdişlər insanlar tərəfindən verilən tərbiyəyə daxildir.

Russonun sitatları:
1.Həddindən artıq sevinc çox vaxt gülüş deyil,göz yaşları doğurur.
2.Səbr özü acı,meyvəsi şirindir.
3.Yaxşı ər kar,yaxşı arvad kor olmalıdır.
4.Əgər siz uşaqlıqda dəcəllik hissini öldürsəniz,heç vaxt müdrik insan yetişdirə bilməzsiniz.

**Didro-(1713-1784)** materialist filosof kimi bütün maddi cisimlərin atomlardan,bölünməz və dəyişməz elementlərdən və ya molekullardan ibarət olduğunu söyləyirdi.O materiyanın ilk xassələri sırasına həssaslığı daxil edir.Buna görə onu nilozoist hesab edirdilər.Didro duyğuların rolunu xüsusi qeyd edirdi. O,deyirdi ki,ağlımız hakim,duyğularımız isə şahidlərimizdir.Aqil hakim həmin şahidlər vasitəsilə alınan qeydləri müqayisə edir. Aforizmləri:Hər yeni istək,yeni bir kədər üçün başlanğıcdır.Həyatın sonu kədərli,ortası heç nəyə yaramayan və başlanğıcı isə gülməli olur. Əsərləri:”Fəlsəfi düşüncələr”,”Korların məktubu və gözlülərə nəsihət”.

XVIII əsr fransız materializminin görkəmli nümayəndələrindən biri də **Holbaxdır**.Onun təliminə əsasən,materiya hər şeyin səbəbidir,öz-özlüyündə mövcuddur, əbədi olaraq mövcud olacaqdır və hərəkətdədir.Materiyanın hərəkəti onun mövcudluğunun zəruri nəticəsidir.Hərəkət də materiya kimi əbəbidir,sükunət isə nisbidir.Materiya və onun xassələri tam və vahiddir,o,yeganə substansiyadır.Əşyaların xassələri onların özlərindən əvvəl gələ bilməz,şüur .da materiyadan əvvəl mövcud ola bilməz.Holbaxın fikrincə insan təbiətin bir hissəsi olub,onun qanunlarına tabedir.İdrak nəzəriyyəsində o,sensualistdir,aqnotizmə qarşı çıxmışdır.O səbəbiyyəti mexanikcəsinə başa düşürdü.Təsadüfləri obyektiv mövcudluğunu inkar etmişdir,səbəbləri məlum olmayan hadisələr kimi müəyyən etmişdir.

Əsərləri:”Təbiətin sistemi”,”İfşa edilmiş xristianlıq”,”Sağlam düşüncə”. Fransız burjuasiyasının məşhur ideoloqlarından biridə filosof və publisist Ryer Beyedir.Din və inam onun əsas diqqət mərkəzində olmuşdur.O dini dözümlülüyünün tərəfdarı idi,əxlaqı dindən ayırırdı.İnam ilə ağılın uyğunlaşa bilməsini göstərirdi.O,inamın ağıldan üstün olmasını qəbul edirdi. Jan Melye dini inamı inkar edir və ağılın gücünə inanırdı.”Mənim vəsiyyətim”külliyatıdır.

Fransız materializminin görkəmli nümayəndəsi **Helvetsi** idi(1715-1771). O hissi başlanğıcın fəal tərəfdarı idi.O, bir materialist filosofu kimi biliyin meydana gəlməsi faktının təcrübədən,hissi idrakdan yaranmasını qəbul edirdi.Fəlsəfənin başlanğıc prinsipi kimi təbiətin yaradılması,sonsuzluğu və əbədiliyi fikrini əsas götürürdü və söyləyirdi ki,insanda həmin təbiətin bir hissəsidir.Materiya heç vaxt yaradılmır,məhv edilmir,yalnız özünün mövcudluq formasını dəyişir.O təbiəti konkret hiss edilən cisimlərin birliyi hesab edirdi.O, din əxlaqı tənqid edir və belə hesab edir ki,bu əxlaq insanın yaxşı həyata can atmaq cəhdlərini məhv edir. Əsərləri:"Ruh haqqında","İnsan haqqında" əsərlərində göstərir ki,dünya öz tələbatına görə maddidir,obyektiv surətdə mövcuddur.

## Klassik Alman fəlsəfəsi

Klassik Alman fəlsəfəsi qısa bir dövrü əhatə edir.Bu dövr XVIII əsrin 80-ci illərindən başlanır XIX əsrin 70-ci illərində Feyrbaxın ölümü ilə başa çatır.Bu dövr fəlsəfəsi,yeni dövr fəlsəfəsinin zirvəsini təşkil edir.İqtisadi və mədəni şəraitlə bağlı idi.Başqa ölkələrdə olunan kəşflər burada məlum idi.

Klassik Alman fəlsəfəsinin yeni müdəaları aşağıdakılar idi:

- Subyektin dərk etmə fəallığı ideyası(Kant)
- Əksliklərin vəhdəti prinsipi(Şellinq,Hegel)
- Dialektikanın prinsip və kateqoriyalarının sistemliliyi(Hegel)
- Şəxsiyyətin əxlaqi və hüquqi muxtariyyətinin əsaslandırılması(Kant)
- Dünyanın vəhdəti,subyekt və obyektin oxşarlığ ideyası(Şellinq)
- Tarixi qanunauyğunluq ideyası(Herder,Hegel)
- İnsan biliyinin və fəaliyyətinin bütün sahələrinə verilmiş tarixilik prinsipi(Hegel)
- İnsan mahiyyətinin özgəninkiləşdirilməsi prosesi kimi dinin şərhi(Feyrbax)

Alman klasiklərinin fəlsəfi sitemini aşağıdakı əsaslar birləşdirir :

Mədəniyyətin tənqidi refleksiyası kimi fəlsəfənin rolu və vəzivələri anlayışının oxşarlığı :

- Fəlsəfənin ciddi sistematik elm kimi ontologiya, qnesalogiya, antropologiya, hüquq, əxlaq, din və s. fəlsəfəsinə ciddi ayrılması əsasında qurulmasına inam
- Sistemli fəlsəfi biliklərin-rasionalizm,dialektik tarixilik qurulmasının ümumi metodoloji prinsipləri

- Humanist dəyərlərə-şəxsiyyətin azadlığı və ləyaqəti,vətəndaş hüququi və s. diqqətin cəmlənməsi

Klassik Alman fəlsəfəsinin məşhur nümayəndələri ~ İoham Qotfrid Herder,Kant,Fixte,Şellinq,Hegel və Feyrbax olmuşdur.

**İ. Kant-** 1724-cü ildə Alamaniyada kasın yəhərçi ailəsində anadan olmuşdur.Genizberq universitetinin fəlsəfə fakültəsini bitirmişdir.

Kantın fəlsəfi yaradıcılığı 2 yerə bölünür.

- 1-ci dövr- tənqidə qədərki dövr 1747-ci il
- 2-ci dövr- tənqid dövrü 1770-ci illərin əvvəli

1-ci dövrdə təbiətşünaslığa həsr edilmiş əsərlər əsas yer tutur.Kant fəlsəfəsinin substansional materialist həlli bu dövrdə əsas idi.Məsələn,Günəş sisteminin yaranması haqqında həm idealist,həm də materialist fikirlərin olması.Kanta görə Günəş  sitemi ilk dumanlıqlardan təbii yolla yaranıb və heç bir ilk təkana möhtac olmayıb.Kant dialektikanın bərpaçısıdır.İdialist dialektika öz başlanğıcını Kantdan götürmüşdür.

Kant qnesalogiyani əsas fəlsəfə etdi.Onun predmeti isə subyektin idraki fəaliyyəti,insan əqlinin qanunları və onların hüdüdlarıninn müəyyən edilməsi hesab olunurdu.

- 2-ci dövrdə Kant qnesoloji problemlərl,etika,estetika ilə məşğul olmuşdur.

Kantın idrak təlimində əsas yerı insan,onun fəaliyyəti,estetik və dünyagörüşü durumlarının həlli tutur.Onun dediyi kimi insan özündən soruşmalıdır `Mən nəyi bilirəm`.Kant xarici aləmdəki predmetləri dərk edilməz adlandırır və onların mahiyyətini insan heç vaxt dərk edə bilməz.Biz onların zahiri görüntülərini duyğularımızla qəbul edirik.Kantın fikrincə şüur yanlız özünün yaratdığı şeyləri əks etdirə bilər.Subyektdən aslı olmayaraq mövcud olan şeylər idrakın predmeti ola bilməz,şünkionlar `noume`llərdir. Yunanca noumel tanınmaz, dərk edilməz deməkdir.

Kanta görə dünya dərkolunmazdır və bunu da o insan idrakının məhdudluğu ilə əlaqələndirirdi. Kant antinomiyalar ziddiyyətlər haqqında bir sıra fikirlər irəli sürürdü.

1)Dünya zamanda və məkanda sonludur.Dünya məkanda və zamanda sonsuzdur.

2)Dünyada hər şey sadədir və bölünməzdir.Dünyada hər şey mürəkkəbdir və bölünəndir.

3)Dünyada azadlıq mövcuddur,əksinə hər şey təbiətin qanunları ilə baş verir,yəni zəruridir.

4)İlkin səbəb kimi Allah mövcuddur.Dünyada heç bir ilkin səbəb mövcud deyildir.

İnsan əqli bu antinomiyaları həll edə bilməz.Buna görə də heç bir zaman `özündə şeylər` aləmini də dərk edə bilməyəcəkdir.

Kantın `təzahülər` haqqında təlimində göstərir ki,təzahürlər bu dünyaya aiddir.`Özündə şeylər` transsendedlər və o dünyaya məxsusdur.Ona görədə təbiət təzahürlərin,yəni təsəvvürlərin məcmusudur.

Kant fəlsəfəsində əxlaq fəlsəfəsi və etikası xüsusi yer tutur.Bu mövzuya dair bir sıra əsəsrlər yazmışdır... Əxlaq metafizikasının əsasları , Əxlaq metafizikası və s. Bu əsərlərdə Kant iradənin tövsiyələrini müəyyənləşdirməyə çalışır.Onun fikrincə tövsiyələr bizə davranış qaydalarını aşılayır,lakin necə davranmağa məcbur etmir.Bu tövsiyələri Kant `imperativlər` adlandırıb. 2 cür imperativ vardır....

- 1)Hipotetik və şərti imperativ

- 2)Qəti imperativ

Əgər imperativ tərəfindən tövsiyə edilən davranış qaydaları bir vasitə kimi, hər hansı adam üçün sərfəlidirsə,deməli bu şərtdir.Əgər davranış qaydası öz-özündə yaxşıdırsa və ya iradə üçün zəruridirsə həmin iradənin özü əqlə zəkaya uyğundur.Deməli qəti imperativdir.Bu imperativ insanların şüurunda əbədidir.Qəti imperativ ən ümumi əxlaq qanunudur.Bu qanuna əsasən cəmiyyətdə hər bir insan elə davranmalıdır ki,onun hərəkəti ümumi qanunvericiliyin əsası və rəhbər başlanğıcı olsun.Bu qanun həm də azad iradənin, ruhun ölməzliyi və Allah kimi özündə şeylərin qəbul edilməsi ilə əlaqədardır.

Qəti imperativ apriordur.Əxlaq qanunu mütləq zəruridir:`Yalan danışma` nəsihəti,məsələn,təkcə adamlar üçün gərçəklik deyil,ümumiyyətlə ağıllı canlıların hamısı üçün vacibdir.

Bir qəti imperativ var ki, aşağıdakı kimidir:

`Elə hərəkət et ki, sənin hərəkətin əxlaq qaydası ümumi qanun ola bilsin`.

Kant əxlaqa muxtariyyət verir,onun dindən asılılığının əleyhinə çıxırdı.O deyirdi ki, “Allaha inamın özü əxlaqla bağlıdır.Allah inamı da əxlaq tələb edir”.

**Georg Vilhelm Fridrix Hegel** - Alman obyektiv idealizm fəlsəfəsinin ən böyük nümayəndəsidir.O,Ştutqartda yüksək rütbəli dövlət məmuru ailəsində anadan olub.Hegelin əsərləri: “Məntiq elmi”, “Fəlsəfə elmləri ensiklopediyası”, “Hüquq fəlsəfəsi”, “Təbiət fəlsəfəsi” və s.

Hegel fəlsəfəsinin əsas mahiyyəti insan təfəkkürü və hərəkəti nəticələrinin son qəti xarakteri haqqında hər cür təsəvvürə birdəfəlik son qoydu.Hegele görə həqiqət əzbərlənməsi lazım gələn dəyişməz hazır müddəalar yığım şəklində təsəvvür etmirdi;indi həqiqət idrak prosesini özündən,elmin uzun tarixi inkişafından ibarət idi ki,burada elmi biliyin aşağı pillələrindən getdikcə daha yüksək pillələrinə qalxır,lakin heç vaxt elə bir nöqtəyə çatmır ki,burada mütləq həqiqət deyilən şeyi taparaq,daha irəli gedə bilməsi və elm üçün ancaq əllərini oyub tapdığı bu mütləq həqiqəti seyr etməkdən başqa bir iş qalmasın.İdrak heç zaman bəşəriyyətin bir mükəmməl və ideal vəziyyətində qəti başa çatmayacaqdır,mükəmməl dövlət,mükəmməl cəmiyyət ancaq xəyaldır.

Hegelə görə dünyanın əsasında təkcə deyil,bütöv,tam durur və onlardan başqa real heç nə yoxdur.O,bütövü mürəkkəb sistem sayırdı.Məkan və zaman real deyil,ancaq bütövün tərəfləridir.Hegelin fikrincə inkişaf səviyyəsində əvvəllər gerçək olan hər şey qeyri-gerçək olur,öz zəruriliyini,yaşamaq hüququnu itirir.Ölüb getməkdə olan gerçəkliyin yerini yeni,yaşamağa qadir gerçəklik itirir.

Hegelin dialektik fikirləri də çox önəmlidir.Belə ki,o,gerçəkliyin öyrənilməsinə dialektikçəsinə yanaşmanın mexanizmini işləyib hazırladı.Fəlsəfə tarixində ilk dəfə Hegel dialektik dünya görüşü,dialektik metod,dialektik məntiq sisteminin yaradılmasına cəhd göstərirdi.Hegel əsasən, metofizikaya zidd dialektik təfəkkür tərzinin əsas prinsiplərini işləyib hazırlamaq istəyirdi.O,dialektikanın əsas qanunları və kateqoriyalarını idealist əsaslar üzərində işləyib hazırladı.Onun ən böyük xidməti,bütün təbii,tarixi,mənəvi aləmi proses halında,yəni daim hərəkət,dəyişmə,bir şəkildən başqa şəklə keçmə və inkişaf halında olan bir proses kimi göstərmiş,bu hərəkət və inkişafın daxili rabitəsini aşkara çıxarmağa çalışmışdır.

Hegel göstərirdi ki,mövcudatın ilkin mənbəyi,ilkin səbəbi "mütləq ideya"dır və bu "mütləq ideya" insandan kənarda və ondan asılı olmayaraq mövcuddur.O,bütün təbiət və cəmiyyət hadisələrini yaradır və müəyyən edir.Buna görə də onun fəlsəfəsi mütləq idealizm adlanır.

Hegel fəlsəfəsinin çıxış nöqtəsi varlıq və təfəkkürün bir-birinə uyğun gəlməsi ideyasıdır.Onun fikrincə təfəkkür bütün şeylərin daxili mahiyyətini təşkil edir.Təfəkkürün məzmunu yalnız ona məxsusdur,xaricdən alınmasıdır,bəlkə də özü tərindən yaradılmışdır.Buna görə də Hegel fəlsəfəsində idrak bizdən xaricdə,təfəkkürdən kənarda mövcud olanın aşkar edilməsi deyildir.

Hegel - müəllim. Hegel fəlsəfəsinin əsas ideyaları aşağıdakılardır

1.Varlıqla təfəkkürüm eyniləşdirilməsi

2. Bütün mövcudiyyətin maddi dünyanın ilk səbəbi olan və şüurdan asılı olmayan mütləq ideya haqqında nəzəriyyəni irəli sürmüş və bununla da həmin dövrdə qərbdə geniş yayılmış obyektiv idealizm nəzəriyyəsini əsaslandırmışdır.

3. Hegelin ən böyük fəlsəfə elmi qarşısında xidməti dialektikanın yəni ümumi inkişaf onun əsas qanunları və prinsipləri haqqında nəzəriyyəni işləyib hazırlamışdır.

**Lüdviq Feyerbax (1804-1872)** - Məşhur hüquqşünas ailəsində anadan olub.Feyerbax-metofizik materializmin nümayəndəsidir.O,idealizmi,dini tənqid edirdi.Onun materializmi metafizik materializmin,antiopoloji materializmin xüsusi növü idi.Feyerbax şüurun materiyaya,ruhun təbiətə münasibəti məsələsini materialistcəsinə həll etmişdir.O,əsasən, insan probleminin həllinə çalışmışdır.Feyerbax insanı təbii,bioloji varlıq kimi götürürdü və insan bədəninin 1-ci,şüurun 2-ci sübut edərək,insanın maddi və mənəvinin təcəssümü olduğunu əsaslandırmağa çalışırdı.O,belə bir nəticəyə gəlmişdir ki,təfəkkürün varlığa münasibəti insanın mahiyyəti haqqında məsələdir.Çünki,yalnız insan düşünür.Feyerbaxın fəlsəfəsi antropologiyanın əsasını təbiət barəsində materialist nəzəriyyə təşkil edir.Onun fikrincə təbiət yeganə reallıqdır,insan isə onun ən yüksək məhsulu,ifadəsi və yekunudur.

Təbiət insanda və onun sayəsində özünü hiss edir,özünü dərk edir,özü haqqında düşünür.İdrak nəzəriyyəsində Feyerbax sensualistdir.Feyerbaxa görə biz reallığı hiss üzvlərimiz vasitəsilə qavrayırıq,çünki varlıq hisslərin məhəbbətindən,düşüncəsindən ibarətdir.

Feyerbax fəlsəfəsinə əsasən obyekt anlayışı insan ünsiyyətinin təcrübəsində formalaşır,ona görə də insan üçün 1-ci obyekt digər insandır,yəni "Sən"dir.

Məhəbbət yoxdursa,həqiqət də yoxdur.O,dinə qarşı idi,dinj məhəbbəti real hesab etmirdi.Feyerbax seyrçi materialistdir,belə ki,o fəlsəfənin vəzifələrini yalnız dünyanın dərk edilməsi ilə məhdudlaşdırırdı,dünyanı dəyişmək fikri yox idi.Fəlsəfənin ən ümdə vəzifəsi şeylər haqqında olduğu kimi düşünmək və onların mahiyyətini olduğu kimi dərk etməkdən ibarətdir. Feyerbax Allahın mövcud olmadığı dinin yaranmasını arzulayırdı.

**Marksizm fəlsəfəsi** - formalaşması XIX əsrin 40-cı illərinə təsadüf edir. Elmi-fəlsəfi, ictimai - siyasi fikir tarixində elmi kommunizm nəzəriyyəsinin, dialektik materializmin baniləri K. Marks, F. Engels hesab edilirlər.

Onlar yaratdıqları fəlsəfəni "yeni fəlsəfə", "yeni materializm" adlandırırdılar.

Marks və Engels ilk dəfə olaraq idealist baxışlardan təbiət və tarixin materialist anlayışına, inqilabi demokratizmdən kommunizm nəzəriyyəsinə qədər ziddiyyətli siyasi inkişaf yolu keçmişlər. Onlar materialist dialektikanı işləyib hazırladılar.

Marksist fəlsəfənin əsasında materiya kateqoriyası durur. Dialekt materializmə görə varlıq biçimləri zamandan, məkandan, hərəkətdən gəlir. Yəni bütün cisimlər məkan biçimindədirlər. Onlar deyirdilər ki, hər cisim özü nədəsə yerləşib və özündə nələrisə yerləşdirib. Yəni materiyada nəsnə üçün, nəsnədə də materiyanın başqa nəsnələri üçün yer, məkan var. Məkan en, hündürlük, uzunluq deməkdir. Maddi olan məkandan kənar ola bilməz. Yəni cisim məkansız deyil.

Dialektik materializmə görə olmaq məkanda, zamanda, hərəkətdə olmaqdır. Onlara görə Tanrı da ola bilməz, çünki o, laməkandır. Məkan, zaman və hərəkət bir-birilə sıx bağlıdırlar. Hərəkət ya eninə, ya uzununa, ya da hündürlüyə doğru ola bilər. Deməli məkanda hərəkət şərtidir, lakin düşüncə idealdır, onun hərəkəti məkan daxilində deyil. Zaman hərəkətin davamlılıq ölçüsüdür.

Marksist fəlsəfənin materializmi ondan ibarətdir ki, şüurda, düşüncədə, onların hamısının başlanğıcı materiyadaki dəyişkənliklərdən, hadisələrdən asılıdır. Ümumi halda isə Marksizm materializmi ondan ibarətdir ki, cəmiyyətin mənəviyyatında, fəlsəfəsində, incəsənətində, siyasətində olan bütün nailiyyətlərin, dəyişmələrin səbəbini əsasən maddi güclərin bir-birilə qarşılıqlı əlaqələrin nəticəsindən əldə edilir. Marksizm fəlsəfəsində praktika anlayışı çox mühüm əhəmiyyətə malikdir. Marksa görə, idrakın həqiqiliyi sayəsində öz ifadəsini tapır. İnsan praktika sayəsində nəyin səhv, nəyin düz olduğunu anlayır.

Marksist fəlsəfəyə görə insan sosial münasibətlərin məcmusudur. Məntiqi cəhətdən analiz etdikdə deyər bilərik ki, insan psixologiyası hər şeydən əvvəl ondan kənardakıların insanın içində görünməsidir. Yəni insanın şüuru uşaqlıqda gördükləri, eşitdikləri obrazların yığımıdır. Məsələn, Marksizmə görə hər hansı sinfin içində boya-başa çatmış insan həmin sinfin psixologiyasını, şüurunu alır və onun şəxsiyyəti bu alınanlar əsasında formalaşır. Marksist fəlsəfəsində azadlıq problemi də önəmlidir. Bu fəlsəfəyə görə azadlıq dərk olunmuş zərurətdir, gerçəkdir. Marksizmə görə azadlıq anlayışında insan özündən bir şey istənilir. "Bil və tabe ol, tabe olduğun üçün çalış, vuruş".

**Fridrix Engels -** 1820 - ci ildə Almaniyanın Barmen şəhərində varlı fabrikant ailəsində anadan olub. 1895-ci ildə avqustun 5-də vəfat edib, yandırılıb külü İngiltərənin İstbarın şəhəri yaxınlığında dənizə batırılmışdı və orada abidə ucaldılıb.

Engelsin "Anti Dürinq", "Təbiətin dialektikası" və başqa əsərləri dialektik materializm fəlsəfəsinin əsaslı surətdə formalaşmasında mühüm rol oynamışdır.

Engels və Marksın yaratdıqları fəlsəfənin istiqamətləri öz vəzifələri kimi gerçəkliyin tədqiqi, təbiət qanunlarının kəşfi, cəmiyyətdə baş verən hadisələrin anlaşılması və izahı problemlərini görürdülər. Məhz marksizmin dialektik materializm fəlsəfəsi yaradılarkən bir çox ümumiləşmələr aparmışlar. Mark və Engels öz fəlsəfi təlimlərini yaradarkən fəlsəfə materialist təlimlərdən, antik dövr naturfəlsəfədən, yeni dövr filosofu Lonnun, fransız materiyanın ideyasından istifadə ediblər.

Marks və Engels fəlsəfi fikirlərini Kopernikin, Nyutonun, Keplerin təbiətşünaslıqda etdikləri kəşflərə əsaslanaraq yaratdılar.

Bir sıra elmlərin problemlərinin öyrənilməsi və fəlsəfi baxımdan ümumiləşdirilməsi zamanı 3 böyük elmi kəşf əsas götürülərək marksist fəlsəfə yaradılıb:

1)enerjinin itməməsi və çevrilməsi qanunu

2)canlıların hüceyrəvi quruluşa malik olmasının elmi olaraq sübuta yetirilməsi

3)Darvinizm təkamül təliminin yaradılması.

Bu fəlsəfənin əsasını proletariat hərəkatı sosialist inqilabına və sosializmin qələbəsi üçün əsas şərt olan proletariat diktaturasının qurulmasıdır.

Marksizm fəlsəfəsinin nəzəri qaynaqları aşağıdakılardır:

1)Alman klassik fəlsəfəsi Hegelin idealist dialektikası və Feyerbaxın antropoloji materializmi

2)İngilis klassik iqtisadi, xüsusən A.Smit və D.Rikardanın təlimi

3)19-xu yüzilliyin əvvəllərindəki utopik sosializm təlimi Şarl Furye, Siman.

Marksist fəlsəfənin əsas əlamətləri:

1)tarixin materialist anlayışı

2) dialektika ilə vəhdətdə olan ardıcıl materializm

3) fəlsəfənin dini əvəz etməsi və kütlələrin əsas silahına çevrilməsi

4) fəlsəfənin partiyalılığı

5) marksist fəlsəfənin inqilabi yönümlü olması

6)marksist fəlsəfənin yaradıcı xarakterli olması.

Onlar aləmi fəlsəfi, şüurlu etmək məqsədini qarşıya qoyurlar və bununla da dünyaya nüfuz etmək istəyirdilər.

Engels qeyd edirdi ki, onların fəlsəfəsi ehkam deyil, hərəkət üçün rəhbərlikdir.

Marksizm fəlsəfəsinin strukturları:

1)obyektiv dialektika

2)idrak nəzəriyyəsi və yaxud da qneseologiya

3)dialektik materialist məntiq

4)dialektik materialist metodologiya

Bunlar hamısı bir yerdə dialektik materializm adlanır.

**Karl Marks** - Marksizm fəlsəfəsinin banilərindən ən görkəmli ictimai-siyasi xadim Karl Marksdır. 1818-ci ildə mayın 5-də Prussiyanın Tir şəhərində vəkil ailəsində anadan olub. O, qarşısına kommunizmi fəlsəfi cəhətdən əsaslandırmaq məqsədini qoymuşdur və Feyerbaxın antropoloji materializminə əsaslanmışdır.

K.Marks "Kapital" əsərinin I cildində özünün dialektik metodunun Hegelinkindən fərqli olmasını göstərmişdir. Belə ki, onun fikrincə ideya insanın başın köçüb orada yeni şəkil almış maddi varlıqdan başqa bir şey deyildir.

Marksizm fəlsəfəsində əsas məqsəd xüsusi mülkiyyət cəmiyyətində insanın özgələşməsi ideyası və gələcək kommunist cəmiyyətində həmin özgələşmənin aradan qaldırılması olmuşdur. Marksa görə özgələşmə insanın fəaliyyətinin müstəqil qüvvəyə çevirərək onun üzərində ağalıq etməsini səciyyələndirən sosial prosesdir. O, özgələşmə dedikdə ilk növbədə əməyin özgələşməsinin mahiyyətini göstərir. Özgələşmiş əmək nə fiziki, nə də mənəvi zövq vermir, çünki bu əmək adamın özünə deyil, sahibinə sərf olunur. Həmin əməyin nəticəsi də işçiyə məxsus deyil və nəticədə əməyin özü də özgədir, yaddır.

Demək, birincisi əmək işçi üçün həyatın özü deyil, hayatın vasitəsidir. İkincisi işçi üçün seçim yoxdur. Çünki o, yaşamaq üçün işləməlidir, tələbatın ödəməsi vasitəsidir. Bu səbəbdən də insan özünün həyati reallığını əməkdən deyil, əməkdən kənarda axtarır. Üçüncüsü özgələşmiş əmək insanı mexanizmə çevirir. Belə əməklə məşğul olan insan azad və məsuliyyətli ola bilməz və istehsalın quluna çevrilir. Belə insanlar arasındakı münasibətlər düşmənçilikdir. Marksa görə əməyin özgələşməsi xüsusi mülkiyyətlə bağlıdır.

Marks ictimai əməyi insanın günəşi adlandırırdı və göstərirdi ki, əmək bölgüsü insanların birinin digəri üçün işləməsini təmin edir. Yəni hər kəs öz əməyinin nəticəsini mübadilə etməklə həyatını davam etdirir. Bir adamın əməyi zahirən çox fərdi görünür, əslində isə o, ictimai əməyi təmsil edir.

Marks ədalətlilik tərəfdarı olmuşdur. O, deyirdi ki, hər kəs əməyinə görə ictimai məhsulun bölgüsündə iştirak etməlidir. Bunu isə sosializm cəmiyyətinin edə bilər. Sosialist inqilabı labüddür və yetişib. Lakin bu inqilab sui-qəsd kimi baş verərsə axırı çox faciəli olacaq.

Marks əsrlərində günəmuzd, mülkiyyətsizləşmə, mənfəətçilik, əlavə dəyər, siniflərarası mübarizə fikirlərini inkişaf etdirdi. Ona görə, siniflərarası mübarizə proletar diktatorluğu ilə nəticələnəcək və sonra siniflər yox olacaq. Ancaq o, inqilabı İngiltərədə gözləyərkən Rusiyada oldu.

Marksən şüur haqında fikirləri maraqlıdır. Belə ki, o göstərirdi şüur dünyanı müəyyən etmir, dünya hadisələrini qazanır. Əksinə varlıq şüuru müəyyən edir, şüur dərk edilmiş varlıqdır. Varlıq dedikdə isə burjua cəmiyyətində insanların real həyat şəraitini başa düşürdü və hər şeyin maddi uğurlara tabe edildiyi qəribə bir cəmiyyətdir. Şüur həyatın maddi formaları ilə determinə edilmişdir. Marks üçün insan iqtisadi münasibətlərlə müəyyən edilir. Maddi üçün şərt olur, insanların varlığını onlarında şüurunu müəyyən edir. Marksa görə kapital insan fəaliyyətinin məqsədi olur, iqtisadi münasibətlər həlledici qüvvəyə çevrilir.

Marks "Kapital" əsərində ictimai - iqtisadi formasiyanın meydana gəlməsi, hərəkəti və inkişafı halında göstərirdi və müəyyən etdi ki, onun daxilində məhsuldar qüvvələrlə istehsal münasibətləri arasında ziddiyətlər necə inkişaf edir, istehsal münasibətləri zəminində, müvafiq siyasi üstqurum necə meydana gəlir, müəyyən ideyalar, əxlaq, məişət və ailə münasibətləri necə meydana çıxır. "Kapital" əsərinin yazılması sayəsində tarixi materializm hərtərəfli əsaslandırılmış elmi-sosioloji nəzəriyyə oldu.

Marksın xidməti kimi 3 cəhəti göstərmək olar:

1)kapitalizmin nöqsanlarının istedadlı tənqidi

2)praktika problemlərinin araşdırılması

3)ictimai olanın təbiətinin problemlərinin qoyuluşu.

## XX əsr fəlsəfəsi

XX əsrin fəlsəfi fikirlərinin inkişafında başlıca cəhət rəylərin pluralizminin çoxsaylı məktəb və cərəyanların mövcudluğudur. Həmin dövrdə təbiətşünaslığın nailiyyətlərində fizika, kimya və biologiyanın uğurlarından, fəlsəfi konsepsiyaların yaradılmasında uğurla istifadə olunurdu.

XX əsr fəlsəfəsində varlıq haqqında təsəvvürlər daha da inkişaf etdirilir, materiyanın quruluşuna daxil olur, insanın mövcudluğunu daha aydın dərk etməyə çalışır, elmi təhlil və sosial praktikanın nəticələrini birləşdirərək, ictimai inkişaf problemlərini həll etməyə çalışırdılar. Lakin elmin, texnikanın inkişafına baxmayaraq, fəlsəfə dini mövzuların inkişafından kənarda qala bilmirdi. Həmin dövrdə din fəlsəfi təlilin obyekti rolunda çıxış edir, filosofluğun özülünü təşkil edirdi ki, təmiz, saf fəlsəfə yaratmaq cəhdləri uğursuzluq təşkil edirdi.

XX əsr fəlsəfəsi bütün sahələrdə böhranlar əsridir. Həmin dövrdə baş verən sosial çevrilişlər həyatın ayrılmaz əlamətinə çevrilir, cəmiyyətin düşdüyü iqtisadi böhranlar çox vaxt öz həllini antihumanizm formalarında tapırdı. Bununla yanaşı, XX əsr fəlsəfəsində bir sıra ciddi dəyişikliklər baş verdi ki, ən yeni fəlsəfə irsən mənimsədiyi naturalist, metgizin və subyektiv zəmindən imtinaya cəhd göstərirdi. XX əsr filosofları A.Berkson, E.Husserl, Z.Freyd, B.Russel, L.Vitgenşteyn, K.Yaspers, M.Haydiger, Z.P.Sartr və başqaları özlərini əsərləri ilə klassik fəlsəfə çərçivəsindən xeyli kənara çıxan yeni cərəyanların meydana gəlməsinə imkan yaratdılar: Fenomenalogiya, Herminejtika, Eksiztensiolizm, Posivitizm, Neo-Posivitizm, Analitik fəlsəfə, Pos-Modernizm və s.

XX əsr elmi, texniki, inqilabi nəaliyyətlər əsridir və bu bəzən xeyirdən çox səri doğurdan mənbə kimi qiymətləndirilir. Belə ki, bütün sahələrdə: demoqrafik, ekoloji, sosial, mədəni, siyasi sahələrdə böhranlar əsri kimi qiymətləndirilir.

**Həyat fəlsəfəsi. Fridrix Nitsşenin** "Həyat fəlsəfəsi" nin əsasında insan və onun həyatının problemləri olan bir sıra müasir qərb fəlsəfəsi konsepsiyalarının - fenomenologiyanın, ekzistensializmin, praqmatizmin və s. sələfi olub

Nitsşenin fikrincə fəlsəfənin məqsədi insanın həyatda özünü gerçəkləşdirməyinə ətraf aləmə uyğunlaşmasına maksimal dərəcədə kömək etməkdir.

Həyat - bu fəlsəfənin əsas anlayışıdır. Dünya onu öyrənən insan üçün yeganə mövcud varlıqdır. İradə həm həyatın, həm də ətraf dünyanın əsasına qoyulub, həyatı yaşamaq iradəsi, insanın daxilində olan iradə. İdarə olunmayan qeyri - şüurlu iradə, böyüklər həvəslər, şövqlər, insanda hakimiyyətə cəhd vardır. Nitsşeyə görə hər bir insan dövlət, öz "mənliyi" nin xarici dünyada genişlənməsinə, "mənliyin" ekspansiyasına şüurlu və ya qeyri - şüurlu səy göstərir.

**Şopenhauerin** fəlsəfəsinin əsasında Hegelin dialektikasına və tarixilik prinsiplərinə qarşı mövqe və kantçılığa və platonizmə qayıdış durur. Onun bu fikirləri çoxları tərəfindən qəbul edilmədi, lakin qeyri klassik idealizm fəlsəfənin və pozitivizmin inkişafında böyük rol oynadı. Alim "Aləm iradə və təsəvvür kimi" əsərində məntiqin kafi əsas qanununu ifadə edir. Bu qanunda əsl fəlsəfə və obyektin, nə də subyektin, yalnız şüurun faktı olan təsəvvürün nəticəsi olmalıdır. Onun fikrincə obyektiv gerçəklik və öyrənən subyekt yox, təsəvvürlərlə obyektin təsəvvürlərinə və subyektin təsəvvürlərinə bölünürlər. Şopenhauerə görə ətraf dünyada hər şeyi təyin edən əsas hərəkətverici qüvvə ideyasıdır. Mövcud olan hər şeyi təyin edə biləcək və ona təsir göstərə biləcək ideal qüvvə, bütün varlığın kökü, mütləq başlanğıcı iradədir. İradə dünyanın əsasında olan bir ali kosmik prinsipdir, o şüurun əsasında olduqda şeylərin ümumi mahiyyətidir. O, bu fikirlərində Kantın nəzəriyyəsinə istinad edir, bu nəzəriyyəyə əsasən şüurda yalnız şeylərin təsəvvürləri inikas olunur, onların daxili mahiyyəti ilə həll olunmamış qalır ("öz-özünə şey)

Şopenhauerin fikrincə insan taleyinin azadlığı xoşbəxtlik, zəruriyyət problemlərinə baxışı pessimisdir. O, insanın və onun şüurunun əsasına iradəni qoyur. O, inanır ki, insan taleyinə, təbiətə hökm edə bilsin.

Şopenhauerə görə ətraf dünya insan şüurunda öz əksini tapan təsəvvürlər dünyasıdır. Dünyanın, onun şeylərinin və hadisələrinin mahiyyəti iradədir. ("öz-özünə şey deyil") Hadisələr aləmi və mahiyyət aləmi təsəvvürlər aləmi və iradə aləmidir.

İnsanın iradəsi onun əməllərini şərtləndirdiyi kimi bütün dünyada işləyən ümumi iradə, eləcə də şeylərin və hadisələrin iradəsi dünyada xarici hadisələri, şeylərin hərəkətini, şeylərin yaranmasını oyadır.

İradə yalnız canlı orqanizmlərə məxsus deyil, "qeyri şüuri yatan iradə" şəklində o həm də cansız təbiətə məxsusdur.

Mahiyyətinə görə ətraf dünya iradənin gerçəkləşməsidir.

**Neotomizm.** XX əsr fəlsəfəsinin əsas cərəyanlarından biri də Neotomizmdir. Neotomizm müasir ilahiyyat fəlsəfəsidir. Onun əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir: ilahiyyat fəlsəfəsinin insana yaxın olması; Bir sıra doğmalardan azad olması; Sosial ahəngə, əxlaqa, xalqlar arası sülhə daha çox diqqət verməyə başlaması. Onun əsas prinsipi Akvinalı Fomanın inamın və zəkanın harmoniyası haqqında təlimidir. Neotomizm cərəyanının nümayəndələri materiya və ideya, qnostisizm və aqnostisizm, empirik və rasional idrak arasındakı ziddiyyətlərdən uzaqlaşmaqdır. Onlarln məqsədləri katolisizmin həqiqiliyini sübuta yetirmək,

müasir dövrə uyğunlaşdırmaq və adi insanlara yaxınlaşdırmaq. Neotomistlərin ideyalarının əsasında ətraf dünyanın Allah tərəfindən yaradılması, vəhylər vasitəsilə Allah haqqında məlumatın verilməsi, mahiyyət və mövcudluğun ayrılması və onların Allahda vəhdəti, insanın Allaha bənzəməsi, insanın material və mənəvi substansiyanın vəhdəti olması. Ruhani filosofların fikrincə bu cərəyan müasir elmin dayağıdır. O, əbədi həqiqətlər haqqında təlimdir. Neotomizm 3 tarixi mərhələdən keçib:

1)1879-cu ildən 1914-cüilədək. Bu dövrdə Neotomizm özünütəbliğ vasitələri yaradır, kadrlar hazırlanması üçün ciddi addımlar atır. Həmin dövrdə Fransa Akademiyası Vatikanda, Paris, Milan və başqa şəhərlərdə katolik üniversitetləri açılırdı. Mətbu orqanları fəaliyyət göstərirdilər.

2)1914-cü ildən 2ci dünya müharibəsinə qədər.

**Pozivitizm.** Pozitivizm XX əsrin 30-40-cı içlərində yaranıb markizm, neopozivitizm, postpozivitizm kimi böyük təkamül yolu keçib

Onun banisi Sen Simonun tələbəsi O. Kontdur. Pozitivizmin yaranmasında Con Millin və Herbertin, Spenserin böyük rolları olub.

Konta görə pozitiv bilik fəlsəfənin əsası kimi həm materializmdən, həm də idealizmdən üstün olmalıdır. Fəlsəfi bilik absolyut, dəqiq və doğru olmalıdır. Fəlsəfi biliyin əldə edilməsində əsas yol - emprik seyr etmədir. Konta görə fəlsəfə yalnızca faktların tədqiqatı ilə məşğul olmalıdır. Tədqiqat zamanlar fəlsəfə dəyərlər əsasında qurulan yanaşmadan və qiymətləndirmədən azad olmalıdır.

Elm vasitələr arsenalına əsaslanaraq fəlsəfə konkret elmə çevrilməli və digər elmlər arasında özünəməxsus yer tutmalıdır.

**Hermenevtika** izahetmə, interprefasiya, anlama nəzəriyyəsi və təcrübısinin tədqiqatı ilə məşğuldur. Hermenevtika- allahlarla insanlar arasında vasitəçi olan, allahların iradəsini yayan və onlara insanların arzularını çatdıran qədim yunanların allahı Hermesin adı ilə bağlıdır. Əsas prinsipləri: var olmaq, başa düşülmək deməkdir.

Hermenevtika ilə məşğul olan alim Şleyermahеrə görə mətin yozulmasında 2 üsul vardır: birincisi qrammatik, ikincisi psixoloji. Birincisinin köməyi ilə "dilin ruhu", ikincisinin köməyi ilə isə "müəllifin ruhu" aşkar olunur. Əgər müəlliflə oxucu arasında qəlbən qohumluq varsa herme-icanın faydası var və yaxud əksinədirsə məhz heç bir vaxt sona qədər başa düşülməyəcək. Anlama ilk öncə divinasiya-yəni əsərin müəllifinin qəlbini süni duymaq, yaşamaq. İkinci növbədə isə müqayisənin köməyi ilə başa düşülür. Divinasiya müqayisə ilə növbələnmədir.

**Eksiztensializm**-eksis-(Latınca eksiztensiya-varlıq mənasını verir). Eksiztensializm “varlıq”-“mövcudluq” fəlsəfəsi və bəzəndə “insan fəlsəfəsi” hesab edilir. Bu təlim insanın mövcudluğu haqqında fəlsəfi cərəyandır. Burada XX əsrdə insanın taleyi, mövcudluğu problemi, cəmiyyətdə yeri, azadlığı və mübarizəsi, ölümü və ölməzliyi haqqında fəlsəfi konsepsiyalar irəli sürülür.

Eksiztensializmin dini- mistik, fəlsəfi, mənəvi və hətta ateist istiqamətləri vardır. İnsan azadlığından bəhs edən eksiz-lər, ateistlər onun Allah iradəsinə tabelikdəndə azadlığını tələb edirlər. Onların fikrincə mövcudluq insanın özüdür, onun dünyaya gəlişidir. Eksiz-lizm pissimizm dünyagörüşü kimi meydana gəlmiş və belə bir sual qarşıya qoymuşdur. Tarix fəlakətlər qarşısında liberal mütərəqqi ideyalarının itirmiş insan necə yaşamalıdır ?

Eksiztensializmə görə fəlsəfənin vəzifəsi elmin problemləri ilə deyil, sırf insan varlığının məsələləri ilə məşğul olmaqdan ibarətdir. İnsan öz iradəsindən asılı olmayaraq bu dünyada öz taleyinə atılmışdır və o ona yad olan aləmdə yaşayır, onun varlığı hər tərəfdən sirli işarələrə, simvollarla əhatə olunmuşdur. Həyat olduqca irrasionaldır. Onda hər hansı bir formada iztirab üstünlük təşkil edir. Qorxu eksiz-lizm fəlsəfənin ən böyük anlayışıdır. Dünya mənasız, anlaşılmaz olduğu üçün daha da qorxuludur. İnsan hər addımında pislik güdür. İnsanlar “bir-biri üçün” pərdəsi altında bir-birinə qarşı hərəkət edirlər.Ekzistensializm hər şeydən əvvəl insanın hadisələrlə, emosiyalarla yaşamasına əsaslanır:

O ətrafda başverənlərə nəinki nəzəri, intellektual həm də hər şeydən əvvəl emosional formada öz münasibətini bildirir. İnsan həyatın bütün məzmununu, mənasını cəmiyyətdən kənarda deyil, məhz orada əğz edir. İnsanın vəzifəsi dünyanı dəyişdirməkdən ibarətdir.

Mövcudluq dedikdə eksiz-lər şəxsiyyətin mənəvi varlığını, şüurnu nəzərdə tuturlar. Dünyanı dərk etməyin ən etibarlı üsulu irrtuisiya “eksiztensional nurlanmadır”.

Eksiztensializmin nümayəndələri XIX əsrdə Danimarka mistiki, S.Kerkeqor, XX əsrin 20-ci illərdən sonra Alman filosofu Martin Haydegger, Almaniyadan K.Yaspers, Fransadan İonpolsartr, Rusiyadan N.Berdiayev, L.Şestov və s.

Eksiztensialistlərin irəli sürdükləri ən ümumi problem- həyatın mənası, insanın dünyada yeri və onun özünə həyat yolu seçməsi məsələsindən ibarətdir. Onlar insanın mövcud olması faktının insan üçün ən mühüm olduğu irəli sürülür, lakin insanın mövcudluğu intehaldır və insanın bütün həyatı ölüm qarşısında qorxu şəraitində keçir. Onların fikrincə fəlsəfənində vəzifəsi məhz bu qorxunu oyatmaq və daim bu hissi qoruyub saxlamaqdır.

Eksiztensialistlərin fikrincə, mövcudluğun məqsədi xoşbəxtlikdir. Allah Adəmi palçıqdan yaradır, bir ovuc artıq qalır. Bəs bundan nə düzəldim. Adəm deyir:

-Xoşbəxtlik.

Allah düşünməyib palçığı onun ovucuna qoyur.

-Onu da öyün düzəldir.

Deməli xoşbəxtlik öz əlimizdədir. Lakin onu da deyək ki, xoşbəxtlik anlayışı yoxdur.

## Varlıq haqqında təlim

Fəlsəfənin əsas kateqoriyalarından biri də varlıq anlayışıdır. Varlıq anlayıışını öyrənən bölmə "ontologiya" adlanır. Fəlsəfənin öyrənilməsi məhz elə varlıq probleminin öyrənilməsindən başlayır. *İlk dəfə bu anlayışı Yunan filosofu Parmenid işləyib.* Onun fikrincə varlıq hiss üzvləri vasitəsi ilə qavranıla bilən əşyalar dünyasından kənarda, fikirdə mövcud olan şeydir. Parmenid varlıq anlayışını real mövcud olan bir şey hesab edirdi ki, varlıq öz-özünə meydana gəlmiyən, məhv edilməyən tək, hərəkətsiz zamanca tükənməyən mövcudatdır.Onun fikrincə"var olan" o şeydir ki, o olmasa bilməz. yəni bu varlıqdır: Platon belə hesab edir ki, varlığın əsası maddi olmayan, cansız ideyadan əmələ gəlib: O, varlığın ancaq idrak, zəka ilədərk olunmasını qəbul edib. O kosmosu nəzərdə tuturdu. Platon isə təbii varlığı əsl varlıq dünyasına qarşı qoyurdu. Aristotelin fikrincə varlığı ehtiva edən daimi mühərrik Allahdır. *Əl Fərabi varlığın iki növünü göstərir: **1**. Mümkün varlıq- bura elə şeylər aiddir ki, onların mövcudluğu öz mahiyyətindən doğmur. **2**. Zəruri varlıq- əksinə öz mahiyyətindən doğur.*

Zəruri varlıq ən mükəmməl mövcudluqdur və səbəbdən, formadan, fəaliyyətdən, materiyadan, məqsəddən azaddır. Mümkün varlığın nə cinsi, nə tərifi, nə görkəmi nə də sübutu yoxdur. O özü hər şeyin sübutudur, xeyirxahlıqdır, əbədidir. Cəlaləddin Rumi belə hesab edir ki, mütləq varlıq yalnız Allahdır. O, tək

və  şəriksizdir. Orta əsrlərdə dinigörüşünə görə varlığı Allah yaradır. Allahın varlığı, həqiqi varlıq, onun yaratdığı mövcudatların varlığı “qeyri həqiqi” törəmə varlıqdır

*İntibah dövrü Avropada maddi varlığa daha çox önəm verilirdi.* Materialistlərin fikrincə varlıq təbiət ilə məhdudlaşır. Mənəvi dünya varlıq deyil. M. Kaydegger cəmiyyəti daim düşündürən varlıq anlayışını, insanın öz evini axtarmasını, evsizliyə və yetimçiliyə son qoyması kimi qiymətləndirir, insanın maddi fəaliyyəti ilə bərabər onun mənəvi həyatıda varlıq haqqındakı təsəvvürləri ilə bağlıdır. Varlığın anlaşılması insanları xoşbəxtliyə vicdanlı olmağa öz borcunu başa düşməyə yönəldən cəhdlərin mənbəyidir.

Fixte və Hegel mənəvi ideal varlığa üstünlük verirdilər. Haydeygerin fikrincə real mövcud olanlar o zaman varlıq olur ki, biz onları hiss edir, düşünür və haqqında danışa bilirik (əşyalar, anlayışlar, bizim özümüz, fantaziyalar). Varlıq hər dəfə mövcud olan varlıqdır. XX əsrdə virtual varlıq anlayışı meydana gəldi. Virtual varlıq maddi gerçəklikdən ayrılıqda mövcud olmayan bir şeyi əks etdirir və bu mənada xəyali xarakter daşıyır.

**Varlıq** – Şüurdan asılı olmayaraq obyektiv reallığın – kosmos, təbiət və insanın mövcudluğudur. özündə bütün mövcudluğu birləşdirən real mövcud olan, sabit, müstəqil, obyektiv, əbədi, sonsuz substansiyadır.

**Varlıq** – dünyanın real mövcudluğunun məcmusu, təbiət və cəmiyyətin, maddi və mənəvi aləmin vəhdətinin ən ümumi ifadəsini bildirən fəlsəfi kateqoriyadır. Məsələn, miflər nağıllar, ictimai-siyasi, elmi ideyalar-bütün hamsı varlığın müxtəlif növləridir.

**Varlıq-** şüurdan asılı olmayaraq mövcud olan detektiv aləmi, materiyanı ifadə edən fəlsəfi anlayışdır. Varlıq fəlsəfi dünyagörüşün əsasında duran minimum anlamlardandır. Uzun müddət bu kateqoriya müzakirə olunub.

**Varlıq nədir?** Mövcud olan ya materiyada, ya da dünyada ideyada, ya maddidir, ya mənəvi. Varlıq problemini öyrənmək dünyanın dünyanın

dərki nə əlavə məlumat verir. Bəzilərinin fikrincə dünya məkan və zaman etibarilə sonludur.Onun əvvəli və axırı vardır.Bu cür fikirlər varlıq probleminin araşdırılmasında bir sıra suallar meydana gətirdi.Beləliklə varlıq haqqında aspektlər yarandı.

Varlıq probleminin *1-ci aspekt :* Varlıq haqqında fikirlər zənciridir.

*Nə mövcuddur?* ***-Dünya.***

*Harada mövcuddur? –* ***Burada və hər yerdə***

*O nə müddətə mövcuddur?-* ***indi və həmişə***

*Bəzi filosofların fikrincə varlıq geniş və dar mənada işlənir. 1-ci halda dünyada olan hərşey varlığa daxildir.Dar mənada isə varlıq insan şüurundan kənarda və ondan asılı olmayaraq mövcud olan obyektiv reallığın və subyektiv reallığın birbirindən fərqliliyini vurğulanır.*

*Ayrı-ayrı şeylər, orqanizmlər,adamlar, onların həyat fəaliyyəti nə müddətə mövcuddur?-* ***onlar sonludur və keçicidir.*** Deməli problemin əsas özəyini təbiətin keçici olmayan şeylərin və varlığın, təbiət hallarının, insan vücudunun keçici ötəri olan varlığının ziddiyyətli vəhdətidir.Dünyanın varlğı, dünyada mövcud olan bütün şeylərin varlığından ayrılmazdır.

Tam kimi dünyanın varlığı dünyada mövcud olan bütün şeylərin varlığından ayrılmazdır.

*2-ci aspekt:*

İnsanlar dünyanın vəhdətidir. Başqa sözlə dünyada mövcud olan, olmuş və olacaq hər şeyin varlığı dünyanın vəhdətinin ilk şərtidir.

*3-cü aspekt:*

İnsan öz praktik fəaliyyətində dünyanın vəhdətinin ilkin şərtidir.İnsan dünyaya gəlir, yaşayır, ölür və bu prosesi dəyişdirə bilmir.İnsan yaşadığı dövrdə yaxşı həyat üçün mübarizə aparır və real aləmin mürəkkəb quruluşundan baş çıxarmağa zaman verən anlayışlarla – gərçəklik və reallıqla tanış olur. Bura aiddir**:** *Reallığın 2 növü var*: **obyektiv və subyektiv.** İnsan şüurundan kənarda mövcud olan gerçəklik **obyektiv reallıqdır**: *nüvə, atom, molekul, cisimlər, qalaktika, ictimai münasibətlər və s.*

**Subyektiv reallıq-** insan şüurunda, insan təfəkküründə, insan təxəyyülündə mövcud olan gerçəklik subyektiv reallıqdır. Subyektiv reallıq insan beyninin məhsuludur: *fikirlər, anlayışlar, mülahizələr, obrazlar, elmi və qeyri-elmi biliklər: cin, şeytan, əjdaha.*

**Gerçəklik-** keçmişdə, indi və gələcəkdə mövcud olacaq şeylərin, proseslərin, hadisələrin halların məcmusudur. Obyektiv və subyektiv reallığın kəsişdiyi nöqtə varlığın mərkəzidir. Varlıq kateqoriyasının köməyi ilə dünyanın mövcudluğu haqqında məsələlərin məzmunu açılır.

1. Dünya vardır və o hüdudsuz və keçid olmayan tam kimi mövcuddur.
2. Fərdlər və cəmiyyət dünyanın vəhdətinin ilkin şərtidir.
3. Mövcudluq və inkişafın obyektiv məntiqi üzündən dünya özünün mövcudluq formalarının müxtəlifliyində, şüurdan və konkret formalardan, insan nəsillərindən qabaq gələn məcmu reallığı əmələ gətirir.

***Varlığın növləri :***

1.Təbii və maddi varlıq – buraya insanı əhatə edən maddi gərçəklik daxildir ki, onun da 2 aspekti vardır *:* təbii mühit və insan əməyi ilə yaranan süni mühit, yəni 2-ci təbiət.

2.Mənəvi və ideal varlıq *:* 2 yerə bölünür: subyektiv mənəvi varlıq və obyektivləşdirilmiş. mənəvi varlıq 1ci yə insanın daxili psixiki dünyası aiddir. Onun tərkibinə insanın bilik və baxışları, şüuru, qeyri şüuru hadisələri və mənlik şüru daxildir. buraya isə insanı əhatə edən mənəvi

aləm , ideal ənənələr, idioloji formalar və s. aiddir. Məsələn, mədəniyyət, elm, adət-ənənələr, ideoloji formalar daxildir.

3.Sosial-siyasi varlıq - əsasında ictimai istehsal prosesi və ictimai münasibətləri,sosial – siyasi strukturlarını birləşdirir.Buraya siyasi, sinfi , milli proseslərin idarə edilməsi və s. insan fəaliyyəti sahələri daxildir.

4.İnsan varlığı - yəni insanın obyektiv real varlığı , mövcudluğu.Bu da 2 qismə ayrılır *:*

*a)insan – şəxsiyyət* *b)insan – fərd*

*İnsanın varlığı hər 2 varlıq dünyasına mənsubdur. 1 tərəfdən insanın bədəni, maddi, təbii və bioloji qanunlara tabedir.Bu mənada o mexanika qanunlarının fəaliyyət göstərdiyi təbiət hadisələrindən fərqlənmir,eynilədə insan bədəni bioloji orqanizm kimi bitki və heyvanlara xas olan ümumi əlamətlərə malikdir.*

*Digər tərəfdən insan varlığı təkrar olunmazdır.Onun şüur psixi dünyası, düşünmə qabilliyəti vardır, Ona görədə insan öz zəkası sayəsində antivdir. o, dünyanın varlığını orada yeri haqqında düşünür və mühakimə yürüdür.*

İnsan yaşadığı müddətcə fəaliyyət göstərir və onun fəaliyyəti bəzi sadə anlaşıqlı ilkin şərtlərə əsaslanır.Onların içərisində ən vacibi insanın dünyanın varlıq məkanında və zamanında var olması, onda baş verən dəyişikliklərdən aslı olmayaraq stabil tam kimi saxlanılmasıdır.Bəzi filosofların fikrincə dünya hər yerdə mövcuddur, əbədidir, həmişə olub və olacaq. Bəzilərinin fikrincə dünya məkan və zaman etibarilə sonludur, onun əvvəli və axırı vardır.

**Substansiya** - öz mövcudluğu üçün özündən savayı heçnəyə ehtiyacı olmayan müstəqil mahiyyətdir.

**Materiya anlayışı. Müasir elm materiyanın qururluşu haqqında.**

Mühim fəlsəfi kateqoriya olan materiya insanı əhatə edən dünyanın öyrənilməsində əsas yer tutur.

***Materiya***(lat.materiya)-maddə deməkdir.

***Materiya-*** anlayışı insanı əhatə edən dünyanı öyrənir. O,belə suallara cavab axtarır **:** *Dünyadakı müxtəlif cisim və hadisələrin onları bir-biri ilə bağlayan bir əsası varmı? Dünyanın bütün sonsuz müxtəlifliyinin vəhdəti haqqında danışmaq olarmı?*

*Holbaxın fikrincə mater iya şüurdan kənarda, şüura qədər, şüurla yanaşı və şüurdan asılı olmayaraq mövcud obyektiv reallıqdır. Lenin fikrincə materiya bizə hislərimizlə bəlli olan və dərk ediləndir.*

Məhz insan şüurundan xaricdə və ondan asılı olmadan obyektiv reallıq kimi mövcud olanı ifadə etmək üçün fəlsəfədə materiya anlayışı işlənmişdir.

***Materiya-*** ətraf dünyanın bütün əşya və hadisələrinin cəmini ifadə edən fəlsəfi abstraksiyadır (mücərrədlikdir). Materiya haqqında təlimin inkişafında aşağıdakı qanunauyğunluq özünü göstərir: antik dövr üçün xarakterik olan materiya anlayışından, yəni materiyanı maddi varlıq hesab etməkdən- materiyanı qeyri-müəyyən, simasız, passiv başlanğıc, mücərrəd fikirdə mövcud olan təmiz imkan hesab etməyə keçid. Bu passiv materiyaya qarşı aktiv (fəal), qeyri-maddi forma- təbiətüstü mənəvi qüvvə durur. Qədim Şərq ilkin əsası kimi od, su, torpaq, havadan əmələ gəldiyini məhv olaraq çevrildiyi ilkin əsas götürülür.

Yunan filosofları bütün şeylər heçdən yaranmır və heçə çevrilmirlər. Milet, Eley məktəbləri, Atomistlər və s. fikri. Müasir elmdə sübut edir ki, əbədi şeylər yoxdur, ancaq onların əsasında duran bütün şeylərin təşkil olunduğu ilk əsas- **substansiya kateqoriyası** vardır. Substansiya olmaq etibarı ilə materiyanın mövcudluğunun səbəbi özündədir. Materiya özü-özünün səbəbidir.

**Dialek materializm materiyaya belə tərtib verilib.**

***Materiya-*** bizim şüurumuzdan asılı olmadan mövcud olan və duyğu orqanlarımıza təsir edərək şüurumuzda əks olunan obyektiv reallığı ifadə edir.

***Materiya***- insana öz duyğusu ilə verilən, duyğularımızdan asılı olmayaraq mövcud olan və duyğularıməzla surəti alınan,şəkli alınan, əks olunan obyektiv reallığı göstərmək üçün fəlsəfi bir kateqoriyadır.

Materiya anlayışına materialist, obyektiv idealist , pozitivist, subyektiv idealist yanaşmalar mövcuddur.

Materialist yanaşmaya əsasən materiya obyektiv reallıqdır, varlığın əsasıdır.Varlığın digər formaları isə (ruh,insan,cəmiyyət) materiyanın törəmələridir.Onların fikrincə materiya ilkindir və mövcud olan varlığı təşkil edir.

Obyektiv reallıq olan materiya hiss üzvlərimizə təsir edərək duyğularımızda əks olunur, yəni o dərkediləndir.

Obyektiv idealizmə görə materiya bütün mövcudiyyatdən aslı olmayaraq ilkin ideal ruhun törəməsi kimi obyektiv şəkildə mövcuddur.

Subyeltiv idealistlərə görə isə materiya müstəqil reallıq kimi ümumiyyətlə yoxdur.O sadəcə subyektiv ruhun məhsuludur.

Pozitivist yanaşmaya əsasən materiya yanlışdır.Çünki təcrübi – elmi tədqiqat yolu ilə sübut etmək və tam öyrənmək olmaz.

Materiyanın bu tərifi fəlsəfənin əsas məsələsinin hər iki- *ontoloji və qneseoloji* tərəflərinin materialistcəsinə həllini əks etdirən aşağıdakı müddəalara əsaslanır.

a) Materiya insan şüurundan xaricdə və ondan asılı olmadan mövcud olan obyektiv reallıqdır.
b) Obyektiv reallıq olan materiya hiss üzvlərimizə təsir edərək duyğularımızda əks olunur, yəni o dərkediləndir.

Materiya haqqında nəzəriyyənin fəlsəfi cəhətinə gəldikdə isə o fiziki məzmunca müxtəlif olmasına baxmayaraq fiziki aləmin maddiliyini obyektivliyinin qəbul olması ilə bağlıdır. Materiya müxtəlif formalarda mövcuddur. Bizi əhatə edən təbiətin bütün formaları materiyanın konkret təzahürləridir. Materiya fəlsəfənin yerinə yetirdiyi bütün funksiyaların vəhdəti halında tətbiq olunması nümunəsi kimi çıxış edir. Cisimlər, predmetlər məkan daxilində mövcuddurlar, məkan materiyanın hərəkətinin şərtini təşkil edir.

Materiya anlayışı şəxsiyyətin gündəlik həyat təcrübəsinfə onun və hiss və təsəvvürlərinin formalaşmasında mühüm rol oynayır. Materiya anlayışı ins anın dünya görüşünün çıxış nöqtəsidi.

Materiyanın struktur elementləri canlı, cansız təbiət və sosiumdur.

**Cansız təbiət** – ulduzlar, qalaktikalar, planet sistemləri, makocismlər, molekullar, atomlar və s. aiddir.

**Canlı təbiət** – hüceyrəyə qədər (DNT, RNT zülal), hüceyrə,hüceyrəli orqanizmlər, biosfer pilləsi ümumulikdə aiddir.

**Sosium** – ayrıca fərd, ailə, qrup, sosial qruplar, etnoslar, millətlər, irqlər,dövlətlər ümumilikdə bəşəriyyət və s. aiddir.

Materiyanın aşağıdakı xüsusiyyətləri mövcuddur ~ hərəkətin olması, özü-özünün təşkili, məkanda və zamanda yerləşməsi, inikas bacarığı.

**Hərəkət** – materiyanın ayrılmaz xüsusiyyətidir.

**Hərəkət** – materiyanın özündən yaranır, yəni onda olan əksliklərdən, onların vəhdətindən və mübarizəsindən əmələ gəlir.Hər şey hərəkət edir.Atomlar canlı orqanizmlər kimi işləyirlər.

**Hərəkət** – daim mövcuddur.Onun bir formasının sonluğu, digər yeni formasının əmələ gəlməsi ilə əvəzlənir.

**Hərəkətin formaları** – fiziki hərəkət, mexaniki hərəkət, kimyəvi hərəkət, bioloji hərəkət, sosiolji hərəkət.

**Hərəkətin tipləri** – keyfiyyət materiyanın dəyişdirilməsi, daxili strukturnun yenidən qurulması və yeni maddi obyektlərin və onların yeni xüsusiyyətlərinin yaranması.

**Kəmiyyət –** materiyanın və enerjinin eyni məkanda köçürülməsi.

**Dinamik hərəkət** – köhnə forma çərçivəsində məzmunun dəyişməsi, əvvəlki formaların potensialının açıqlaması.

**Populyasiya hərəkəti** – yeni obyektin yaradılışına, materiyanın bir formadan digər formaya keçməsinə gətirən obyektin strukturunun dəyişdirilməsi.Bu hərəkət dəyişməsi həm təkamül, həm də heç nə ilə şərtləndirilməmiş `*parlayış*`(emercment ) yolu ilə baş verir.

Məkan və zaman varlığın, materiyanın mövcudluğunun obyektiv real formalarındandır.Çünki gərçəklikdəki bütün cism və proseslər müəyyən məkan və zamanda mövcuddurlar.

**Məkan** – maddi cismlərin və hadisələrin müəyyən yer tutumuna malik olmasının, cismlər arasında xüsusi süratdə yerləşməsini ifadə edir.

**Zaman** – cism və hadisələrin müəyyən aralıq və sürəliklə davam etməsini, dövrlər, mərhələlər üzrə inkişaf etməsi xassəsini ifadə edir.Məkan və zaman obyektivdirlər., insan şüurundan aslı deyillər. Məkan və zaman sonsuzdur, tükənməzdir.Onların sonsuzluğu konkret cism və hadisələrin sonsuzluğunun vəhdətindən, məcmusundan yaranıb.

**Relyasion** – konsepsiya məkan və zamanın maddi obyekt və proseslərdən aslı olmayaraq, müstəqil mövcud olmasını inkar edir, onların mahiyyətini predmet və hadisələr arasındakı xüsusi tip münasibətlərdə görür.O öz başlanğıcını Aristotel, Hegel, Enşteyn kimi filosofların təlimindən götürmüşdür.

Enşyetnin nisbilik nəzəriyyəsi XX əsrin ortalarında meydana çıxdı.Bu nəzəriyyəyə əsasən məkan və zaman nisbidirlər və onların nisbiliyi maddi cismlərin qarşılıqlı təsirlərindən aslıdır və bu nəzəriyyə *relyasıya* nəzəriyyəsini təsdiqlədi.

Müasir sosiometriyada sosial məkan və sosial zaman anlayışları haqqında danışırlar.

**Sosial zaman** – ictimai proseslərin, adamların həyatındakı tarixi dəyişikliklərin ölçüsüdür.

**Sosial məkan** – müəyyən qrup təşkil edən fərdlərin sosial mənafelərinin, simpatiya və antipatiyanın kəsişməsi nəzərdə tutulur.

**Sosial sahə**- adətən ayrı –ayri qrupları təşkil edən fərdlərin fəakkıq sahəsidir.

**Substansiya** - əsasında duran deməkdir.Hələ qədim dövrlərdə filosoflar qeyd etmişlər ki, dünyada sonsuz sayda dəyişikliklər, inkişaf, məhv olma, birləşmə, parşalanma baş verməsinə baxmayaraq müəyyən bir sabit, dəyişməz, əsasda mövcuddur.Buda supstansiya və ya ilkin materiyadır. Filosofların hərəsi onu gah su, gah hava, hag torpaq, gah da od adlandırırdılar.Materiyaya substansiya kimi baxmaq 3 əsas vəzifənin yerinə yetirilməsi baxımından mühim əhəmiyyət kəsb edir.

*1)Dünyanın vəhdətinin izahı*

*2)Dünyadakı çoxsaylı əşya və proseslərin eyni bir zamanda əsasın müxtəlif növləri kimi göstərilməsi*

*3)Dünyadakı mövcudluq formasının müxtəlifliyi və zənginliyini hərəkətinin əsasın təbii – tarixi gedişatında yaratdığının sübut edilməsi.*

Dünyanın vəhdətini bir substansiyadan çıxış etməklə izah edən təlim **`*monist*`**(tək, vahid) təlimi adlanır.Antik fəlsəfədə substansiya əşyaların ilkin əsası, yeni dövr fəlsəfəsində *Bekon* onu varlığın spn hüdudunda duran hesab edirdi.*Dekart* ikili maddi və mənavi substansiya olduğunu söyləmişdir.

***İnikas – materiyanın xassəsi kimi***

İnikas – maddi cismlərin onlarla qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan digər maddi sistemlərin keyfiyyətlərini özlərində yaratmaq bacarığıdır.İnikas sübütu izlərin olmasıdır.Məsələn,torbaqda qalan insan izi, cırmaq yeri, səda və s.

***Fiziki inikas, kimyəvi inikas, mexaniki inikas, bioloji inikas mərhələləri~***

Qıcıqlanma, həssaslıq ruhi inikas

**Şüur** – inikasın ali səciyyəsi, sosial inikasıdır.

**Sinergetika** – materiyanın özü- özünü təşkil etməsi haqqında təlimdir.

Materiyanın bu tərifi fəlsəfənin əsas məsələsinin hər iki- *ontoloji və qneseoloji* tərəflərinin materialistcəsinə həllini əks etdirən aşağıdakı müddəalara əsaslanır.

c) Materiya insan şüurundan xaricdə və ondan asılı olmadan mövcud olan obyektiv reallıqdır.
d) Obyektiv reallıq olan materiya hiss üzvlərimizə təsir edərək duyğularımızda əks olunur, yəni o dərkediləndir.

Materiya haqqında nəzəriyyənin fəlsəfi cəhətinə gəldikdə isə o fiziki məzmunca müxtəlif olmasına baxmayaraq fiziki aləmin maddiliyini obyektivliyinin qəbul olması ilə bağlıdır. Materiya müxtəlif formalarda mövcuddur. Bizi əhatə edən təbiətin bütün formaları materiyanın konkret təzahürləridir. Materiya fəlsəfənin yerinə yetirdiyi bütün funksiyaların vəhdəti halında tətbiq olunması nümunəsi kimi çıxış edir. Cisimlər, predmetlər məkan daxilində mövcuddurlar, məkan materiyanın hərəkətinin şərtini təşkil edir.

**Məkan-** hərəkətdə olan materiyanın mövcudluğunun obyektiv real formasıdır. Məkan anlayışı maddi obyektlərin yanaşı mövcud olduğunu və bir-birindən aralı olmasını, onların ölçüsünü, onların bir-birinə nisbətən yerləşməsi

qaydasını ifadə edir. Maddi proseslər nəinki məkanca müxtəlif yerlərdə, həmçinin biri digərindən tez və ya gec baş verir. Cisimlər zaman daxilində mövcuddur.

**Zaman-** hərəkətdə olan materiyanın mövcudluğunun obyektiv real formasıdır. **Zaman** maddi proseslərin baş verməsi ardıçıllığını, həmin proseslərin müxtəlif mərhələsinin bir-birindən aralılığını, sürəkliliyini, inkişafını səciyyələndirir. Zaman ölçmək üçün saniyə, dəqiqə, saat, ay, il və s. ölçü vahidlərindən istifadə edilir. Eyni zamanda 1 neçə hadisə baş verir, amma onlar bir-birindən ayrıdı üst-üstə düşmür. Zaman- 1 ölçülüdür. Yəni zamanın verilmiş anını təyin etmək üçün təkcə bir kəmiyyətin verilməsi kifayətdir. Cisim məkanda özünün 3 ölçüsünə görə yuxarı, aşağı, sağa-sola, irəliyə-geriyə hərəkət etdiyi halda, zaman etibarı ilə o , yalnız bir istiqamətdə irəliyə hərəkət edə bilər. Zaman geri dönməzdir.

**Zamanla vaxt anlayışı.** Biz insanlar öz münasibətlərimizi tənzimləmək üçün vaxt müəyyən edirik. Vaxtı isə şərti olaraq bölmüşük, zaman o qədər mühümdür ki, vaxt nisbidir.

**Məkan və zaman** hər ikisi üçün ümumi olan mühüm xassə onların sonsuzluğudur. Materialistlər, üçün məkan və zaman sonsuzdur. Idealistlər üçün əksinə hər ikisinin bu xassələri materiyanın özünün kəmiyyət və keyfiyyət sonsuzluğundan irəli gəlir.

Məkan və zaman kəmiyyətcə sonsuzluğu o deməkdir ki, zaman etibarı ilə əbədi olan kainat məkan etibarı ilə sonsuzdur, yəni onun nə irəlidə, nə geridə, nə sağda, nə də solda sonu yoxdur. Müasir sosiologiyada sosial məsafə anlayışı vardır. **Sosial məsafə** cəmiyyətdə fərdlər, qruplar, fərdlər ilə onların mənsub olduğu qruplar arasındakı qarşılıqlı anlaşılma başa düşülür. Sosial məsafə ikili xarakter daşıyır. A özünü B-yə, və ya əksinə hesab edə bilər. Müasir sosiometriyada sosial məkanla bağlı olan "sosial sahə" anlayışı vardır. Sosial sahə ayrı-ayrı qrupları təşkil edən fərdlərin fəallıq sahəsi nəzərdə tutulur.

**Dialektika ən ümumi əlaqə və inkişaf haqqında təlimdir.**

**Dialektika-** yunan sözü olub mübahisə etmək, müsahibə sənəti deməkdir. İlk dəfə olaraq qədim Yunan fəlsəfəsində quldarlıq demokratiyasının inkişafı ilə əlaqədar olaraq mübahisə öz fikrini sübuta yetirmək, ona inandırmaq, onun özünün haqlı olduğunu əsaslandırmaq və bununla da dövlət, məhkəmə və başqa işlərin müzakirəsi zamanı tərəfdarlar qazanmaq bacarığıdır.

Dialektika materiyanın, ruhun, şüurun, idrakın və gerçəkliyin digər aspektlərinin inkişafını nəzəri cəhətdən göstərir.

**Dialektika** ən ümumi əlaqə və inkişaf haqqında təlimdir.

**Dialektika** gerçəkliyi dərk etməyin və dəyişdirməyin ən ümumi metodudur.Dialektika 2 müsahibin mübahisə yolu ilə mühakimələrindəki ziddiyyəti aşkara çıxarmaq və həqiqəti sübuta yetirmək bacarığıdır.Dahi filosof Sokrat öz fikirlərini dialoq şəklində ifadə edib.

*Dialektika obyektiv və subyektiv olmaqla 2 yerə bölünür.*

*Obyektiv* - insan şüurundan xaricdə və ondan asılı olmadan mövcud olan varlığın özünün dialektikasıdır

*Subyektiv* - obyektiv dialektikanın subyekt, insan, bəşəriyyət tərəfindən fərdin yaxud ictimai şüurda əks olunmasıdır.

Fəlsəfə elm olmaq etibarı ilə dialektik inkişaf edən və getdikcə dolğunlaşan biliklər sistemidir. Bu sistemin əsasını müəyyən prinsiplər, qanunlar və kateqoriyalar təşkil edir.

*Dialektikanın əsas prinsipləri:* hadisələrin ən ümumi əlaqəsi prinsipi, obyektivlik prinsipi, inkişaf prinsipi, determinizm prinsipi,tarixilik prinsipi,həqiqətin konkretliyi prinsipi, nəzəriyyə ilə praktikanın vəhdəti prinsipi və b.

1) Ümumi əlaqə - ətraf dünyanın tamlığı, onun daxili vəhdəti, onun komponentlərinin - əşyaların, proseslərin, hadisələrin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri.

Əlaqələrin növləri: daxili və xarici, vasitəsiz və vasitəli, genetik və funksional, ölçü və zaman, təsadüfi və qanunauyğun.

2) Sistemlilik - yəni dünyada olan əlaqələr xaotik deyil, qaydaya salınmış halda mövcuddurlar.

3) Səbəbilik - birinin o birini yaratdığı əlaqələrin mövcudluğu. Yəni ki, ətraf aləmin hadisələri, prosesləri nə iləsə şərtləniblər, onların daxili və ya da kənar səbəbi var. Səbəb nəticəni əmələ gətirir, bu da səbəb - nəticə əlaqəsidir.

4) Tarixilik ətraf aləmin 2 aspektini nəzərdə tutur: əbədilik, tarixin, dünyanın məhv olunmaması və onun həmişə baş tutan var olması və zaman çərçivəsində inkişafı.

Dialektikanın bu prinsiplərində gərçək aləmin ən ümumi əlaqə və münasibətləri əks olunur.

**Zəruri komponentləri:** qanunları və kateqoriyalarıdır.

**Dialektikanın əsas problemi** – *İnkişaf nədir?*

*İnkişaf* – materiyanın ümumi xüsusiyyəti və əsas əlamətidir.İdeal və maddi obyektlərin dəyişməsi,özü də sadə mexaniki deyişmə yox,nəticəsi təşkilatın daha yüksək pilləsinə keçid olan daxili səbəblərdən törəyən inkişaf şəklində dəyişmədir.*Həmçinin inkişaf hərəkətin ən ali formasıdır.*

**Qanun-** predment və hadisələr arasındakı obyektiv, ümumi mühim, zəruri, nisbi sabit və təkrarlanan, müəyyən şərait daxilində həmişə hadisənin inkişaf istiqamətini müəyyən edən daxili əlaqələri ifadə edən fəlsəfi kateqoriyadır.

**Qanun-** şeylər proseslər arasındakı münasibətdir, əlaqədir, həmçinin bir sıra əlamətləri ilə fərqlənən xüsusi tip əlaqədədir. Qanun ancaq mahiyyət xarakteri daşıyan əlaqələri ifadə edir. Məsələn, yuxarı atılan cisimlərin qayıdaraq yerə

düşməsi, ümumdünya cazibə qanununun tələbindən irəli gələn zəruriyyətdir. Engelsin fikrincə qanun təbiətdə ümumiliyin formasıdır.

Qanunun ifadə etdiyi əlaqənin mühim əlamətlərindən biri də onun nisbi sabit, dayanıqlı olmasıdır. Çünki qanun müxtəlif hadisələrdə təkrarlanan, eyni qalandır. Qanun anlayışına idealist və materialist baxışlar mövcuddur. İdealistlər xarici qanunların mövcud olub, təsir göstərdiyini qəbul etsələr də, onların obyektivliyini inkar edir, onları insan şüurunun məhsulu sayırlar (Kant, Pirson, Rassel, Ayer və başqaları). Materialistlər əksinə, qanunların obyektivliyini qəbul edir, onlar insan tərəfindən nə ləğv, nə də yaradıla bilər. Qanunlar bizdən asılı olmadan, şüurumuzdan xaricdə mövcuddur. Yəni, qanunların tələblərini insanlar olduğu kimi həyata keçirirlər. Təbiət və cəmiyyət qanunları dinamik və statistik qanunlara bölünürlər.

Əgər bütöv sistemin hərəkətini təsvir edən qanun bu sistemin ayrı-ayrı elementlərinin ifadəsi üçün də yarayırsa, bu dinamik qanundur. Məsələn, Om qanunu, Nyuton qanunu hərəkətini ifadə edə bilməzsə, belə qanuna statistik qanun deyilir. Məsələn, Mansvel, Bolsman qanunu, İdeal qaz qanunları.

Ümumilik dərəcəsindən asılı olaraq qanunlar xüsusi, ümumi və ən ümumi qanunlara bölünür.

**Xüsusi qanunlar** müəyyən qrup hadisələrdə və ya onların ancaq müəyyən inkişaf mərhələsində təsir göstərən qanunlardır. Məsələn, Kant mexanikasının mikroaləmdə, yaxud Kulon qanunu

**Ümumi qanunlar** gerçəkliyin müəyyən sahəsinə daxil olan bütün hadisələrin inkişafında əvvəldən axıradək təsir göstərən qanunlardır. Ümumi qanunların təsiri bütün təbiəti, cəmiyyəti əhatə edir. Məsələn, Ümumdünya cazibə qanunu, təbiətin, istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu qanunu.

**Ən ümumi qanunlar** istisnasız olaraq hər yerdə, hər bir şəraitdə materiya quruluşunun bütün səviyyələrində, təbiət, cəmiyyət, təfəkkür və insan idrakının bütün hadisələrinə təsir göstərir.

**Əksliklərin vəhdəti və mübarizəsi qanunu.**

Dialektikanın qanunları: əksliklərin vəhdəti və mübarizəsi qanunu - yəni bütün mövcudiyyat təbiətinə görə vəhdət təşkil edir, lakin bir-birilə zidd olan və mübarizədə olan əksliklərdən ibarətdir (ağ-qara, yaxşı - pis, işıq - qaranlıq). Əksliklərin vəhdəti və mübarizəsi qanunu bütün mövcudluğun hərəkətin və inkişafın daxili mənbəyidir. Hegelin bu qanuna xüsusi baxışları vardır. Belə ki, hər əşyanın, hər hadisənin iki əsas xüsusiyyəti var: eynilik (bərabərlik) və fərqlilik.

**Eynilik** - predmet hadisə və proseslər və onların daxili tərəfləri arasındakı əlavə və münasibətlərin məzmun və formaca, xassə və vasitəcə oxşar, ümumiyyətlə eyniyyət təşkil edən cəhətlərin ifadəsinə deyilir.

Eynilik o deməkdir ki, əşya (hadisə, ideya) özünə bərabərdir, yəni əşya məhz bu əşyadır. Eyni zamanda özünə bərabər əşyada onun çərçivəsindən çıxmağa çalışan bərabərliyi pozmağa cəhd edən nə isə var.

**Fərqlilik -** predmet, hadisə və prosesin daxili tərəf və meyllərini bir-birindən və başqa xarici hadisələrdən ayıran, fərqləndirən cəhətlərin ifadəsinə deyilir.

Hər hansı bir müddəanın məzmununun açılması, həmin müddəaların ifadə olunduğu anlayışlar ilə tanışlıqla bağlıdır. Qanun isə həmin anlayışlar arasındakı əlaqədir. əksliklərin vəhdətinə mübarizəsi qanununun anlayışları aşağıdakılardır: eyniyyət, fərq, əkslik.

**Eyniyyət-** predmetdə, hadisədə ziddiyyətin zəif dərəcədə nəzərə çarpan əksliklərin üst-üstə düşdüyü başlanğıc mərhələdir. Burada dialektika və metafizika əkslik təşkil edir. Metafizika eyniyyət abstrakt yanaşaraq ona predmet və hadisələrin mütləq eyniyyəti kimi baxır, şeylərin daxili ziddiyyətliliyini və onları başqa şey edə biləcək tərəfləri və meylləri görmür. Bu isə ziddiyyətlərin predmet

və hadisələrdə necə və harada əmələ gəldiyini aşkar etməyə imkan vermir. Dialektika isə əksinə, dünyada mütləq eyni olan şeylər, hadisələr yoxdur fikrinə əsaslanır və konkret eyniyyəti qəbul edir.

**Fərq**- ziddiyyətin kifayət qədər inkişaf etmədiyi, genişlənmədiyi formasıdır.

**Fərq**- eyniyyətə nəzərən əkslik kimi, yəni ziddiyyətin tərəfləri kimi çıxış edir. Fərqlər mühüm, qeyri-mühüm olur. Qeyri-mühüm fərq eyniyyətin inkişafının başlanğıc fazasını, mühüm fərq isə gərginlik dərəcəsinə görə sonrakı, ziddiyyət isə daha da kəskinləşdikdə əkslıiyə çevrilən fazanı səciyyələndirir.

**Əkslik** - 2 mənada işlənir, bir ziddiyyətin tərəflərini (məsələn, mənfi-müsbət, köhnə-yeni), bir də ziddiyyətin yüksək dərəcədə kəskinləşməsini ifadə etmək üçün işlədilir.

Əkslik arasındakı münasibət **ziddiyyət** kateqoriyası ilə ifadə olunur.

Ziddiyyətin növləri: daxili və xarici, əsas və əsas olmayan, başlıca və qeyri-başlıca.

Ziddiyyətin növləri öz yerlərini dəyişə, bir-birlərinə keçə bilir.

**Daxili ziddiyyət-** predment və hadisələrin özlərinin müxtəlif tərəfləri, xassələri, meyilləri arasında olub, şeylərin mahiyyətindən, daxili təbiətindən irəli gəlir.

**Xarici ziddiyyətlər** isə qarşılıqlı əlaqədə olan və bir-birinə təsir göstərən müxtəlif şeylər, proseslər arasındakı ziddiyyətlərdir. Onların mübarizəsi özü hərəkətin və inkişafın mənbəyini, hərəkətverici qüvvəsini təşkil edir. Hər 2 ziddiyyətlər müəyyən şəraitdə öz yerlərini dəyişərək bir-birinə keçir. Müxtəlif ölkələr arasındakı ziddiyyətlər bütövlükdə cəmiyyətin daxili ziddiyyətləridir.

Obyektin mahiyyətini müəyyən edən əsas ziddiyyətlər, o hadisənin mövcud olduğu bütün müddətdə təsir göstərir, onun inkişafının xarakterini, xüsusiyyətlərini müəyyən edir, bütün bütün ziddiyyətləri şərtləndirir, onlara təsir göstərir.

Ziddiyyətlərin 2 əsas tipi- antoqonist və qeyri-antoqonist ziddiyyətin tipləri dedikdə, yəni ziddiyyətin növlərinin xarakteri nəzərdə tutulur.

**Antoqonist ziddiyyətin** köklü mənafeyi daban-dabana əks olan ictimai siniflər, qruplar, onların məqsəd və meyilləri arasındakı ziddiyyətlərdir. Məsələn, cəmiyyətin 2 düşünən sinfə bölünməsi

**Qeyri-antoqonist ziddiyyətlər** mənafe ümumiliyi ilə bağlı olan siniflər, ictimai qruplar arasında mövcud olur, Antoqonist ziddiyyətləri ancaq mövcud quruluşu dəyişdirməklə həll etmək olar, qeyri-antoqonist ziddiyyətlər isə mövcud cəmiyyətin daxilində həll etmək olar.

Dialektik materialist fəlsəfə **inkişafin mənbəyi** məsələsini həll edən əksikliklərin vəhdəti və mübarizəsi qanunu işləyib hazırlayıb. Elm sahəsində sürətli inkişaf, əldə olunmuş nailiyyətlər, bəşəriyyətin öz inkişafında nail olduğu surət inkişaf prinsipini qəbul etdirir və bu inkişafın xarakterini və mənbəyini anlamağı tələb edir. Buradanda iki baxış sistemi metafizik və dialektik konsepsiyaları meydana çıxır.

**Metafizik konsepsiya-** inkişaf prosesində yeni keyfiyyətin yaranmasını qəbul etmir, ona yalnız kəmiyyətcə artma və azalma, böyümə və kiçilmə kimi, yenini isə köhnənin təkrarı kimi qəbul edir. Inkişafın mənbəyini isə o şeylərin öz daxilində deyil, onlardan kənarda axtarır.

**Dialektik konsepsiya-** əksinə inkişafa nəticə etibarı ilə yeni keyfiyyətin yaranmasına səbəb olan bir proses kimi baxır. O, konsepsiyaya əsasən köhnə keyfiyyətin məhvi, yeni keyfiyyətin köhnənin bəzi mühüm cəhətlərinin daha yüksək əsasda pillədə təkrar edir. Dialektika hər cür inkişafın mənbəyini predmet və hadisələrin öz daxilində axtararaq göstərir ki, bu onları təşkil edən əks tərəflər, meyllər, qüvvəllər arasındakı mübarizədir.

### Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu

**Kəmiyyət-** müəyyən bir hadisənin xüsusiyyətini təşkil edən və onu başqa hadisələrindən fərqləndirən mühüm cəhətlər və ya əlamətlər məcmusuna şeyin və

hadisənin keyfiyyəti deyilir. Məsələn kimyəvi element olan hidrogen bütün başqalarından yalnız onun özü üçün səciyyəvi olan xüsusiyyətlərinə görə fərqləri keyfiyyət fəlsəfəsi anlamında hadisəyə verilən qiymətlə bağlı deyil. Bu anlayış ancaq hadisənin ən mühüm fərqləndirici əlamətlərini, daxili quruluşunu nəzərdə tutur ki, məhz bunlar hadisələrin müəyyənliyi təşkil edir. Və hadisə bunlarsız ola bilməz keyfiyyətsiz predmet və hadisələr yoxdur.

**Kefiyyət**- predmet və hadisəyə daxilın xas olan və onun mühüm xassələri vasitəsilə təzahür edən müəyyənlik olub onun mühüm xassələrinin məcmusunu ifadə edir.

**Kəmiyyət**- predmet və hadisələrin, onlara məxsus xassələrin sayını, onları təşkil edən hadisələrin miqdarını, böyüklüyünü, intensivliyini, həllini və s ifadə edən müəyyənlikdir. Özü inkişaf edən sistemlərdə kəmiyyət inkişaf dərəcəsi, mürəkkəblik yetkinlik dərəcəsi kimidə çıxış edir. Kəmiyyət dəyişmələrinin əsaslı keyfiyyət dəyişmələrinə keçməsi həmçinin əksinə, inkişafın ümumi dialektik qanunudur. Bu qanun özünü təbiət, cəmiyyət, və təfəkkürün bütün proseslərində köhnənin yeniliklə əvəz edildiyi hər yerdə göstərir. Bu qanunu ilk dəfə Hegel tərəfindən formula edilmişdir. Bu qanuna görə gerçıkliyin bütün sahələrində inkişaf ilk baxımdan nəzərə çarpmayan kiçik, cüzi kəmiyyət dəyişmələrinin müəyyən həddindən sonra yeni keyfiyyətə keçilməsi yolu ilə baş verir. Məs. elemntar zərrəciklərdən atamlar, atomlardan molekullar, molekullardan cisimlər əmələ gəlmişdir.

Kəmiyyət və keyfiyyət dəyişmələri inkişafın təkamül və inqilab formalarına uyğun gəlir. Inkişaf prosesində təkamül inqilab- inqilabdan əvvəl gəlməklə onu hazırlayır inqilab isə onu başa çatdırır və öz növbəsində yeni təkamül prosesi üçün zəmin yaradır. Vahid inkişaf prosesi həm yavaş, tədricən kəmiyyət dəyişmələrinə uyğun gələn təkamülün, həm də sürətlə baş verən əsaslı keyfiyyət dəyişmələrinə uyğun gələn inqilabın vəhdətində həyata keçir. Inkişafın bu iki tərəfini nə ayırmaq, nə də eyniləşdirmək olar. Məs. E.Darvinin biologiyada təkamül nəzəriyyəsi həm

keyfiyyət həm də kəmiyyət dəyişmələrini əhatə edən inkişaf anlayışı kimi işlətmişdir.

İnkişaf prosesində bir keyfiyyətdən başqasına keçməsi fasiləsiz baş verən kəmiyyət dəyişmələrinin kəsilməsi, fasilə verməsidir.

**Bu da sıçrayış anlayışı ilə ifadə olunur.**

**Sıçrayış** baş vermə müddətinə görə ani və uzun müddətli olur. Ani sışrayış birdəfəlik qəti zərbə kimi sürətlə, partlayışla ani baş verən keyfiyyət keçididir. Tədrici isə köhnəni yeni keyfiyyətə keçməsidir. Məs. insanın əmələ gəlməsi üzvi aləmin inkişafında çışrayış əsaslı dönüş olmuşdur. Köhnə keyfiyyətdən yenisinə tədricən keçilməsinə həyat hadisələrində də rast gəlinir. Məs. ictimai hadisə olan dilin inkişafı tədricən yeni keyfiyyət ünsürlərinin toplanması və köhnə keyfiyyət ünsürlərinin ölüb getməsi yolu ilə baş vermişdir.

## İnkarı inkar qanunu

Yeni həmişə həmişə köhnəni inkar edir və onun yerini tutur, lakin ardıcıl olaraq yeni də köhnəlir və artıq daha yeniləri tərəfindən inkar olunur. Məs, nəslin təkamülü (uşaqlar - qismən valideyndirlər amma yeni pillədə).

İnkarı inkar qanunu dialektikanın başqa qanunlarından məkan və zaman daxilindəki təsir xüsusiyyətlərinə görə fərqlənir.

İnkarı inkar qanunu bir - birilə sıx əlaqələnən inkişafın 2 əsas cəhətini ifadə etdiyindən onun məzmunu hər biri müəyyən suallarla bağlı 2 əsas problemi əhatə edir: a) inkarın dialektik xarakteri və onun inkişaf prosesində rolu; b) inkişaf prosesinin əsas meylinin xarakteri və istiqaməti.

İnkar, yəni maddi aləmin hər bir sahəsində köhnənin ölüb getməsi və yeninin meydana gəlməsidir. Bu da inkişafdır.

**İnkar -** gerçəklikdə geniş yayılan münasibətdir. Köhnənin əsasında yaranan, yeninin əskliklərin mübarizəsi, ziddiyyətlərin həll olunması yolu ilə köhnənin aradan qaldırılması **inkar** adlanır.

**İnkar** cisimlərin fərqini və ümumiliyini göstərən bütün hadisələrin fərqi və eyniyyətinin vəhdətini təcəssüm etdirən münasibətdir.

Metafizika inkara inkişafın zəruri momenti kimi yox, mütləq imkan, yəni onun məhvi kimi baxır.

İnkarın 2 tipi vardır: destruktiv və konstruktiv. Destruktiv inkar sistemin dağılmasına, onun məhvinə səbəb olur, hə cür inkişafın dayanmasına, sistemin məhv olaraq qalxmasına səbəb olan inkardır. Məsələn, Buğda dəninin üyüdülməsi, yandırılması, quş yeməsi.

Konstruktiv inkar daxili amillərlə, daxili ziddiyyətlərlə şərtlənir. Məsələn, buğdanın torpaqda inkişafı, gövdə, sünbül. Konstruktiv inkar həm proqressiv, həm reqressiv, həm də üfüqi inkişafda ibtidai ilə alinin, sadə və mürəkkəbin, mükəmməl ilə daha mükəmməlin dialektik əlaqəsini təmin edir. Konstruktiv inkarın inkişafın istiqamətindən asılı olaraq 3 növü mövcuddur:a)proqressiv: 1.transformasiya inkarı (sistemin xassələri keyfiyyəti dəyişir, başlıca strukturu saxlanılır); 2.götürmə inkarı (həm məzmunu, həm də daxili strukturu dəyişir); 3.sintez inkarı (özündən əvvəlki mərhələlərin məzmun və strukturu ilə varislik əlaqəsi yaradır) b) reqressiv, c) neytral.

**İnkişaf** - sadəcə irəliləyən prosesdir, aşağı formalardan ali formalara keçid, yəni qalxan inkişafdır. İnkişaf həm artan, həm də azalan ola bilər. Məsələn, tarixi proseslər artan inkişaf yolu ilə gedir, amma onun da enişləri olur. Bizans imperiyasının çiçəklənməsi onun süqutu ilə nəticələndi. Renessans dövrü, yeni dövr və s.

İnkişaf xaotikdir, onun heç bir istiqamətli yoxdur. İnkişaf düz xətt üzrə deyil, spiral üzrə gedir, bununla belə spiralın hər yeni dolağı əvvəlkiləri təkrarlayır, amma yeni, daha yüksək səviyyədədir.

## Təkcə, xüsusi və ümumi, onların dialektikası

**Təkcə-** ayrıcıya məxsus olan və onu bütün başqalarından fərqləndirən, fərdi, spesifik, təkrar olunmaz cəhətlərin xassələrinin məcmusudur. Təkcə ayrıcanın xarici, qeyri-mühüm, dayanıqsız, təsadüfi keçici tərəfi olub ona nəzərən hadisə kimi çıxış edir.

Ümumi- eyni sinfə daxil olan cisimlərin, hadisələrin oxşar, eyni, təkrarlanan cəhətlərinin, xassələrinin məcmusudur. Məs. mexaniki hərəkət ayrıca hərəkət forması hidrogen ayrıca elementdir. Mexaniki hərəkət bizə məlum olan hərəkət formalarından (fizika, kimyəvi, bioloji, geoloji) yalnız mexaniki hərəkətin digər hərəkət formaları ilə ümumi cəhətləri onun dəyişilmə və saxlanılmasının vəhdəti olması, araskəsməzliyi materiya, məkan və zamanla sıx bağlı olması və başqalarıdır. Mexaniki, hərəkətin təkcə cəhətləri isə onun substraktının kütlə dəyiş.məsinin isə yerdəyişmə olması, hökmən müəyyən treoktoriya üzrə davam etməsi, işıq sürətindən kiçik sürətlərlə baş verməsindən asılıdır.

Təkcə və ümumi bir-birilə sıx bağlıdırlar və bir-birini qarşılıqlı surətdə tamamlayırlar. Təkcə və ümumi müstəqil reallıqlar olmayıb, yalnız ayrı-ayrı maddi törəmələr vasitəsilə mövcuddurlar. Maddi törəmələrin (cisim, proses) inkişafı prosesində təkcə ümumiyə və ya əksinə çevrilə bilər. Məsələn: eyni bir bitki növünün ayrı-ayrı zonalarda yayılması onların xassələrində baş verən əsaslı dəyişikliklərdə aydın müşahidə olunur. Yeni şəraitə uyğunlaşmağa çalışan bitkilərdə yeni təkcə xassələr yaranır və onlara müvafiq amillərin təsiri qüvvətləndikcə bu təkcə xassələr də güclənərək əvvəlcə növün bir hissəsini daha sonra isə onu bütövlükdə əhatə edən ümumi xassəyə çevrilir.

**Xüsusi-** ayrıca ilə ümuminin dialektik əlaqəsidir. Lakin bu əlaqə daxilində təkcənin xüsusiyə münasibəti ilə ümuminin xüsusiyə münasibəti eyni olur. Xüsusi təkcə ilə ümumi arasında mərhələ olub, bir əlaqədə özünü ümumi, digər əlaqədə isə təkcə kimi aparır. Məs. Xlor halogenlər qrupuna daxil olan ayrıca bir kimyəvi

elementdir. “Xlor-halogenlər” əlaqəsi daxilində xlor təkcə, halogenlər isə ümumidir. Halbuki, “Halogenlər” təkcə, kimyəvi elementlər isə ümumidir.

**Strukt əlaqələri ifadə edən kateqoriya. Tam və hissə, element, struktur.**

**Hissə-** tamın tərkibinə daxil olan və müəyyən nisbi müstəqilliyə malik olan komponentdir.

**Tam-** öz aralarında qarşılıqlı əlaqələnən hissələrdən təşkil olunan və ehtiva etdiyi hissələrdə olmayan bir sıra əlavə xassələrə malik olan sistemdir. Məs. 1,2,3,4,5 natural ədədlər çoxluğu tam, 1,2,3 vəs. rəqəmləri isə bu tamın hissələridir. Məs. zavod-tam, sexlər isə onun hissələridir. Tam hissəsinin əlaqəsi dialektik səciyyə daşıyır. Buna görə də tam öz hissələrinin müxaniki məcmusu olmayıb, hissələrdə olmayan bir sıra əlavə xassələrə də malikdir. Tam daha dayanıqlıdır. Tam yanar ocağa bənzəyir odun parçaları (hissələri) yanıb külə dönür, alov isə dəyişilməz qalır.

Müasir elmdə tamın 3 növü var:

1. Mexaniki tam onun hissələri kütlə və enerji baxımından heç bir dəyişikliyə uğramadan tama daxil olub, çıxa bilirlər. Məs. qrun topası, sinfi təşkil edən şagirdlər.
2. Mütəşəkkil tam – onun hissələri tama daxil olub və ya ondan çıxdıqda hökmən dəyişikliyə məruz qalır. Məs.atom nüvəsi mütəşşəkil tamdır.
3. Üzvi tam-onun hissələri tamın tərkibinə daxil olarkən sərbəst inkişafa qabil olurlar: hər bir orqanizm üzvi tamdır.

**Sistem-** qarşılıqlı əlaqədə olan elementlərin kompleksidir. Element isə sistemin nisbi bölünməz komponentidir. Sistemin elementlərinin məcmusu həm də sistemin tərkibi adlanır. Məs insan orqanizmini götürən qan dövranı sistemi, əsəb sistemi, həzm sistemi, tənəffüs sistemi və s. insan orqanizm elementləri.

**Struktur-** sistemi təşkil edən elementlərin birləşməsi üsulu, elementlərin dayanıqlı stabil əlaqələrinin məcmusudur. Struktur elementlərinin zəruri nisbi, sabit, qanunauyğun əlaqələridir.

## Məzmun və forma

**Məzmun-** sistemin bütün xassələri, hərəkətləri ilə birlikdə götürülmüş elementlərin məcmusudur.

**Forma-** sistemin elementlərini və onlara məxsus hərəkətlərin təşkilidir. Məzmun və forma anlayışları bir-birinə dialektcəsinə əlaqədar olub, eyni predmetin müxtəlif cəhətlərini ifadə edirlər.

Məzmun mahiyyətin say etibarı ilə nədən ibarət olduğunu bizə deyir. Məs. N.Gəncəvinin "Yeddi gözəl" eyni məzmuna malikdir, müxtəlif formalarda təzahür edir. Forma və məzmun ayrılmaz vəhdətdirlər. Məzmun-dəyişkəndir. Forma isə nisbətən dayanıqlıdır. Məzmunda dəyişkənliklə yanaşı saxlanma, formada isə saxlanma ilə yanaşı, dəyişkənlik momenti var. Məzmun daha çevikdir, daha mütəhərrikdir. Odur ki, predmet və hadisələrin dəyişməsi və inkişafı ondan başlanır. Məs. cəmiyyətdə məhsuldar qüvvələr (məzmun) sonra isə istehsal münasibətləri (forma dəyişilir). Forma ilə məzmun arasında daimi ziddiyyət mövcuddur. Bu ziddiyyət yeni məzmunla, köhnəlmiş forma arasındadır. əvvəl məzmuna uyğun gələn forma inkişafın nəticəsində geriyə qaldığına görə onlar arasında münaqişə yaranır. Ona görə də inkişaf edən məzmun öz inkişaf səviyyəsinə uyğun forma yaradır. Feodalizm-kapitalizm-sosializm.

## Determinlik əlaqələrini ifadə edən kateqoriyalar.

**Səbəb, nəticə, zərurət və təsadüf, imkan və gerçıkilik, səbəbiyyət əlaqələri.**

Gerçəkliyin ən ümumi, universal əlaqə formalarından bir səbəbiyyət əlaqəsidir. Səbəbiyyət əlaqəsi və ya səbəbiyyət münasibəti 2 hadisə arasında elə münasibətdir ki, bu zaman onlardan biri səbəb, digəri isə nəticə rolunda çıxış edir.

Dünyada heç nə təsadüfi deyil. Nəticəni həyata gətirən hadisə səbəbdi. Məsələn 2-ci dünya müharibəsinin başlanma səbəbi böhran idi. Bəhanə Exferdinandın öldürülməsi idi.

**Səbəb 2 cismin** qarşılıqlı təsiri, nəticə isə bu qarşılıqlı təsir nəticəsində cisimlərin məruz qaldıqları dəyişikliklərdir. Səbəbin təsiri üçün əlverişli mühit yaradan, lakin öz-özlüyündə nəticə törədə bilməyən "şərait" anlayışdır və bəhanədir.

Dünyanın bütün hadisələri, bütün dəyişikliklər səbəblərin təsiri nəticəsində meydana gəlir. Səbəbsiz hadisə yoxdur. Hadisələrin obyektiv səbəbiyyətlə şərtləndiyini qəbul edən fəlsəfi təlimə **determinizm**, hadisələrin qarşılıqlı şərtlənməsi isə **determinasiya** adlanır. Səbəbiyyət əlaqəsinin bir sıra əlamətləri var:

1. 1-ci əlaməti onun 2 hadisə arasında hasiledici və ya törədici münasibət olmasıdır. Səbəb zaman etibarilə nəticədən əvvəl gəlir, o həm də öz nəticəsini törədir, doğurur onun meydana gəlməsini və mövcud olmasını genetik surətdə şərtləndirir.
2. 2-ci əlaməti onun bir istiqamətli və geriyə dönməz olması, yəni zaman asimmetriyası ilə səciyyələnməsidir. Səbəbin formalaşması həmişə nəticənin meydana gəlməsindən əvvəl baş verir.
3. 3-cü vacib əlaməti onun zəruri olmasıdır. Bu o deməkdir ki, əgər səbəbin nəticə törətməsi üçün əlverişli xərici və daxili şərait varsa, nəticə hökmən baş verməlidir.
4. 4-cü əlaməti onun məkan və zaman etibarı ilə kəsilməzdir.
5. 5-ci əlaməti onun ümumi səciyyə daşımasıdır yəni dünyada elə hadisə yoxdur ki, onun meydana gəlməsi və mövcudluğu səbəblə bağlı olmasın.
6. 6-cı əlaməti onun obyektiv olomasıdır. Səbəbiyyət obyektiv mövcud olub insan şüurundan asılı deyil, o varlığın ən ümumi forması kimi gerçəkliyin bütün hadisələrini əhatə edir. Səbəb və nəticənin dialektik qarşılıqlı əlaqəsi özünü onların yerlərini dəyişərək səbəb-nəticə zənciri yaratmasındadır, yəni baxılan səbəb özündən sonra nəticə yaradır, bu nəticə isə öz növbəsində yeni bir nəticənin səbəbinə çevrilir və bu proses davam edir.

Səbəbiyyət daxili və xarici, başlıca və qeyri-başlıca, zəruri və təsadüfi olur. Daxili səbəb verilmiş hadisənin, daxili tərəfləri, hadisələri meylləri arasındakı qarşılıqlı təsirdir. Xarici səbəb- bir obyektin, digər obyektə təsiridir.

Başlıca səbəb hadisənin mahiyyətində mövcud olan və prosesi bütövlükdə təyin edən səbəbdir.

Qeyri-başlıca səbəb isə köməkçi rol oynayan, prosesi surətləndirən və ya ləngidən səbəbdir. Zəruri səbəb- predmetin daxili təbiəti ilə şərtlənir və buna görə də olduğundan başqa cür ola bilmir. Təsadüfi səbəb isə cismə nəzərən xarici amillərlə müəyyən olduğundan mövcud ola da bilər, olmaya da.

## Zərurət və təsadüf

**Zərurət-** baş verməsi qanuna tabe olan hadisədir. Məsələn: fəsillərin bir-birini əvəz etməsi zərurətdir, bizdən asılı deyil, qocalıb-ölmək.

**Təsadüf-** inkişaf edən sistemin mahiyyətindən, qanunauyğunluqlarından deyil xarici əlaqə və münasibətlərindən törəyən və baxılan şəraitdə baş verməsi labüd olmayan, baş verədə bilən, verməyə də bilən və buna görə də baş verməsi ehtimalı vahiddən kiçik olan hadisədir. Məsələn: dolu vurması nəticəsində sünbülün məhv olması təsadüf, əlverişli şəraitdə dənin cücərib sünbülə çevrilməsi isə zərurətdir.

**Zərurət**- hadisələrin inkişaf qaydasını müəyyən edən qanunauyğunluq kimi təbiət və ictimai həyatın bütün sahələrində hökm sürür. Məsələn: təbiətdə ilin fəsillərinin, gecə və gündüzün bir –birini əvəz etməsi təsadüfi əlaqələr dayanıqsız olub prosesi bütövlükdə deyil, yalnız aqyrı-ayrı, xüsusi tərəfləri baxımından səciyyələndirir. Zərurət prosesin daxili, təsadüf isə xarici tərəfləri ilə bağlıdır.

Təcrübə əsasında həqiqətin düzgünlüyünü aşkar etmək olar. Zərurət və təsadüfün dialektik əlaqəsini ilk dəfə Hegel inkişaf etdirmişdir. 1-ci moment zərurət və təsadüf bir-birini həm tələb həm də inkar edirlər. Gerçəklikdə nə xalis zərurət, nə də xalis təsadüf var.

2-ci moment təsadüfün xarakteristikası ilə bağlıdır. Təsadüf zərurətin təzahür formasıdır. zərurət həmişə özünə təsadüflər vasitəsilə yol açır. Məsələn ictimai tərəqqi zəruri qanunlara tabe olsada özünə bir sıra təsadüfi meyllər vasitəsilə yol açır.

3-cü moment təsadüfün zərurəti tamamlamasıdır. Yəni zəruri nəticə ona yenilik gətirən, onu zənginləşdirən təsadüfi momentlər ilə tamamlanır.

4-cü moment onların bir-birinə çevrilməsi prosesi ilə bağlıdır. Zərurət və təsadüfün dialektik əlaqəsi maddi sistemlərin inkişafının özündə kök salıb bu proseslə imkanın gerçıkliyə çevrilməsinin dialektikası ilə bağlıdır.

**Mahiyyət və təzahür**

Dialektika baxımından mahiyyət və təzahür obyektiv reallığın müxtəlif səviyyəlridir.

**Mahiyyət-** bu və ya başqa prosesin daxili, dərin, gizli, nisbi, dayanıqlı tərifi, onun təbiətini müəyyən edən zəruri cəhətlərin və başqa mühüm xarakteristikaların məcmusu başa düşülür. Mahiyyət, predmet və hadisələrin mahiyyəti həmişə bizə bağlıdır, sirlidir. Mahiyyət heç vaxt tam üzə çıxmır.

**Təzahür-** bu və ya başqa predmetin xarici, səthi, müşahidə olunan, adətən mütəhərrik, daha dəyişkən olan xarakteristikalarının məcmusudur. Təzahür həmişə bizə mahiyyətin əsl üzünü göstərir. Təzahür və mahiyyət dialektik surətdə bir-birilə bağlı əksliklərdir. Təzahür mahiyyəti, mahiyyət isə təzahür tələb edir. Onların münasibəti ziddiyyətlidir. Başlıca momentlər aşağıdakılardır.

1. Mahiyyət bütün prosesi deyil, onu yalnız qismən əhatə edir. O həm də prosesin ən mühüm hissəsini ehtiva edir.
2. Mahiyyət gerçəkliyin daxili, təzahür isə onun xarici tərəfidir.
3. Hər bir hadisədə mahiyyət ancaq qismən təzahür edi8r, onun digər tərəfləri isə başqa hadisələr vasitəsilə təzahür edir.

Mahiyyət dayanıqlı, təzahür isə dəyişkəndir. Bu əksliyi kəskin xarakter alanda təzahür görünüş adlanır. Görünüş mahiyyətə tam əks olan təzahürdür. Görünüşə misal: günəş yer ətrafında fırlanan kimi görünməsini göstərmək olar, əslində isə yer günəş ətrafında fırlanır.

Mahiyyət və təzahür kateqoriyaları məzmun və forma ilə üzvi surətdə bağlıdır. Mahiyyət və məzmun kateqoriyaları üst-üstə düşür. Lakin məzmun daha genişdir. Mahiyyət və təzahür kateqoriyalarının idrakın hissi və rasional pillələrini təyin edilməsi üçün mühüm əhəmiyyəti vardır. Idrakın hissi və məntiqi formalarının başlıca fərqi odur ki, insanlar birinci pillədə maddi sistemlərin xarici tərəfini yəni təzahürünü, 2-ci pillədə onların mahiyyəti əks etdirirlər. Təzahür duyğularda, qavrayışlarda verilir, mahiyyəti əks etdirmək üçün anlayışlar işlənib hazırlanırlar. Bu kateqoriyalar gerçəkliyin düzgün və dərin idrakına nail oolmaq və onu dəyişdirmək üçün insanların istifadə etdirmələri çox mühüm vasitələrdir.

## İmkan və gerçəklik

Dialektika imkan və gerçəklik kateqoriyalarının məzmununa məhz inkişaf prosesinin müxtəlif pilləri kimi baxır.

**İmkan-gerçəklik-** bu da səbəb və nəticədi.

**İmkan** – daxili səbəbiyyət, bu və ya digər prosesin baş verməsinin daxili səbəbidi. Imkan- şərait yarandıqda daxili potensialın həyata reallaşmasıdı. Yəni hər bir imkan gerçəkləşə bilər, konkret şəraitdə imkan- bu və ya başqa hadisənin prosesin yaranmasının ilkin şərti, onun potensial mövcudluğudur.

**Gerçəklik-** həyata keçmiş, reallaşmış imkandır. Imkan-mümkün olan, gerçəklik isə mövcud olandır. Hər bir yeni mövcud olmazdan əvvəl köhnə dərinliklərində imkan halında mövcud olur. Yeninin yaranması həmişə imkanın gerçəkliyə çevrilməsidir. Məsələn: hər bir rüşeymin inkişaf edərək yetişmiş orqanizmə çevrilmək imkanı vardır. Yetişmiş orqanizm isə gerçəklikdir. Imkan və gerçəklik-hadisənin 2 ardıcıl inkişaf pilləsi, onu səbəbdən nəticəyə doğru

hərəkətidir, təbiətdə, cəmiyyətdə və təfəkkürdə səbəbiyyət münasibətlərinin formalaşmasının 2 mərhələsidir.

Imkan konkret sistemin inkişaf meyli, gerçəklik isə imkanın maddi əsasıdır. Gerçəklikdən kənarda imkan yoxdur. Gerçəkliyin özü kimi imkanda obyektivdir. Imkan 2-ci olub, ondan gerçəklikdən törəmədir. Hər cür təsadüf imkandır, hər cür imkan isə təsadüf deyildir. Bu o deməkdir ki, reallaşıb gerçəkliyə çevrilmə ərəfəsində imkan zərurət olur. Imkanın təsadüflə əlaqəsi ehtimal kateqoriyası ilə ifadə olunur. Ehtimal imkanın kəmiyyət xarakteristikası, onun ölçüsüdür. Imkan reallaşaraq gerçəkliyə çevrildiyi üçün onların məzmunu eynidir, lakin bu mütləq eynilik deyil, imkanın gerçəkliyə çevrilməsi üçün şəraitdən başqa müəyyən təsirdə olmalıdır. Bu təsir isə ya təbiətin kortəbii qüvvələri, ya da insanların şüurlu fəaliyyəti ola bilər.

## Fəlsəfədə şüur problemi

***Şüur***- beyninin fəaliyyəinin məhsuludur və o, beyinə yalnız hiss üzvləri vasitəsilə xaricdən edilən təsirin sayəsində yaranır.

***Şüur***-insanın dünyaya münasibəti, dünyanın insan tərəfindən nəzəri mənimsənilməsidir. Şüur öz mahiyyəti etibarı ilə dünyagörüşüdür. Dünyagörüşü şüurun atributudur və bu mənada şüurun formalaçması dünyagörüşünün formalaşması dünyagörüşünün formalaşması deməkdir. Şüur obyektiv aləmin psixi inikasının yüksək formasıdır.

Şüurun mövcudluq üsulu – bilikdir. Şüurun inkişafının hərəkətverici qüvvəsi ictimai praktikadır. Şüurun funksiyası- insanın davranış və hərəkətlərinin tənzimləməkdir. Deməli şüur ictimai inkişafın məhsuludur.

**Şüurun obyekti-** maddi dünya, təbiət, cəmiyyət və öz şüuru ilə birlikdə götürülən insandır.

**Şüurun subyekti-** tarixi prosesdə götürülən konkret tarixi şəxsiyyətdir.

**Şüurun substraktı-** fizioloji, biofiziki neyrodinamik, proseslərdir.

**Şüurun orqanı- beyindir.**

**Şüurun predmeti -** ətraf dünya,onun əşya və hadisələri,ali dünya ilə həm bağlı olan,həm də bağlı olmayan xüsusi,müstəqil,mənəvi dünya

Şüurun bütün formaları ideal olub insanın mənəvi dünyasını təşkil edir. Şüur anlayışına obyektiv aləmin müxtəlif formaları daxildir. Buraya insanı gerçək aləmlə bilavasitə əlaqələndirən elementar inikas formalarından (duyğu, qavrayış, təsəvvür) tutmuş beyninin yüksək məhsulu olub, cisim və hadisələrin dərin mahiyyətini, onların qanunauyğun əlaqələrini əks etdirən abstrakt təfəkkürə qədər hər şey (anlayış, mühakimə, əqli nəticə) daxildir.

Şüurun meydana gəlməsini və inkişafını təmin edən xarici və daxili amillər determinatorlar adlanır. Xarici determinatorlar təbiət və cəmiyyətdir. Buna görə də şüura onlar haqqında fikirlər daxildir. Bu mənada şüur obyektiv aləmin subyektiv obrazıdır. Şüur yalnız insana məxsus olub müəyyən ictimai həyat şəraitində meydana gəlib. Yəni cəmiyyət şüurun sifarişçisidir. Təbiət onun mühəndisi, insan isə daşıyıcısıdır. Şüur daxili amillərlə determinə olunur. Yəni insan şüuru həm də neyrofizioloji və psixologiya qanunlarına tabedir. Bu halda şüurun fizioloji şərtlənməsi obyektiv və maddi onun psixoloji determinasiyası isə subyektiv ideal səciyyə daşıyır.

**Mənlik şüuru-** insanın özü-özünü əks etdirməsi, özünün ətraf dünyadan ayırmaq qabiliyyəti, özünün dünyaya münasibətini, bir şəxsiyyət kimi bütövlükdə özünü, özünün hərəkətlərini, düşüncələrini, maraqlarını, ideallarını və s. başa düşmək və qiymətləndirmək daxildir.

**Şüurun ictimai və fərdi formaları vardır.**

**Fərdi şüur**- bir insana xas olan ideyalar, baxışlar sistemidir.

**İctimai şüur**- müəyyən insan qrupuna xas olan ideyalar, baxışlar sistemidir.

**Şüurun xüsusiyyətləri:** psixi proseslər, fərqləndirmə, mənlik şüurur, məqsədin olması və ictima-tarixi xarakter daşımasıdır. Qədim materialistlər Demokrit, Epikur, Lukretsi və b. nəzərincə, şüur insan bədənindən asılı olub, insana anadangəlmədir, insan öldükdən sonra oda yoxa çıxır. Bədənsiz şüur (ruh) heç nədir.obyektiv və subyektiv idealizmin nümayəndələri Platon, Berkli, Hegel, Şellinq isə şüuru (ruhu) maddi gerçəkliyin əsasına qoymuş, onu materiyaya nisbətən müəyyən edici və ilkin substansiya hesab etmişlər. Dekarta görə şüur təfəkkür "fikirləşən substansiyanın fəaliyyətidir" müstəqil mövcuddur, bədən maddi olandan asılı deyildir. Materiyada "fikirləşən" substansiyadan asılı deyildir. XVIII əsr materialistləri Spinoza, Diaro isə materiyanın atributu, onun bütün təzahür formaları və növlərinə xas olan əbədi xassəsi hesab etmişdir. Şüur xüsusi ideal təbiətə malikdir yəni mahiyyətə.

**Şüurun mənşəyi haqqında fikirlər 3 qrupa bölmək olar**.

1. Şüur kosmik (ilahi) mənşəlidir. Yəni öz-özünə onun maddi daşıyıcılarından asılı olmayaraq mövcuddur. Allah zəkasından gəlir. Mahiyyətinə görə tamdır.
2. Şüur bütün canlı orqanizmlərə xasdır (bioloji).
3. Şüur istisnasız olaraq insani xassədir (insanı nöqteyi-nəzərdən)

Fəlsəfədə şüur probleminə bir neçə yanaşma mövcuddur.

1. Solipsizm- idealist yanaşmalar fərdin şüurun yeganə düzgün hesab edən maddi dünyanı onun törəməsi (Berkli, Fixte)
2. Obyektiv idealizm həm şüuru, həm də materializmi qəbul edir şüuru birinci hesab edir.
3. Mötədil materializm- şüur materiyasının xüsusi xassəsidir, yüksək inkişaf etmiş materiyanın öz-özünə əks etdirmək qabiliyyətidir.
4. Fizikalizm- şüurun mahiyyətinə materialist yanaşma, şüur materiyasının törəməsidir və fizika və digər təbiət elmlərinin köməyi ilə izah edilə bilər.

Fizikalizmin bir neçə neopozivizm çərçivəsində istiqaməti mövcuddur. **Eyniyyət nəzəriyyəsi**- ruhi prosesləri digər cismani proseslərlə eyniləşdirir- qan dövranı, tənəffüs, beyin prosesləri. Eliminasiya- "ruh", "mənəvi" anlayışlarının köhnəlmiş və qeyri-elmi olduğunu isbat edirlər.(Feyerbend)

**Vulqar materializm-** qaraciyər, öd ifraz etdiyi kimi beyində fikir ifraz edir.

Marksist fəlsəfədə şüurun mahiyyəti haqqında materialist yanaşma geniş yayılmışdır. Bu daha çox inikas nəzəriyyəsi adı ilə tanınır. Bu nəzəriyyənin mahiyyəti odur ki, şüur yüksək inkişaf etmiş materiyanı inikasetdirmə xassəsidir. Inikas nəzəriyyəsinin əsas anlayışları aşağıdakılardır.

- inikas
- qıcıqlandırma
- hisslik
- psixi inikas
- inikasın şüurlu forması

Ümumiyyətlə materiyaya inikas etdirmə xüsusiyyət xasdır. Inikas- maddi obyektlərin digər maddi obyektlərlə qarşılıqlı təsirdə olmaları nıticısində özündə onların izini buraxmaq qabiliyyətidir. Inikasa çoxsaylı misallar göstərmək olar: bədəndə cızıqlar, insanın qruntda izi, qruntun insan ayaqqabısında izi, bir əşyanın digər əşya ilə toqquşması nəticəsində əmələ gəlmiş izlər və s. İnikasın elementar formaları aşağıdakılardır:

- mexaniki
- fiziki
- kimyəvi

Lakin inikasın əsas forması bioloji inikasdır. Onun əsas spesifikası odur ki, o yalnız canlı orqanizmlərə xasdır. Onun köməyi ilə canlılar həm canlı, həm də cansız obyektləri inikas etdirir.

Bioloji inikasın əsas formaları:

- qıcıq
- hisslik
- psixi inikas.

Qıcıq-bioloji inikasın sadə forması olub, canlı orqanizmlərin (hətta bitkilərin) ətraf dünyanın (canlı və cansız) predmet və hadisələrinə reaksiyadır. Məsələn, bitki yarpaqlarının istidən quruması, yağışdan formalarını dəyişməsi, günəbaxanın günəşə tərəf dönməsi və s.

Hisslik bioloji inikasın daha ali forması-canlı orqanizmlərin ətraf dünyanı duyğular vasitəsilə inikas etdirməsi.

Psixi-inikas duyğuların düşünülməsi, sistemləşdirilməsi, canlı orqanizmlərin ətraf mühitə uyğunlaşmaq məqsədilə davranışlarını modelləşdirmək qabiliyyəti.

Şüur- bioloji inikasın ən ali forması. Insana, qismən də ali heyvanlara xas xüsusiyyət. Şüur ətraf dünyanın daha tam inikası və düşünülməsidir, mücərrədləşdirmə və refleksiya qabiliyyətidir.

## İnsanın fəlsəfə problemi

İnsan canlı varlıqların ən alisi və mədəniyyətin subyektidir.İnsan xüsusi canlıdır.Bir tərəfdən bioloji əsasa(başlanğıca),digər tərəfdən mənəvi(ruhi) əsasa dərin mücərrəd təfəkkürə,nitqə(bu cəhət heyvanlardan fərqləndirir),yüksək öyrənmək qabiliyyətinə malik olan mədəniyyətin nailiyyətlərinin ərz edən ,yüksək səviyyədə sosial təşkilata malik olan biopsixososial varlıqdır.Deməli insan sosial-bioloji varlıqdır və müasir sivilizasiya şəraitində tərbiyə,qanunlar əxlaq normalarının təsiri ilə insanin sosial başlanğıcı bioloji amillərə nəzarət edir.İnsanın formalaşmasının ən birinci və mühim amili olan əmək kollektiv,sosial mahiyyət daşıyır.Əmək nəticəsində insan insana bənzər əcdadlarından ayılır və yeni sosial keyfiyyətlər əldə edir: dil,nitq,təfəkkür,ünsiyyət,əqidə,inam,dünyagörüşü və s.

Psixoloji planda isə insanda ilkin instinktik qabiliyyət formalaşır.Bu proseslər nəticəsində bioloji növ olan homosapiens-ictimai münasibətlərə girən ağıllı insan meydana gəlmişdir.Hələ qədim dövrlərdən filosofları ` insan problemi`

maraqlandırmışdır.Antik fəlsəfə insanı `mikrokosm` adlanır.Ona kainatın bir hissəciyi kimi baxırdı.Orta əsrlər İslam fəlsəfəsində insanın mənəvi simasını müəyyən edən 2 başlıca xətt var: özünü dərk etmək,cəmiyyəti dərk etmək

XVIII əsr filosoflarının fikrincə insan azad doğulur,lakin azad olmur.Onun azadlığı yalnız ictimai müqavilə əsasında mümkündür.Yəni cəmiyyətin həyatını tənzimləyən müəyyən qanunlar verilməlidir.Yeni dövr filosofları insanı təbiəti münasibətləri sisteminə daxil edir və onu idrakın predmeti hesab edirdilər.Onlar insanı bioloji,sosial,etik aspektə tətbiq edirdilər.XIX əsr klassik Alman filosoflarından Ferbax insanı təbiətdən ayırmır və onu konkret varlıq kimi götürürdü.XX əsr cərəyanları personalizm və şəxsiyyəti ilkin yaradıcı reallıq ən dəyərli mənəvi sərvət hesab edirdi.Personalizmə görə şəxsiyyət Allahın xüsusi və müvəqqəti daşıyıcısıdır.Onlar insanın bütün bədbəxtliyini texnikanın inkişafında görürdülər.

Neotalizm cərəyanının nümayəndəsinin fikrincə  insan yaranır və təbiət qanunlarına tabe olur.Onun qəlbi,ruhu isə Allah tərəfindən yaradılır.Məhz buna görə də o ölməzdir.İnsanın əsas məqsədi  Allaha qovuşmaqdır.

İnsan son dərəcə mürəkkəb varlıqdır.O,təbiətin törəməsi,onun yüksək məhsuludur.İnsan fiziki və mənəvi ,təbii və sosial,irsən keçən və həyatda əldə edilənləri bir vəhdət kimi özündə birləşdirən canlı varlıqdır.İnsan bioloji varlıqdır.O,fərd kimi dünyaya gəlir və dünyaya gələrkən insan vücudunun spesfik quruluşu,beyin strukturunun genetik məlumat ehtiyatını irsən toplayır.İnsanda təbii istedad əlamətləri ancaq yaşlı cəmiyyətin üzvləri ilə ünsiyyət prosesində sosial həyat tərzində yaranır və inkişaf edir.İnsan həm təbiətin,həm də cəmiyyətin təsiri altında formalaşır.İnsan həm də sosial varlıqdır.Çünki cəmiyyətdən kənar insan olmaq mümkün deyildir.Həyat,inkişaf,təbiət insanın şəxsiyyətə çevrilməsinin əsas şərtlərindən biridir.Bioloji fərdin sosial-biloji varlığa çevrilməsi prosesində praktika və əmək böyük rol oynayır.İnsan cəmiyyət üçün faydalı bir iş ilə məşğul olarsa onda o, öz sosial əhəmiyyətini qiymətləndirə və şəxsiyyətin bütün

imkanlarını aşa bilər.İnsanda anadan gəlmə və sonradan qazanılan keyfiyyətlər mövcuddur:insanlıq,humanizm,vicdan,şərəf,təvazökarlıq,alicanablıq,

ədalət,sədaqət və s.

İnsanı sınağa çəkən keyfi : lovğalıq,dözümsüzlük,kobudluq,qorxaqlıq və s.

İctimai faydalı keyfiyyətlər:əzm,iradə,qətiyyət,müdiriklik,əqidə,vətənpərvərlik,məqsədyönlülük,bacarıq

Antropoloqlar insanın əmələ gəlməsini bioloji təkamül prosesi ilə izah edirlər.Burada antropogenizis və sosiogenes qarşılıqlı əlaqədə olduğunu söyləmişlər. Müasir elm sübut edir ki,insanlar insanabənzər meymunlardır.ümumi kökdən təxminən 12-15 milyon il əvvəl ayrılmışdır.Ən qədim insan Şərqi Afrikada , Cənub-şərqi Asiyada insanın bu ulu əcdadları `Ramapiteklər` adlanır.Efiopiyada,Tanzaniyada 3-3,5 milyon il hesab edilən hominizlərin qalıqları tapılmışdır.Onlara nisbətən inkişaf etmiş insanlar  pitekontroplar adlanır.Yeni mərhələ `neondanterlar,kromanyonlar` adlanırlar.

Antropososiogenezdə əmək hipotezi mühim yer tutur.

I kompleks xarakter daşıyır və insan probilimenin öyrənilməsində bütün humanitar ……..

…….. düzgün müəyyənləşdirmək üçün bütun genezisi(təbii,elmi,psixoloji,mənəvi və ictimai)nailiyyətlərini ümumiləşdirmək lazımdır.İnsanın soial təbiətini öyrənən elm `fəlsəfə`dir.Əməyi təhlil edərkən görürük ki,əməyin özüdə təbii prosesdir.Çünki o insan prosesinin əsasını təşkil edir.Nitq,insan psixikası və təfəkkürünün yaranması insanın inkişafına mühim təsir göstərir.Nitqin inkişafı nəticəsiində insan beyni inkişaf etmişdir.

## İdrak və onun strukturu

Fəlsəfənin idrak prosesini öyrənən sahəsi qneseoloji (bilik haqqında təlim) adlanır. Bu anlayışı ilk dəfə 1854-cü ildə Şotlandiyalı alim C.Ferrer fəlsəfəyə gətirib. İdrakın fəlsəfi təhlili aşağıdakı məsələləri əhatə edir: *dünyanı dərk etməyin mümkün olub-olmaması, idrak prosesinin strukturu, pillələri və meyarları, idrakın ümumi qanunauyğunluqları və metodları, həqiqi biliyin mahiyyəti və dəyərlər ilə münasibəti*. İdrak gerçəkliyin insan şüurunda məqsədyönlü inikası prosesdir. İdrak prosesi, insanın praktiki fəaliyyəti əsasında baş verir. Onun mahiyyətini gerçəkliyin mənəvi mənimsənilməsi təşkil edir. İdrak nəticəsində əldə olunan biliklər (təbiət, cəmiyyət və təfəkkür qanunları) insanın praktik fəaliyyətində müstəsna dərəcədə böyük rol oynayır. İnsan öz fəaliyyətini həmin qanunları və xassələri nəzərə almaqla təşkil edir və istənilən nəticələri alır. İdrak prosesi insanın əvvəldən malik olduğu biliklər və təsəvvürlər dəyər oriyentasiyası, tələbatları prizmasından keçərək baş verir.

Insanın idrak fəaliyyəti nəticəsində **bilik** əldə olunur və o, 3 mənada işlədilir.

1. Insanın müəyyən qabiliyyəti (bacarıq və vərdişlər).
2. Biliyin 2-ci mənası onu idrakı əhəmiyyət kəsb edən hər cür informasiya ilə eyniləşdirir.
3. 3-cü mənası onu xüsusi idraki vahid kimi səciyyələndirir.

Bilik idrak prosesinin məhsuludur.

**İdrak obyekti-** subyektin praktiki və idraki fəaliyyətinin istiqamətləndiyidir. Insandan asılı olmayaraq mövcud olan şeylər (kimyəvi elementlər, fiziki cisimlər, canlı orqanizmlər) həm də sosial hadisələr (cımiyyət, adamların qarşılıqlı münasibətləri, onların davranışı və fəaliyyəti) ola bilər.

**İdrakın subyekti-** konkret cəmiyyət, onun obyekti isə cəmiyyətin və insanın mövcudluğunun və inkişafının zəruri şərti olan təbiətdir. Bilik informasiyanın müəyyən xüsusi növüdür, hər cür informasiya bilik demək deyildir. İnformasiya bir sıra dəyişikliklərə məruz qaldıqdan sonra biliyə çevrilir. Bilik elmin mənəvi

tərəfi, şüurun mövcudluq üsuludur. Biliyi insanlara çatdırmaq üçün xüsusi dil və işarə formalarından istifadə olunur. İzahedicilik və qabaqgörənlik elmi biliyin mühim funksiyalarıdır. Strukturundan və inkişaf xarakterindən asılı olaraq biliyin *empirik və nəzəri* səviyyələri vardır. Biliyin yüksək səviyyəsini nəzəri bilik təşkil edir. Empirik səviyyədə müşahidə, müqayisə, ölçmı, eksperiment metodlarından istifadə olunur.

## İdrak prosesinin strukturu

**İdrakın tərkibində 2 əsas səviyyəni** hissi və rasional ayırmaq olar.

Hissi idrakın formaları: *duyğu, qavrayış,təsəvvür və emosiya*.

İdrak prosesinin ilkin, başlanğıc mərhələsi hissi idrakdır. 1) hissi idrak xarici aləmin cisim və hadisələrinin insan beynində bilavasitə, konkret inikasından ibarət psixi prosesdir. 2) hissi idrak gerçəkliyin konkret inikasıdır.

**Duyğu-** obyektiv aləmin subyektiv obrazıdır. Allah insana 5 duyğu orqanı verib (lamisə) *eşitmə, görmə, dad, iy bilmə*. Duyğu məzmun etibarı ilə obyektiv, forması etibarı ilə subyektivdir. Məsələn,biz yanğı ağrısını ona görə duyuraq ki, dərimizə od, qizdırılmış cisim təsir etmişdir və bu orqanizmin xarici təsirə cavab reaksiyasıdır. Duyğu predmetin ilkin, obrazlı inikasının ən elementar formasıdır.

**Qavrayış-** predmetin bütöv obrazıdır. Bu obraz insana məxsus olan bütün amalizatorların, yaxud da onların heç olmasa bir neçəsinin birgə fəaliyyəti nəticəsində yaranır. Məs. gözümüz əlimizdə tutduğumuz almanın rəngi, forması, burnumuzun iyi, dərimiz forması və temperaturu haqqında məlumat verir, bu məlumatların birləşməsi nəticəsində şüurda almanın bütöv obrazı qavrayışı yaranır. Qavrayış predmetin müxtəlif təzahürlərinin fəal sintezi sayəsində yaranır. Buna görə də cismin qavranılması fəal və yaradıcı prosesdir. Məsələn, biz baxdığımız

evin yalnız bir hissəsini görsəkdə ev qavrayışı onu bir müstəvidə deyil, bütövlükdə əks etdirir.

**Təsəvvür-** qavrayışın bir növ reproduksiyasıdır. Təsəvvür ümumidir, idrakın məqsədəuyğunluğu təsəvvürdə daha güclüdür. Təsəvvür predmetin insanı maraqlandıran cəhətləri ön plana çəkilir və qeyri-mühüm tərəflərdən sərfnəzər edilir. Buna görə də biz təkcə qavranılası deyil qavranılmayan predmetləri də təsəvvür edirik, çünki təsəvvür həm təxəyyül həm də fantaziyadır. Məs. kentavr, menatavr, su pərisi və s.

**Emosiya-** hiss anlayışı vasitəsilə biz insanın emosiyasının qəzəb, qorxu, kədər, məhəbbət, nifrət, ləzzət, simpatiya, razılıq, narazılıq və s. növlərində ayırırıq. Emosiya insanın hər hansı bir hadisəyə reaksiyasıdır. Emosiya mövcud olan hadisəyə verdiyimiz qiymətdir.

## Rasional idrak

Xarici aləmdəki obyektlərin mahiyyəti və inkişaf qanunauyğunluqları məhz rasional idrakla aşkar olunur. Məhz məntiqi təfəkkür mərhələsində müxtəlif fikri əməliyyatlar aparılır və dolğun hərtərəfli bilik əldə olunur. Rasional idrakın 3 əsas forması var: **anlayış, hökm, mühakimə və əqli nəticə.**

**Anlayış-** obyektin ən ümumi, mühüm və zəruri xassələrini əks etdirən formadır. Hər cür təfəkkür, fikri əməliyyatlar onun vasitəsilə aparılır. Anlayış bütün fikir aktlarının əsasında duran hüceyrə rolunu oynayır. Anlayışlar birdən-birə əmələ gəlmir, bir sıra mərhələlərdən keçir. Əvvəlcə insanlar öz hiss üzvlərinin, duyğularının məlumatlarını qruplaşdırır. Dünyadakı obyektlərin əsas xassələrini seçib götürür, digərlərini digərlərini bir kənara atılır, sonra müqayisə edilir və ümumiləşdirilir. Axırda isə söz və söz birləşmələrində ifadə olunan adlar alınır.

**Hökm-** təcrübədə əldə etdiyimiz bilikləri ifadə etmək üçün lazımdır.

**Mühakimə-** cismin hər hansı əlamətini, xassəsini, onun maddi aləmini digər cisim və hadisələri ilə əlaqəsin, habelə meydana gəlməsini,funksiyalaşmasını və

inkişafını əks etdirən fikirdir. Mühakimə cisim və hadisələr haqqında nə isə ya iqrar, ya da inkar edilir. Insan öz fikrini hökmən müəyyən mühakimə formasında ifadə edir. Mühakimədə cisim və predmetlərin hər cür xassəsi, keyfiyyəti, əlaməti, əlaqə və münasibətləri əks olunur. *Fikirləşmək*- mühakimə yürütmək deməkdir. Mühakimə yürütmək isə cismi, hadisəni, prosesi fikrən mənimsəməkdir. Səsli dildə mühakimə cümlə formasında ifadə olunur.

Məntiqi idrakın əsas formalarından biridə **əqli nəticədir**.

**Əqli nəticə-** onun vasitəsilə obyektiv aləmin cisim və hadisələri haqqında verilmiş həqiqi mühakimələrdən yeni mühakimə çıxarılır. Insanın yürütdüyü bütün mühakimələrdə ya bilavasitə yə da dolayı bilik olur. Insan hiss orqanlarının bilavasitə əks etdirə bilmədiyi hadisələri əqli nəticə ilə qavrayır. Əqli nəticənin növləri: **İnduktiv**-*təkcə və xüsusi mühakimələrdən ümumi nəticə çıxarır.* Məsələn, metallar qızdırıldıqda genişlənir. **Deduktiv-** *ümumi mühakimədən xüsusi nəticə alınır, bu zaman insan biliyi ümumidən-abstrakdan, xüsusiyə-konkretə qayıdır.* Məsələn, bütün metallar elektriki yaxşı keçirir və "mis" metaldır. əqli nəticə-mis metalı yaxşı keçirir.

**Traduktiv**- xüsusi nəticə, xüsusi mühakimələrdən, ümumi- ümumi mühakimələrdən çıxarılır. əsas növlərindən biri analogiyadır.

**Analogiya -** elə əqli nəticədir ki, bu zaman ikisnə daha çox predmetin hadisənin bir neçı əlamətinin oxşarlığından onların digər əlamətlərinin də oxşar ola bilməsi nəticəsi çıxarılır. Məs. X.Hüygens səs və işığın eyni əlamətlərə (əks olunma, sınma, dispersiya, difraksiya) malik olması faktından səs kimi işığın da dalğa təbiətli olması nəticəsinə gəlib çıxmışdır.

## Fəlsəfədə həqiqət problemi

**Biliyin gerçəkliyə uyğunluğu məsələsi fəlsəfədə həqiqət problemi adlanır.** Həqiqəti dərk etməyin yeganə yolu təcrübədir. əldə etdiyimiz həqiqət təcrübə ilə üst-üstə düşürsə deməli bizim əqli nəticəmiz düzdür, yan keçirsə ziddiyyət yaranırsa yaxlamağa ehtiyac var o səhv deyil.

Fəlsəfədə həqiqət probleminə müxtəlif yanaşmalar var.

1. Bəli, həqiqət var biz ona nail ola bilərik.
2. Həqiqət nisbidi, mütləq həqiqət dünyada ola bilməz. Sual olunur niyə? Materiya daim hərəkət edir, o öz hərəkətini dayandırsa, məhv olacaq, o dayana bilməz. O daim dəyişir, daim inkişaf edir. Tərəqiyyə ya tənəzzülə doğru. Bu günün həqiqəti illər sonra həqiqət olmayacaq. Sokrat deyir: hər şey dəyişir. 20 yaşımda gur saçlarım var idi, 50 yaşda bu həqiqət deyil. Mütləq həqiqət olması üçün gərək hər şey dayansın, biz dayanmış dünyanı dərk etdik, həqiqəti üzə çıxartdıq. Bu mütləq həqiqətdir.

**Mütləq həqiqət-** hadisə haqqında qazanılmış dolğun, hərtərəfli, bitkin formada olan, elmin və praktikanın sonrakı inkişafı ilə təkzib olunmayan bilik mütləq həqiqət adlanır.

Konkret biliklərimiz, cəmiyyətin, elmin, texnikanın inkişaf səviyyəsindən asılı olan həqiqət nisbidir. Hər bir nisbi həqiqət özlüyündə mütləq həqiqətin zərrəsi, mütləq həqiqət isə nisbi həqiqətlərin sonsuz ardıcıllığının hüququdur.

Həqiqətin **yanılma** və **yalan** ilə, əlaqəsinə diqqət edək.

**Yanılma-** çox vaxt kifayət qədər düşünülməmiş, tələsik çıxarılan nəticədir. O, həqiqəti birtərəfli, illüziyalı şəkildə canlandırır, bilərəkdən gerçəkliyi təhrif etmir.

Yalan- gerçıkliyin təhrif olunmuş formasıdır. onun idrakı məzmunu reallığa uyğun gəlmir.

Həqiqət gözəlliklə də bağlıdır, gözəlliyi bir növ bilikdən subyektiv həzz almaq üçün keçirilən attestasiya hesab etmək olar. Həqiqətin gözəlliyi yenin aşkara çıxarmaqdan duyulan xoş əhval ruhiyyədə ifadə olunur.

**Fəlsəfədə cəmiyyət problemi**

Cəmiyyət haqqında təlimi ilk dəfə Kont yaratmışdır və onu sosial fəlsəfə adlandırmışdır. O cəmiyyətə bütöv sosial orqanizm kimi yanaşırdı. Kont

cəmiyyətin inkişafını qanunauyğun proses kimi təsəvvür edirdi və bəşəriyyətin intelektual təkamülün böyük əsas qanununu irəli sürürdü. Yəni cəmiyyət öz inkişafında 3 mərhələdən: teoloji, metafizik və pozitivist:

1-ci mərhələdə dini şüur.

2-ci mərhələdə reallıq hadisələrin dərk olunması

3-cü mərhələ insan şüurunun mühakimələri və nəticələri daha çox müşahidələrə əsaslanır. Sonralar onun fikirlərini Spenser davam etdirir.

Cəmiyyət-insanların həyatının və fəaliyyətinin təşkilinin formalarının məcmusudur.Cəmiyyət fərdlərin birgə həyatlarının bütöv sistemidir.Buraya aiddir – qarşılıqlı münasibətlər,qarşılıqlı təsirlər,nizam,mədəniyyət,ənənə,cəmiyyət anlayışı.

`Cəmiyyət` anlayışı ümumi xarakter daşıyır.Bütövlükdə ictimai həyatı,onun inkişaf qanunlarını,keçmişini,müasir vəziyyətini və gələcəyini ifadə edir.Cəmiyyətə idealist və materialist yanaşmalar mövcuddur.

Obyektiv idealizmə görə cəmiyyətin amili əbədi və əzəli ideal qüvvədir.Bu ideal qüvvə təbiəti,cəmiyyəti,insanı yaratmış Allahdır.Allah onların inkişafını özünə xas olan ədədi qanunlarla tənzimləyir.Bu fikirlər Platona,Leybnitsə,Hegelə aiddir.

Subyektiv idealizmə görə cəmiyyət təsadüflər yığınıdır.Yəni,kralların,çarların,görkəmli şəxsiyyətlərin ideyası,arzusu,iradəsi,şıltaqlığıdır.Dialeklit materialist sosial fəlsəfə isə cəmiyyətin inkişafını maddi olanda görür.

**Cəmiyyət**- geniş mənada bütün bəşəriyyət, ardıcıl olaraq bir-birini əvəz edən tarixən əlaqədə olan və keyfiyyətcə müxtəlif olan sosial orqanizmdir. Canlı fəaliyyətdə olan sosial orqanizm kimi, cəmiyyət, insanlar arasındakı əlaqələr, münasibətlər sistemi ilə xarakterizə olunur.

**Cəmiyyət anlayışının fəlsəfi anlamı-** fərdlərin bir bütöv kimi əlaqə tipinin xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Belə əlaqələr bəzən mənəvi, bəzən isə insanların qarşılıqlı münasibətlərinə əsaslanan maddi amillərlə xarakterizə olunur.

**Cəmiyyətin əsas inkişaf qanunu**

**1)**Coğrafi mühitdən aslıdır.Məsələn Yaponiya adasının üzərində heçnə yoxdur.Amma o inkişaf etmiş ölkədir.Hindistan zəngin dövlətdir,amma inkişaf etməmişdir.Deməli düzgün deyil.

2)Cəmiyyətinin inkişafında demqrafik amil vacibdir.İnsanın sayı çoxaldıqca deməli olmalıdır.Amma buda belə deyil.Hindistanda,Pakistanda insan çoxdur.Norveçdə isə insan sayı azdır,lakin buna baxmayaraq inkişaf etmişdir.

3)İnsanların təhsilindən aslıdır.Cəmiyyətdə,insanların təhsilinə cavab verən istehsal münasibətləri olmalıdır ki,təmin olunsunlar.

Aparıcı amillər,məhsuldar qüvvələr,istehsal münasibətləridir və onların arasında uyğunluq olmalıdır.Bu uyğunluq olmadıqda inqilablar,böhranlar baş verir.Sosial problemlər yaranır.Cəmiyyətdə bu qanundur.Cəmiyyət mürəkkəb bir sistemdir.Əgər bu qanun varsa o inkişaf edəcək.

**Cəmiyyət**- onun münasibətləri insanların məqsədəuyğun, şüurlu şüurlu fəaliyyəti nəticəsində formalaşır. Cəmiyyət öz inkişafı fəlsəfi fikir tarixində 3 tarixi mərhələlərdən keçib:

1. Təbii, yəni tarixəqədərki dövr.
2. Nöqsanlı ictimai quruluşundan
3. Ağıllı, gələcək ideal cəmiyyət dövrlərindən

Cəmiyyət özünüinkişaf edən sistemdir. Cəmiyyət- mürəkkəb bir qurumdur. Onu başa düşmək üçün bəzi problemləri araşdırmaq lazımdır. Cəmiyyət təkcənin, xüsusinin və ümuminin ayrılmaz vəhdətidir. Cəmiyyəti təbii və ictimai yarımsistemlərə ayırmaq olar. Təbii yarımsistem dedikdə, yəni insan nəslinin

istehsal və təkrar istehsalı coğrafi mühit və ölkənin geopolitik vəziyyəti, nəsillər arasında münasibətlər və s.

İkinciyə ictimai yarımstruktura insan amili, ictimai həyatın istehsalı və təkrar istehsalı daxildir. Cəmiyyətdəki, iqtisadi münasibətlər cəmiyyəti təşkil edir. Cəmiyyətin inkişafında bazis və üstqurum əsas yer tutur. Bazis- müəyyən üst qurum münasibətlərinin məcmusudur. Bazis ictimai həyatın iqtisadi əsası olaraq istehsalı münasibətlərinin sosial funksiyasını ifadə edir.

**Üstqurum**- müəyyən iqtisadi bazis əsasında meydana gələn ictimai ideyaların idarələrin və münasibətlərin məcmusudur. Onun üzərində qurulan cəmiyyət içərisindəki münasibətlərdir. Üstqurum fəal qüvvəddir. Iqtisadi münasibətlər- maddi istehsalla bağlıdır. Iqtisadi münasibətlər insanların ayrı-ayrı iş sahələri üzrə bölünməsini, təsərrüfat fəaliyyətinin üsullarını və istehsalın idarə olunmasını əhatə edir. Iqtisadi münasibətlərin əsasında məhsuldar qüvvələr durur, yəni insan, istehsalat alətləri, istehsalat vasitələri- nəqliyyat, işıq, xammal, komputer və s.

Üstqurum və bazis cəmiyyətin inkişafı üçün çox vacibdir.Üstqrum iqtisadi münasibətlər üzərində qurulur.Bazis bünövrədir və o nə qədər möhkəm olursa olsun üstqurumda o qədər möhkəm və uzunmüddətlidir.Bazis qısa müddətdə dəyişə bilər.Bazis maddidir.Üstqurum mənəvidir.

Məhsuldar qüvvələr vasitəsi ilə cəmiyytə təbiətə təsir göstərir və onu dəyişdirir. Təbiət ən ümumi əmək predmetidir.

***İstehsal münasibətlər***- antoqonist və sosialist. Antoqonist cəmiyyətdə biri digərini istismar edir. Bura aiddir: quldarlıq və feodalizm. Sosialist cəmiyyətdə istismar yoxdur, amma bütün əmək alətləri dövlətindir. Məhsuldar qüvvəllər daha tez dəyişir, inkişaf edir, istehsal münasibətləri isə ləng inkişaf edir. Məhsuldar qüvvəllər məzmun, istehsal münasibətlər isə formadır. Forma köhnəlir, cəmiyyətdə ziddiyyətlər yaranır. Cəmiyyətin maddi həyatı ilə yanaşı onun mənəvi həyatı da vardır ki, bu da ictimai şüurdur.

Maddi istehsalın cəmiyyət inkişafı üçün çox böyük əhəmiyyəti var.O cəmiyyətin mövcudluğu üçün maddı baza yaradır.Cəmiyyət qarşısında duran probləmlərin həllinə kömək edir.Sosial strukturlara(siniflər,sosial qruplar)birbaşa təsir göstərir.Həmçinin siyasi proseslərə təsir göstərir.Mənəvi sferaya təsir göstərir-həm bilavaistə(məzmuna),həm də infrastruktura(məktəb,kitabxana,teatr və kino) eyni zamanda daşıyıcı rolunu oynayır.

İctimai-iqtisadi uklad anlayışı müəyyən ictimai-iqtisadi formasiya daxilində istehsal munasibətlərinin bu vəya digər formasına əsaslanan təsərüfatın növünü ifadə edir.Uklad anlayışı cəmiyyətin iqtisadi qruluşunu öyrənməkdə mühim vasitedir.Uklad cəmiyyətin iqtisadi qruluşuna daxildir.

## Cəmiyyətin mənəvi həyatı

Cəmiyyət 2 hissədən maddi və mənəvi həyatdan təşkil olunub.Cəmiyyətin maddi həyatını maddi nemətlərin istehsalı, sosisal maddi yaşayış tərzi , maddi-ictimai varlıq və s. təskil edirsə, onun mənəvi sferasını təhsil, peşə, ixtisas fəaliyyəti,elmi-texniki, əxlaqi, estetik və hissi psixoloji hərəkətləri, mənəviyyatı, davranışı, dünyagörüşü, adət-ənənələri ve s. təşkil edir. Cəmiyyətin mənəvi həyatını ictimai- iqtisadi quruluş müəyyənləşdirir. Mənəvi həyat geniş əhatə dairəsinə malikdir. O ən ümumini ifadə edir.

Mənəvi fəaliyyət ele fəaliyyətdir ki, bu proses nəticəsində insanda maddi və mənəvi dünya haqqında fikir, hisslər,obraz ve s. yaranır.

Mənəvi fəaliyyət nəticəsində mənəvi dəyərlər yaranır.

Mənəvi fəaliyyət zamanı insanlar öz təlabatlarına uyğun olaraq mənəvi dəyərlərdən istifadə edirlər və yayırlar.

**Mənəvi münasibətlər** - insanlar arasında ünsiyyət mənəvi dəyərlərin mübadiləsidir.

**İnsanın fərdi şüuru -** insan tərəfindən varlığın ayrı-ayrı cəhətlərinin dərk olunmasıdır.

Cəmiyyətin mənəvi həyatında mühüm rol ictimai şüurundur. Çünki cəmiyyətin mənəvi sferasına daxil olan əxlaqi, siyasi, həqiqi, bədii və s. ideya, baxış və nəzəriyyələr ictimai şüura aiddirlər.

**İctimai şüur**- bütövlükdə cəmiyyət, sosial qrup üçün səciyyəvi olan baxışlar və ideyalar nəzərdə tutulur. İctimai şüur bütün cəmiyyətin mənəvi sərvətidir. Məs: elmi kəşflər, bədii ideyalar. İctimai şüur çox vacibdir.

**İctimai şüur** - ictimai praktikadan, istehsal, ailə-məişət və başqa fəaliyyətdən yaranır. İctimai şüur varlığın inikasıdır, cəmiyyətin mənəvi həyatının başlıca hissəsidir. Onun inikas obyekti - ictimai varlıqdır, insan əhatə edən gerçəklikdir. İctimai varlıq ictimai şüurdan asılı olmayaraq mövcuddur.

İctimai şüur ictimai varlıqdan doğmuşdur, onun nəticəsidir və onunla əks etdirir. Ona görə də ictimai inkişafın mənbəyini cəmiyyətin maddi həyatında, iqtisadi münasibətlərdə axtarmaq lazımdır. İctimai varlığım dəyişməsi və inkişafına ictimai şüurun nisbi müstəqillik xüsusiyyəti ciddi təsir göstərir. Bu təsir cəmiyyətin inkişaf səviyyəsi ilə əlaqəli olaraq artır. İctimai şüurun nisbi müstəqilliyinin struktur elementləri ilə əlaqəsi ideologiyanın inkişafında xüsusi rol oynayır. İctimai şüur öz inkişafında ictimai varlığı qabaqlaya bilər, yəni ictimai şüurun ictimai varlıqdan geri qalması mütləq yox nisbidir, müəyyən şəraitlə bağlıdır. İctimai şüur öz inkişafında ciddi varisliyə malikdir. Hər bir ideologiya özündən əvvəlkilərdən, mənəvi sərvətdən istifadə edir, onun əsas cəhətlərini götürür, yaşadır. İctimai şüurun, ideologiyanın gerçəkliyə fəal təsir göstərməsi onun nisbi müstəqilliyinin ifadəsidir.

**İctimai şüurun strukturu**- adi şüur, ideologiya və ictimai psixologiya.

1. **Adi şüur** - insanların gündəlik praktiki həyat fəaliyyətindən meydana gələn ideyalar, təsəvvürlər və baxışların məcmusudur. Şəxsiyyət bütövlükdə böyük sosial qruplara aiddir. O, özündə empirik təcrübəni, biliyi, əxlaq normalarını, təbiət və insanın öz sosial vəziyyəti haqqında kortəbii təsəvvürləri birləşdirir.

2. **İdeologiya-** cəmiyyətin iqtisadi və sosial xüsusiyyətlərini bilavasitə və ya dolayısı ilə əks etdirən müəyyən ictimai sinfin mövqeyini mənafe və məqsədlərini ifadə edən, mövcud ictimai quruluşu saxlamağa və dəyişdirməyə yönələn baxışlar və ideyalar sistemidir.
3. **İctimai psixologiya-** əsasən insanların sosial varlığının, onların yaşadığı və fəaliyyət göstərdiyi şəraitin təsiri altında formalaşır.

**İctimai şüurun formaları:** siyasi, hüquqi, əxlaqi, elmi, fəlsəfi, dini.

## Cəmiyyətin maddi həyatı

İstehsal prosesində insanlar maddi məhsullar, yaşayış vasitələri, istehsal etməklə öz ictimai münasibətlərini də istehsal və rəkrar istehsal edirlər.

Maddi istehsal cəmiyyətin təbiətlə qarşılıqlı münasibətlərini anlamaq üçün bir vasitədir və onların qarşılıqlı təsir prosesidir. Bu qarşılıqlı əlaqə sayəsində insan özünə lazim olan aşayış vasitələrini əldə edir, əmək, istehsal sosial varlıq olaraq insanın özünün formalaşmasının onun təbiətdən ayrılmasının əsasıdır.

1. İnsan əməyi onun təbiətə fəal təsirindən ibarətdir
2. İnsan əməyi istehsal alətlərinin müntəzəm surətdə istehsal olunmasını nəzərdə tutur.
3. İnsan əməyi onun məqsədyönlü şüurlu fəaliyyəti deməkdir.
4. İnsan əməyi ictimai xarakter daşıyır və cəmiyyətdən kənard mümkün deyil.

Maddi istehsal ictimai həyatın elə bir sahəsidir ki, burada maddi məhsul yaradılır və sonra bu məhsul ictimai istehlaka, istehsal istehlakına və ya şəxsi istehlaka sərf edilir istehsalsız cəmiyyət yoxdur.

Məhsuldar qüvvələr o qüvvələrdir ki, cəmiyyət bunların vasitəsi ilə təbiətə təsir göstərir və onu dəyişdirir. Təbiətə ən ümumi əmək predmetidir oun fəal keçiricisi isə insandır. Biliyə təcrübəyə malik insanlar, zəhmətkeçlər cəmiyyətin çox mühüm məhsuldar qüvvəsidir. Insan öz biliyi, təcrübəsi ilə yeni texnika yaradır, istehsalı

icra edir. Məs. avtomobil, komputer və s. texniki tərəqqi əmək məhsuldarlığının artmasında mühüm rol oynayır. Elmi-texniki inqilab cəmiyyətdə elmin mövqeyini onun, istehsala münasibətini dəyişdirir, elm məhsuldar qüvvəyə çevrilir.

İstehsal məhsuldar qüvvələri və istehsal münasibətləri əhatə edir, onların vəhdətindən ibrətdir. İstehsal münasibətləri bütövlükdə istehsal üsulunun sosial təbiətini müəyyən edir. İstehsal münasibətlər - iqtisadi münasibətlər və ictiai həyatın maddi tərəfinə aiddir. Onlar insanların idarə və şüurundan asılı olmadan mövcuddur və insanların arzuları ilə deyil, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun gəlməsinin zəruriliyi ilə müəyyən olunur.

İstehsal prosesinin ictimai xarakterinə ancaq istehsal vasitələri üzərində ictimai mülkiyyət uyğun gəlir.

## Müasir dövrün qlobal problemləri və onların fəlsəfi təhlili

Müasir dövrün qlobal problemlemləri ictimai tərəqqi ilə əlaqədar olaraq meydana gəlmişdir. Qlobal problemlər o problemlərə deyilir ki, onlar ayrı-ayrı ölkələri və xalqları deyil, bütün dövlətləri, bütün bəşəriyyəti hədələyir, narahat edir. Qlobal problemlər bütün dünya dövlətləri, bəşəriyyət üçün təhlükə törədir, bütün dünya xalqlarını narahat edir. Bu problemlər lokal və regional problemlərdən törəyir. Qlobal problemlər və onların həlli yollarına aşağıdakılar aiddir.

1. İstilik nüvə müharibəsi
2. Təbii ehtiyatlardan səmərəli və kompleks şəkildə istifadə edilməsi
3. Fəal demoqrafik siyasətin aparılması
4. Ətraf mühitin mühafizəsi
5. Sosial ədalətin təzahürləri
6. Aclıq və yoxsulluğun aradan qaldırılması
7. Elmi-texniki inqilabın nailiyyətlərindən səmərəli istifadə edilməsi

8. Tcxəhsil və maarif, səhiyyə və s. göstərmək olar bu problemi ayrılıqda deyil, ümumdünya miqyasında əməkdaşlıq, sıx əməli qarşılıqlı fəaliyyət nəticəsində aradan qaldırmaq olar.

Qlobal problemlərin həlli yolunda ən mühüm amil təbiətlə cəmiyyət arasındakı ziddiyyətlərin aradan qaldırılmasıdır. Əsas söhbət ətraf mühitin, hava hövzəsinin, okean və dənizlərin çirklənməsindən təbii ehtiyatların tükənməsindən gedir. Qloballıq termini 3 mühüm mənaya malikdir:

1. Miqyaslı əhəmiyyətli
2. Ümumbəşəri, ümumdünya, planetar, beynəlxalq, beynəlimləl
3. Bu qlobal problemlər həll edilməzsə ictimai tərəqqi ləngiyər, sivilizasiya məhv edilə bilər. Demək, gələcəyin müqədaratı bu problemin həllindən asılıdır.

1. Onlar bütün dövrlərin, xalqların bütünlükdə bəşəriyyətin mənafeyini ifadə edir.
2. Onlar qarışıq sosial-təbiət, biososial mahiyyətə malikdir. Özündə ictimai və təbii prosesləri birləşdirir.
3. Onların həlli kollektiv səyləri, dünya birliyinin bütün üzvlərinin beynəlxalq əməkdaşlığını tələb edir.

Qlobal problemlərə təbii fəlakətlər: zəlzələ, vulkan, su daşqınları, quraqlıq, yanğın və s. müharibələr, basqınlar, epidemiyalar (vərəm, taun) aclıq və s. aiddirlər.

Qlobal problemlərin həllində sülhün bərqərar olması, insanla təbiətin dostluğu, ictimai tərəqqi (siyasi və mədəni, iqtisadi) şəxsiyyətin ahəngdar inkişafı və s. böyük rol oynayır.

Elmi texniki inqilabın inkişafı bəzi yolxucu xəstəliklərin aradan qalxmasına, uşaq ölümünün azalmasına və s. problemlərin həllini asanlaşdırıb.

Müasir qlobal problemlərin yaranma səbəbləri

1-ci ictimai inkişafın əzəli obyektiv ziddiyyətləri cəmiyyət, insan və təbiət arasındakı ziddiyyətlər

2-ci cəmiyyətin ümumi böhranının güclənməsi

3-cü dünyanın müxtəlif regionlarında Elmi texniki inqilabın sürətli inkişafı.

## Kateqoriyaların mənşəyi, mahiyyəti, təsnifatı və əhəmiyyəti

**Kateqoriya-** yunan sözü olub "göstəriş", "şəhadətnamə", "fikir söyləmək", "sübut" deməkdir. Ümumilikdə isə anlayış deməkdir. Fəlsəfə tarixində Aristotel, Hegel, Marks kateqorioloq olmuşlar.

Kateqoriya-gerçəkliyin ən ümumi, ən mühüm ılamətlərini əks etdirən əsas məntiqi anlayışlardır. Kateqoriya ilk növbədə qazanılmış bilikdən yeni biliyə keçidi müəyyənləşdirən formadır.

Fəlsəfi kateqoriyalar digər elmlərin kateqoriyadan ümumilik dərəcəsinə görə fərqlənirlər. Fəlsəfi kateqoriyalar öz həcminə görə daha ümumi olub maddi və mənəvi aləmin istisnasız olaraq bütün predmet və hadisələrinə, əlaqə və münasibətlərinə aid edilir və bütün elmlərdə və gündəlik həyatda işlədilir. Kateqoriya öz məzmunu etibarı ilə obyektiv, formaca isə subyektivdir. Obyektivliyi ondan ibarətdir ki, onların məzmunu obyektiv aləmdə mövcud olan və insan şüurundan asılı olmayan tərəflər və əlaqələr təşkil edir. Subyektivliyi onların gerçıkliyi yalnız insan üçün səciyyəvi olan məntiqi, abstrakt formada əks etdirməlidir.

Məşhur yunan filosofu Aristotel "Kateqoriyalar" adlı traktatında kateqoriyaların təsnifatı sisteminə aid xüsusi, bölgü cədvəlini vermişdir. Substansiya, kəmiyyət, keyfiyyət, münasibət, yer , məkan, zaman, vəziyyət, hal, hərəkət və iztirab.

Kant kateqoriyalara subyektə, təfəkkürə xas olan bir fenomen kimi baxmış, onları "mühakimənin idrakın aprior" formaları hesab etmişdir.

Kant kateqoriyaların təsnifatını belə vermişdir: kəmiyyət (tək, cəm, bütöv, tam) münasibət (substansiya, xassə, səbəb, təsir və qarşılıqlı təsir), modallıq (imkan və imkansızlıq).

Kateqoriyalar ciddi dünyagörüşü əhəmiyyətinə malikdirlər. Ona görə ki, kateqoriyalar vasitəsilə insan nəyin həqiqət, nəyin yalan olduğunu öyrənir, hadisələrin inkişafını müəyyən edın daxili, zəruri əlaqələri aşkar edir, qanunauyğunluqları dərk edərək onları öz əqidəsinə, fəaliyyət motivinə çevirir.

Hegel fəlsəfi kateqoriyaların təsnifatını belə vermişdir: varlıq (keyfiyyət, kəmiyyət, ölçü) mahiyyət (əsas, hadisə, gerçəklik, gerçıkliyə isı, o substansiya səbəb və qarşılıqlı təsiri aid edirdi) anlayış (subyekt, obyekt, mütləq ideya) Hegel kateqoriyaları "müstəqil mahiyyətlər" adlandırmışdır.

Kateqoriyalar insan fəaliyyətini istiqamətləndirən, onun məqsədli mövqe seçməyini mühüm metodoloji əhəmiyyət kəsb edən fenomendir. Kateqoriyalar haqqında fikirləri yekunlaşdıraraq uzun ümumi təsnifatın növlərini belə qruplaşdırmaq olar.

A) Ontoloji və ya substantiv kateqoriyalar: (varlıq, materiya, ideya, təfəkkür)
B) Atributiv (məkan, zaman, hərəkət, inkişaf, ziddiyyət, keyfiyyət, ölçü, hal)
C) Nisbət və ya relyativ kateqoriyalar yəniki, cüt kateqoriyalar onlar iki tərəflidirlər. (tək və ümumi, səbəb və nəticə, zırurət və təsadüf) birinin mövcudluğu, digərini tələb edir. ən ümumi və ya universal əlaqələri əks etdirən kateqoriyalar: tək, xüsusi və ümumi qanunvə qanunauyğunluq, mahiyyət və hadisə. Struktur əlaqələrini ifadə edən kateqoriyalar hissə və tam, sistem struktur və element, məzmun və forma. Determinlik və ya səbəbiyyət əlaqələrini ifadə edən kateqoriyalar: səbəb və nəticə, zərurət və təsadüf, imkan və gerçəklik.

## Qloballaşma

Qloballaşma termini 80ci illərin ortalarında meydana gəlmiş və T. Levitin adı ilə bağlıdır. O, 1983cü ildə Harvard Bizdes Revyu jurnalında çap etdirdiyi məqaləsini çoxmillətli korperasiyaların istehsal etdiyi ayrı ayrı məhsulların bazarların bir birilə qovuşması nəticəsində yaranmışdır. Bu terminin yayılması isə R. Robertsonun adı ilə bağlıdır. M. Uters qloballaşmanı sosial proses kimi müəyyənləşdirmişdir. Yəniki, sosial prosesin gedişində sosial və mənəvi sistemlərin coğrafi sərhədləri silinir və əhali getdikcə daha çox bu fərqlərin aradan götürüldüyünü dərk edir.

Qlobalizm dünya bazarlığı siyasi fəaliyyəti sıxışdırılması və yaxud dəyişdirilməsi deməkdir. Bu dünya bazarının ağalığı idealogiyasıdır. Qlobalizm ideoloji əsası siyasətlə iqtisadiyyatın arasındakı fərqlərin götürülməsidir. Qlobalizm mürəkkəb qurum olan dövlətin mədəniyyəti, xarici siyasəti sadə müəssisə kimi idarə etməyə imkan verir. Qloballaşma milli dövlətlər və onların suverenliyi, transmilli aktların toruna çovğalaşır bə onların hökm verməк imkanına, areterasiyasına və identikliyi ilə razılaşmalı olur.

Qloballaşma ümumdünya dövlətinin olmamasını irəli sürür. Qloballaşma 20 ci əsrin sonundan başlayaraq insan fəaliyyəti nəticəsində aradan qaldırılması mümkün olmayan bir prosesdir.

Qloballaşma prosesinin inkişaf xüsusiyyətləri: qloballaşma prosesinin təhlili göstərir ki, o bəşəriyyətin tarixi inkişaf qanunauyğunluqları əsasında formalaşmış yeni obyektiv inkişaf mərhələsidir. Qloballaşma ən yeni informatika və telekommunikasiya vasitələri əsasında bəşəriyyətin böyük hissəsinin vahid iqtisadi maliyyə, ictimai, siyasi və mədəni əlaqələr sistemin cəlb olunmasına prosesidir. Qloballaşma sivilizasiyalar arası dialoqa və qarşılıqlı əlaqələrin zərurəti qanunauyğunluğunu yaradan inkişafdır. Qloballaşma meqasosiumun bütövlük formasıdır, dünya proseslərinin qarşılıqlı asılılığını təmin edən inkişaf prosesidir. Qloballaşma terminin latın termini olan qlobus - yəni Yer kürəsi ilə əlaqədar. Qloballaşma Yer kürəsində bütün ictimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatın vahid ümumdünya sisteminə qovuşmasıdır. Qloballaşma sosial, iqtisadi, siyasi, ekoloji, mədəni inkişaf proseslərinin ümumi planetar xarakterlərini

ifadə edir. Qloballaşma dövlət qüvvələri tərəfindən deyil, bazarlarla müəyyən edilən prosesdir. Qloballaşma həyatın yekcinsləşməsi: qiymətləri, məhsulları, səhiyyənin səviyyəsi və keyfiyyətini, gəlir səviyyəsini, bank qoyuluşlarını dünya səviyyəsində bərabərləşdirmə tendensiyası deməkdir. Qloballaşma təkcə dünyadakı iqtisadi prosesləri dəyişmir, həmçinin onun strukturunu da dəyişir. Qloballaşma bəşəriyyətə çox böyük təsir qüvvəsinə malikdir. Belə ki, transkondinental və regionlararası proseslər gedir ki, bunlar da öz növbəsində miqyasına görə qarşılıqlı asılılıq münasibətini formalaşdırır.

Qloballaşma müasir dünyanın bütün sahələrində mürəkkəb proseslərin differensasiya və inteqrasiyalaşmasında öz əksini tapır. Qloballaşma dünyada inkişafını məntiqi nəticəsini müasir dövrümüzü əhatə edən bir inteqrasiya epoxasıdır. Qloballaşma qədim dövlətlərin bir-birilə sıx qarşılıqlı təmas enerjisindən doğur.

## Ədəbiyyat siyahısı


1. Fəlsəfə ensiklopediyası lüğəti, Bakı, 1997
2. İmanov H. Fəlsəfə, Bakı, 2005
3. İmanov H., Əhədov A. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı, 2008
4. Fəlsəfə (ali məktəblər üçün dərslik), Bakı, 1996
5. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Dərs vəsaiti, 1996
6. Məmmədov Z. Azərbaycan fəlsəfi tarixi, Bakı, 2006
7. Paşayev V. Fəlsəfə. Bakı, 1999
8. Rüstəmov Y. Fəlsəfənin əsasları, Bakı, 2004
9. Şükürov A. Fəlsəfə (ali məktəblər üçün dərs vəsaiti), Bakı, 1997
10. Zeynalov M. Xarici ölkələrin fəlsəfə tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2004
11. İsmayılov F. XX əsr Qərb fəlsəfi tarixi. Dərs vəsaiti, Bakı 2000
12. Xəlilov S. Fəlsəfə: tarix və müasirlik (fəlsəfə - komparativistika), Bakı, 2006
13. Mehdiyev R. Fəlsəfə, Bakı, 2003
14. Fərrux Ramazanov, M.Teymurlu

Rus dilində

15. "Введение в философию". Учебы, пособие. М. республика, 2004 г.
16. Витчеништейн Л. Философии работы. М. Гнозис , 1994 г.
17. Горфинкель А.Х. Философия
18. Возреждения М. Мысль, 1980 г.
19. Ильенков Э.В. Философия и культура. М, Республика, 1991
20. Карантин Р. Введение в философию, М. Изд-во ЭКСМО, 2003 г.
21. Лосев А.Ф. История аммиачной философии в конспектом пуломении. М. Мысль, 1982 г.
22. Новая философия энциклопедия в 4-х томах. М., Мысль, 2001 г.
23. Западная философия ЧЧ века. М., Интерпрат, 1994 г.

24.Самолов В.В. Европейская философия XV-XVII вв. М., Высшая школа, 1984 г.
25.Самолов В.В. Средневековая философия М. Высшая школа, 1979 г.
26.Сорокин П. Человек. Цивилизация общества. И. Политиздат, 1992
27.Хайдеррер М. Что такое философия. Вопросы философии, 1993 г. №8
28.Энциклопедический словарь М., Мысль, 1999 г.
29.Яснер С.К. Смысл и назначение истории. М., Политиздат, 1994